Xalqın qəzeti!

# Xalq qəzeti

№ 135 (30539) 2 iyul 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Vaşinqtonun istəyi və Bakının yaratdığı reallıq



Səhifə ⇨ 10

## TDT-nin Zirvə görüşü dostluq və qardaşlığımızı yeni zirvəyə yüksəldəcək

### Azərbaycan Prezidenti Qırğız Respublikasının yeni səfirinə uğurlu fəaliyyət arzulayıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Qırğız Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Maksat Mamıtkanovun etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Maksat Mamıtkanov Qırğız Respublikasının Prezidenti Sadır Japarovun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və ən xoş arzulara görə minnətdarlığını bildirdi, onun da salamlarını Sadır Japarova çatdırmağı xahiş etdi.

Söhbət zamanı əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsində inkişaf etməsi məmnunluqla qeyd olundu.

Son illərdə ikitərəfli münasibətlərimizin böyük dərəcədə inkişaf etdiyini və keyfiyyətcə yeni mərhələyə qalxdığını deyən Azərbaycan Prezidenti dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin əhəmiyyətinə toxundu, ənənəvi dostluq və qardaşlıq əlaqələrimizin möhkəmləndiyini vurğuladı.

Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət, iqtisadiyyat, investisiya, nəqliyyat və digər sahələrdə mühüm layihələrin həyata keçirildiyini məmnunluqla qeyd etdi.

Dövlətimizin başçısı Ağdam rayonunda Qırğızıstanın məktəb tikintisi layihəsini və quruculuq prosesinə göstərdiyi dəstəyi vurğulayaraq buna görə Qırğız Prezidentinə və xalqına bir daha minnətdarlığını bildirdi, bunu qardaşlıq əlaqələrimizin nümayişi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev əməkdaşlığımızın genişləndirilməsi üçün qarşıda böyük planların durduğunu dedi və əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycan və Qırğızıstan rəhbərliyində qardaş ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi və mövcud potensialın reallaşdırılması üçün qarşılıqlı iradənin olduğunu bildirdi.

**(ardı 2-ci səhifədə)**



## Sərhəd danışıqları davam edir

**Müvafiq razılaşmalara əsasən, komissiyalar "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası məsələləri və sərhəd təhlükəsizliyi üzrə Komissiyanın birgə fəaliyyəti haqqında" Əsasnamə layihəsinin razılaşdırılması üzərində işləyirlər.**

2024-cü il iyulun 1-nə olan vəziyyətə görə, komissiyalar işçi qaydada Əsasnamənin layihələrinin mübadiləsini həyata keçirib və bir sıra müzakirələr aparıblar. Danışıqlar konstruktiv məcrada davam edir. Razılaşdırma prosesinin tezliklə başa çatdırılması planlaşdırılır.

## Bizim polisimiz bizi və dövlətçiliyimizi qoruyur



Səhifə ⇨ 6

## Qiymət tənzimlənməsi nəqliyyat şəbəkəsinə yeni keyfiyyət gətirəcək

Səhifə ⇨ 8

## Milanda milli enerji strategiyamıza baxış




Səhifə ⇨ 9

## Biz dirçəltməyə, qurmağa, yaşatmağa qayıtmışıq



Səhifə ⇨ 11

## Qətər görüşü "Taliban"ın tanınmasıdırmı?




Səhifə ⇨ 15

## Çalxalandıqca, bulandıqca Fransa nehrə kimi



Səhifə ⇨ 10

## Almaniya səmasında şimşəklər çaxsa da...

UEFA EURO2024 GERMANY

Səhifə ⇨ 16

# Azərbaycan Prezidenti Qırğız Respublikasının yeni səfirinə uğurlu fəaliyyət arzulayıb



(əvvəli 1-ci səhifədə)

Türk Dövlətləri Təşkilatı çərçivəsində ölkələrimizin əməkdaşlığına toxunan Prezident İlham Əliyev bu təşkilatın bir ailə olduğunu qeyd etdi.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının ilk dəfə Şuşa şəhərində keçiriləcək qeyri-rəsmi Zirvə görüşünün əhəmiyyətinə toxunuldu, bu tədbirdə dövlət başçıları arasında aparılacaq dialoq və müzakirələrin önəmi vurğulandı.

Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Maksat Mamıtkanov münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini vurğuladı, əlaqələrimizin genişləndirilməsi ilə bağlı Qırğızıstan Prezidentinin ona tapşırıqlar verdiyini dedi və bu istiqamətdə səylərini əsirgəməyəcəyini bildirdi.

Ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin yüksək səviyyədə olduğunu deyən səfir qeyd etdi ki, Azərbaycanın Qırğızıstana yatırdığı irihəcmli investisiyalar ölkə iqtisadiyyatının inkişafına böyük kömək göstərir.

Əməkdaşlığımızın möhkəmləndirilməsi üçün geniş potensialın olduğunu vurğulayan Maksat Mamıtkanov dedi ki, dövlət başçılarımız arasında olan münasibətlər və onların göstərdiyi səylər əlaqələrimizin uğurlu inkişafının əsasını qoyub.

Qırğızıstan Prezidentinin bu ilin aprelində ölkəmizə dövlət səfərinin əhəmiyyətinə toxunan səfir bu səfərin çox uğurlu olduğunu və yaxşı nəticələr verdiyini vurğuladı.

O, Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılmasının əhəmiyyətinə toxundu, onun ölkələrimiz arasında əməkdaşlığın inkişafına verdiyi töhfəni qeyd etdi.

Maksat Mamıtkanov Qırğızıstanda İssık-Kul gölünün sahilində Azərbaycan tərəfindən beşulduzlu mehmanxananın inşasının ölkəsində kurort sahəsinin inkişafında böyük rol oynayacağını dedi.

Diplomat görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun irsinə və onun xatirəsinə Azərbaycan tərəfindən göstərilən ehtirama görə minnətdarlığını bildirərək, Sadır Japarovun ölkəmizə dövlət səfəri zamanı Azərbaycan və Qırğızıstan prezidentlərinin iştirakı ilə görkəmli qırğız yazıçısının Bakıda abidəsinin açılışını məmnunluqla xatırladı.

Azərbaycan Prezidenti qeyd etdi ki, Çingiz Aytmatov bütün türk sivilizasiyasının övladıdır və dünyada böyük şöhrətə malikdir.

Görüşdə COP29 çərçivəsində Azərbaycanın və Qırğızıstanın birgə təşəbbüs imkanları barədə fikir mübadiləsi aparıldı.

# Filippinin yeni səfirinin etimadnaməsi qəbul edilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Filippin Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Henri Jr. Bensurtonun etimadnaməsini qəbul edib.**



Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Henri Jr. Bensurto Filippin Prezidenti Ferdinand Romualdez Markosun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Filippinin dövlət başçısına çatdırmağı xahiş etdi.



Azərbaycan Prezidenti ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafını qeyd edərək beynəlxalq təşkilatlar çərçivəsində, həmçinin turizm, investisiyalar sahələrində əməkdaşlığa və insanlar arasında təmaslara toxundu, hökumət nümayəndə heyətlərinin səfərlərinin önəmini vurğuladı.

Səfir Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin çox uğurlu olduğunu, bu məsələdə böyük bir irs qoyduğunu və ölkəmizin bu Hərəkatın təsisatlanması istiqamətində ciddi addımlar atdığını qeyd etdi.

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran Henri Jr. Bensurto Filippinin də bu tədbirdə yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını dedi.

Dövlətimizin başçısı ölkəmizin həm Qoşulmama Hərəkatına, həm də COP29-a sədrliyi ilə bağlı təbriklərə və xoş sözlərə görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uğurla həyata keçirilməsinə üzv ölkə kimi Filippinin göstərdiyi dəstəyə görə minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı COP29 çərçivəsində Azərbaycanın Qlobal Cənubun tərkib hissəsi olaraq ölkələr arasında həmrəyliyin gücləndirilməsinə və körpülərin qurulmasına çalışacağını vurğuladı.

# Azərbaycan və İsrailin XİN rəhbərlərinin telefon müzakirəsi

**İyunun 28-də xarici işlər naziri Ceyhun Bayramov ilə İsrail Dövlətinin xarici işlər naziri İsrael Katz arasında telefon danışığı olub.**

Tərəflər iki ölkə arasında əməkdaşlıq əlaqələrinin cari vəziyyəti və perspektivlərini, beynəlxalq və regional məsələləri, Qəzza ətrafında yaranmış vəziyyəti müzakirə ediblər.

Ceyhun Bayramov Qəzzada qısa müddət ərzində atəşkəsin əldə olunması, hər iki tərəfdən mülki əhalinin hədəf alınmaması, İsrail-Fələstin münaqişəsinin sülh yolu ilə həllinin vacibliyini vurğulayıb.

Telefon danışığı zamanı Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində 2024-2026-cı illəri əhatə edən sədrliyi çərçivəsində görülməsi zəruri işlər və planlar nəzərdən keçirilib.

Ceyhun Bayramov həmkarına postmünaqişə dövründə bölgədəki mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə məsələləri, habelə Azərbaycan–Ermənistan sülh prosesi barədə ətraflı məlumat verib.

Ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi çərçivəsində iki ölkə arasında əməkdaşlıq üçün əlavə imkanın yaradılığı vurğulanıb.

**XQ**

# Kanadanın yeni səfiri etimadnaməsini dövlət başçımıza təqdim edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kevin Hamiltonun etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Kevin Hamilton Azərbaycanın çox gözəl, dinamik inkişaf edən və mühüm ölkə olduğunu vurğuladı. Azərbaycan ilə Ermənistan arasında əhatəli sülh müqaviləsi imzalanarsa regionda əməkdaşlıq üçün yeni imkanların yarana biləcəyinə ümidvarlığını bildirən səfir dedi ki, biz regionda daha yaxşı münasibətlərin qurulmasını arzulayırıq ki, bunun nəticəsində bizim həm Azərbaycan, həm də Ermənistan ilə əlaqələrimiz inkişaf etsin.

Səfir Kanadanın həmişə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bildirərək, ədalətli, əhatəli və daimi sülh müqaviləsi üzərində fəal iş aparıldığından məlumatlı olduğunu dedi.

Dövlətimizin başçısı torpaqlarımızın işğalı dövründə orada etnik təmizləmə və soyqırımının törədildiyini, ərazilərimizin kütləvi şəkildə dağıdıldığını qeyd etdi. Prezident İlham Əliyev həmin dövrdə münaqişənin həlli ilə bağlı çox böyük səylər göstərildiyini, lakin bu səylərin uğursuz olduğunu bildirdi. Belə ki, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü münaqişənin həllinə nail ola bilmədi, daha doğrusu olmaq istəmədi. Onların hamısı Ermənistanın həyata keçirdiyi işğalın müxtəlif səbəblər üzündən həmişəlik olmasını istəyirdi. Dövlətimizin başçısı bu qənaətə prezidentlik fəaliyyətində öz şəxsi təcrübəsi əsasında gəldiyini dedi. Prezident İlham Əliyev 2003-cü ilin sonundan başlayaraq keçmiş Minsk qrupu üçlüyü və Ermənistan tərəfi ilə dəfələrlə görüşdüyünü xatırladı və bütün bunların heç bir nəticə vermədiyini dedi. Dövlətimizin başçısı bildirdi ki, keçmiş Minsk qrupunun üzvləri və Ermənistan tərəfi bunu istəmirdi. Ermənistan tərəfi torpaqlarımızı həmişəlik işğal altında saxlamaq istəyirdi.

Dövlətimizin başçısı bildirdi ki, hazırda biz ikitərəfli səviyyədə daha yaxşı nəticələr görürük. Kiminsə tərəfindən bu prosesə müdaxilə yoxdur. Sərhədlərin delimitasiyası, hətta nadir hal olan demarkasiya məsələlərində razılıqlara gələ bilirik. Azərbaycan Prezidenti qeyd etdi ki, düzdür, hələ sülh müqaviləsi imzalanmayıb, lakin artıq sərhədlərin delimitasiyasına nail olunub.

Prezident İlham Əliyev vurğuladı ki, COP29 məsələsində Ermənistan bizim bu tədbirə ev sahibliyi etməklə bağlı məhdudiyyəti aradan qaldırdı, biz isə onların COP-un idarəedici orqanlarında iştirakına qarşı çıxmadıq. Dövlətimizin başçısı qeyd etdi ki, açığı, o, belə hesab etmir ki, Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsi bizim hansısa bir ölkə ilə ikitərəfli münasibətlərimiz üçün mühüm rol oynaya bilər.

Qlobal səviyyədə diplomatik fəaliyyətimizi şaxələndirdiyimizi deyən dövlətimizin başçısı Azərbaycan ilə Avropa İttifaqının 10 ölkəsi arasında strateji tərəfdaşlıq haqqında bəyannamənin olduğunu qeyd etdi və vurğuladı ki, bu sənədlərin çoxu torpaqlarımızın işğalı zamanı Azərbaycan ilə Ermənistan arasında heç bir sülh müqaviləsi olmadığı bir dövrdə imzalanıb. Bu baxımdan Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin olmaması hər hansı bir ölkənin regionda fəaliyyətinin səviyyəsinin müəyyənləşdirilməsi üçün bir amil ola bilməz.

Dövlətimizin başçısı bir məqamı da vurğuladı ki, Ermənistan 28 illik bir dövrdə beynəlxalq hüququn fundamental prinsipləri ilə razılaşmaq istəmədi. Onlar bütün humanitar qanunları pozdular, BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən müvafiq qətnamələrinə məhəl qoymadılar. Heç kim onlara zərrə qədər də irad tutmurdu. Münaqişə barədə danışan bir çox ölkələr Azərbaycanın ərazi bütövlüyünə sadiqlik bəyan etmirdilər. Prezident İlham Əliyev vurğuladı ki, indi - biz Ermənistanın işğalçı ordusuna döyüş meydanında qalib gəldikdən və onları torpaqlarımızdan qovduqdan sonra bizim ərazi bütövlüyümüzə dəstəklə bağlı bəyanatlar eşidirik. Amma biz bunu artıq özümüz təmin etmişik. Kiminsə bizim ərazi bütövlüyümüzü tanıyıb-tanımaması mahiyyət kəsb etmir. Azərbaycan Prezidenti qeyd etdi ki, bu, torpaqlarımız işğal altında olan bir dövrdə önəmli idi. Bəli, bir sıra Qərb ölkələrində ermənipərəst sentimentlərin mövcudluğu, erməni diasporunun rol oynaması məlumdur. Amma beynəlxalq hüquqa gəldikdə bu emosiyalar kənara qoyulmalıdır. Lakin bunu anlamaq önəmlidir ki, 28 illik bir dövrdə razılaşdırıla bilməyən məsələlərin 1-2 ilə həll edilməsi çətindir. Həm də Azərbaycan ilə Ermənistan arasında substantiv danışıqlara demək olar ki, dekabr ayında başlanılıb. Çünki ondan əvvəl Ermənistan sülh müqaviləsinə dırnaqarası "Dağlıq Qarabağ" məsələsini salmaq istəyirdi və bu, qəbuledilməz idi. Prezident İlham Əliyev vurğuladı ki, çünki bu, bizim daxili məsələmizdir. Beləliklə, separatçı rejim ləğv edildikdən sonra dekabr ayından başlayaraq danışıqlar cəmi 6 aydır gedir. Dövlətimizin başçısı bildirdi ki, buna zaman lazımdır və əlbəttə, sülh sazişinin başlıca şərti Ermənistanın konstitusiyasının dəyişdirilməsidir. Çünki onun tərkibində Azərbaycana qarşı ərazi iddiaları var və bu, baş verməyənə qədər sülh sazişi imzalanmayacaq. Bu, məlum məsələdir.

Azərbaycan Prezidenti qeyd etdi ki, bununla yanaşı, hesab edir ki, danışıqlar prosesi çərçivəsində kifayət qədər sürətli irəliləyirik. Dövlətimizin başçısı dedi: "Zənnimcə, sülh müqaviləsinin mətni, ən azı əsas prinsiplərin üzərində işi bir neçə aya yekunlaşdıra bilərik. Bildirim ki, işğal dövründə vasitəçilərin planı Madrid prinsipləri adlandırılan əsas prinsiplərə bağlı razılığa gəlməkdən ibarət idi. Onlar paraflanmalı və daha sonra isə mətn tərtib edilməli idi. Hesab edirik ki, bu, bir variant ola bilər - əsas prinsiplərlə bağlı razılıq əldə edilsin, onlar paraflansın və daha sonra mətn üzərində iş getsin". Prezident İlham Əliyev qeyd etdi ki, bu, onların konstitusiyaya dəyişiklik edəcəkləri təqdirdə baş tutacaq.

Qayıdış hüququ ilə əlaqədar səfirin şərhinə cavabında Azərbaycan Prezidenti bildirdi ki, qayıdış hüququ qarşılıqlı şəkildə təmin olunmalı, o cümlədən də Qərbi Azərbaycan İcmasının nümayəndələrinə şamil edilməlidir. Bu xüsusda dövlətimizin başçısı keçən yüzillikdə, sonuncusu 1988-ci ildə olmaqla müxtəlif mərhələlərdə köklü Azərbaycan əhalisinin indiki Ermənistan ərazisindən etnik təmizləməyə məruz qaldığını və onlara aid maddi-mədəni irsin tamamilə dağıdıldığını qeyd etdi.

Səfir dövlətimizin başçısına hörmətini ifadə edərək, məlumatlara görə minnətdarlığını bildirdi.

**AZƏRTAC**

# “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1603 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 1 – 3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

“**Maddə 1.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin gəlirləri 36 388 000,0 min manat, xərcləri 39 742 300,0 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 35 612 753,0 min manat, yerli gəlirləri 775 247,0 min manat, mərkəzləşdirilmiş xərcləri 38 957 497,0 min manat, yerli xərcləri 784 803,0 min manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 810 000 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 6 762 600 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 49 400 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 364 700 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 8 103 900 000,0 |
| 2.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 4 456 000 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 373 000 000,0 |
| 2.7. | Aksizlər | 1 553 000 000,0 |
| 2.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 185 000 000,0 |
| 2.8. | Yol vergisi | 127 400 000,0 |
| 2.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 37 000 000,0 |
| 2.9. | Mədən vergisi | 160 000 000,0 |
| 2.10. | Gömrük rüsumları | 1 757 000 000,0 |
| 2.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 209 000 000,0 |
| 2.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 1 934 000,0 |
| 2.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 558 220 000,0 |
| 2.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 12 781 000 000,0 |
| 2.15. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 28 000 000,0 |
| 2.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 11 000 000,0 |
| 2.17. | Dövlət rüsumu | 359 000 000,0 |
| 2.18. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 65 000 000,0 |
| 2.19. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 831 000 000,0 |
| 2.20. | Azərbaycan Respublikası Mərkəzi Bankının reallaşdırılmış mənfəətinin sərbəst qalığı | 250 000 000,0 |
| 2.21. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları üzrə daxilolmalar | 36 340 000,0 |
| 2.22. | Sair daxilolmalar | 196 506 000,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu üzrə daxilolmalar | 330 000 000,0 |
| 3.1.1. | yol vergisi | 127 400 000,0 |
| 3.1.2. | mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 6 700 000,0 |
| 3.1.3. | idxal olunan minik avtomobillərinə tətbiq edilən aksizlər | 60 000 000,0 |
| 3.1.4. | idxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumu | 96 400 000,0 |
| 3.1.5. | Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün tutulan dövlət rüsumu | 8 000 000,0 |
| 3.1.6. | nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 31 500 000,0 |

2. 5.2-ci maddəyə “sair daxilolmalar” sözlərindən əvvəl “Azərbaycan Respublikası Mərkəzi Bankının reallaşdırılmış mənfəətinin sərbəst qalığı,” sözləri əlavə edilsin.

3. 7-ci maddə aşağıdakı redaksiyada verilsin:

“**Maddə 7.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 7.1. | Ümumi dövlət xidmətləri | 4 542 824 282,0 |
| 7.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1 661 194 433,0 |
| 7.1.2. | beynəlxalq münasibətlər | 814 500 000,0 |
| 7.1.3. | xarici yardımlar | 80 000 000,0 |
| 7.1.4. | elm | 236 076 085,0 |
| 7.1.5. | seçkilərin keçirilməsi və statistika tədbirləri | 110 935 344,0 |
| 7.1.6. | büdcələrarası transfertlər | 344 510 000,0 |
| 7.1.6.1. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya (transfertin yuxarı həddi) | 336 460 000,0 |
| 7.1.6.2. | yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya | 6 500 000,0 |
| 7.1.6.3. | yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya | 1 550 000,0 |
| 7.1.7. | dövlət borcu | 1 295 608 420,0 |
| 7.2. | Müdafiə və milli təhlükəsizlik | 7 126 347 420,0 |
| 7.2.1. | müdafiə qüvvələri | 2 429 439 686,0 |
| 7.2.2. | milli təhlükəsizlik | 413 410 402,0 |
| 7.2.3. | sərhəd xidməti | 523 810 916,0 |
| 7.2.4. | müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 5 132 430,0 |
| 7.2.5. | müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 3 754 553 986,0 |
| 7.2.5.1. | xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 3 700 000 000,0 |
| 7.3. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 3 089 839 321,0 |
| 7.3.1. | məhkəmə hakimiyyəti | 145 974 083,0 |
| 7.3.2. | hüquq mühafizə | 2 209 200 909,0 |
| 7.3.3. | prokurorluq | 129 953 915,0 |
| 7.3.4. | məhkəmə qərarlarının icrası | 10 000 000,0 |
| 7.3.5. | hüquqi yardım | 5 562 128,0 |
| 7.3.6. | məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 589 148 286,0 |
| 7.4. | Təhsil | 4 550 334 684,0 |
| 7.4.1. | məktəbəqədər təhsil | 451 168 349,0 |
| 7.4.2. | ümumi təhsil | 2 373 170 868,0 |
| 7.4.3. | peşə təhsili | 77 135 017,0 |
| 7.4.4. | orta ixtisas təhsili | 101 424 397,0 |
| 7.4.5. | ali təhsil | 134 837 505,0 |
| 7.4.6. | əlavə təhsil | 20 727 009,0 |
| 7.4.7. | təhsil sahəsində tətbiqi tədqiqatlar | 7 653 356,0 |
| 7.4.8. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 1 384 218 183,0 |
| 7.5. | Səhiyyə | 1 866 395 005,0 |
| 7.5.1. | poliklinikalar və ambulatoriyalar | 2 165 901,0 |
| 7.5.2. | xəstəxanalar | 231 500 056,0 |
| 7.5.3. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 9 473 230,0 |
| 7.5.4. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1 623 255 818,0 |
| 7.5.4.1. | icbari tibbi sığorta fonduna ayrılan vəsait | 1 367 987 690,0 |
| 7.6. | Sosial müdafiə və sosial təminat | 4 391 430 496,0 |
| 7.6.1. | sosial müdafiə | 521 941 580,0 |
| 7.6.2. | sosial təminat | 6 269 878,0 |
| 7.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 50 000,0 |
| 7.6.4. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 3 863 169 038,0 |
| 7.6.4.1. | dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 232 000 000,0 |
| 7.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 575 615 455,0 |
| 7.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 233 801 779,0 |
| 7.7.2. | televiziya, radio və nəşriyyat | 67 589 813,0 |
| 7.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 71 013 450,0 |
| 7.7.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 22 073 699,0 |
| 7.7.5. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 181 136 714,0 |
| 7.8. | Mənzil və kommunal təsərrüfatı | 367 083 119,0 |
| 7.8.1. | mənzil təsərrüfatı | 69 078 201,0 |
| 7.8.2. | kommunal təsərrüfatı | 183 593 917,0 |
| 7.8.3. | su təsərrüfatı | 3 407 499,0 |
| 7.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 111 003 502,0 |
| 7.9. | Kənd təsərrüfatı | 1 202 593 587,0 |
| 7.9.1. | kənd təsərrüfatı tədbirləri | 546 216 731,0 |
| 7.9.2. | baytarlıq | 48 458 232,0 |
| 7.9.3. | meliorasiya | 499 833 624,0 |
| 7.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 108 085 000,0 |
| 7.10. | Ətraf mühitin mühafizəsi | 376 872 901,0 |
| 7.10.1. | bioloji zənginliyin qorunması | 10 185 927,0 |
| 7.10.2. | torpaq və yerquruluşu | 18 600 000,0 |
| 7.10.3. | hidrometeorologiya tədbirləri | 11 058 407,0 |
| 7.10.4. | meşə təsərrüfatı | 20 028 759,0 |
| 7.10.5. | balıqçılıq və ovçuluq | 1 566 159,0 |
| 7.10.6. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 315 046 649,0 |
| 7.10.7. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 387 000,0 |
| 7.11. | İqtisadi fəaliyyət | 9 902 737 486,0 |
| 7.11.1. | nəqliyyat və rabitə | 534 288 383,0 |
| 7.11.2. | iqtisadi və kommersiya fəaliyyəti | 53 535 643,0 |
| 7.11.3. | tikinti və şəhərsalma | 8 111 340 300,0 |
| 7.11.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 3 254 000 000,0 |
| 7.11.3.2. | işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 4 855 800 000,0 |
| 7.11.4. | geodeziya və faydalı qazıntılar | 9 095 000,0 |
| 7.11.5. | yanacaq və enerji kompleksi | 6 155 000,0 |
| 7.11.6. | iqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar | 144 000,0 |
| 7.11.7. | iqtisadi fəaliyyətlə bağlı digər xidmətlər | 1 188 179 160,0 |
| 7.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 1 750 226 244,0 |
| 7.12.1. | ehtiyat fondları | 410 000 000,0 |
| 7.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu | 300 000 000,0 |
| 7.12.1.2. | dövlət büdcəsinin ehtiyat fondu | 110 000 000,0 |
| 7.12.2. | məqsədli büdcə fondları | 607 340 000,0 |
| 7.12.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 607 340 000,0 |
| 7.12.2.1.1. | İşğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası | 230 000 000,0 |
| 7.12.3. | valyuta konvertasiyası | 4 000 000,0 |
| 7.12.4. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 728 886 244,0 |
| 7.12.4.1. | dövlət ehtiyatlarının yaradılması | 45 000 000,0 |
| 7.12.4.2. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 20 000 000,0 |
| 7.12.4.3. | ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 14 366 639,0 |
| 7.12.4.4. | sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər | 649 519 605,0 |

4. 9-cu maddə üzrə:

4.1. mətnində “13 865 000 000,0” rəqəmləri “15 270 000 000,0” rəqəmləri ilə, “12 953 045 000,0” rəqəmləri “14 358 153 000,0” rəqəmləri ilə və “9 448 000,0” rəqəmləri “9 556 000,0” rəqəmləri ilə əvəz edilsin;

4.2. maddənin cədvəli üzrə:

4.2.1. 1-ci bənddə “12 596 770 000” rəqəmləri “14 001 770 000” rəqəmləri ilə, “12 133 608 000” rəqəmləri “13 538 608 000” rəqəmləri ilə əvəz edilsin;

4.2.2. 34-cü bənddə “2 050 000” rəqəmləri “2 158 000” rəqəmləri ilə və “1 073 000” rəqəmləri “1 181 000” rəqəmləri ilə əvəz edilsin;

4.2.3. 60-cı bənddə “2 155 000” rəqəmləri “2 047 000” rəqəmləri ilə və “1 073 000” rəqəmləri “1 181 000” rəqəmləri ilə əvəz edilsin;

4.2.4. “Cəmi” abzasında “13 865 000 000” rəqəmləri “15 270 000 000” rəqəmləri ilə, “12 953 045 000” rəqəmləri “14 358 153 000” rəqəmləri ilə və “9 448 000” rəqəmləri “9 556 000” rəqəmləri ilə əvəz edilsin.

5. 11-ci maddə aşağıdakı redaksiyada verilsin:

“**Maddə 11.** Azərbaycan Respublikasının 2024-cü ildə dövlət daxili və xarici borclarına xidmətlərlə bağlı xərclərin yuxarı hədləri aşağıdakı kimi təsdiq edilsin:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| **11.1.** | **Daxili dövlət borcu üzrə, cəmi o cümlədən:** | **170 316 250,0** |
| | **faiz ödənişləri** | **170 316 250,0** |
| **11.2.** | **Xarici dövlət borcu üzrə, cəmi o cümlədən:** | **1 125 292 170,0** |
| | **faiz ödənişləri** | **275 252 170,0** |

6. 12-ci maddədə “2 300 000,0” rəqəmləri “2 700 000,0” rəqəmləri ilə, “700 000,0” rəqəmləri “1 100 000,0” rəqəmləri ilə əvəz edilsin.

7. 14-cü maddədə “2 590 000,0” rəqəmləri “3 354 300,0” rəqəmləri ilə əvəz edilsin.

8. 15-ci maddədə “42 376 215,1” rəqəmləri “45 626 806,0” rəqəmləri ilə əvəz edilsin.

9. 16-cı maddədə “15 451 986,0” rəqəmləri “16 220 996,9” rəqəmləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 25 iyun 2024-cü il**

# "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1179-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1179-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1685 (Cild I); 2024, № 4, maddə 373; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 may tarixli 74 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədəki cədvəlin 1.1-ci bəndi, 1.1.1-ci yarımbəndi, 1.1.1.12-ci, 1.1.1.20-ci, 1.1.1.21-ci, 1.1.1.56-cı, 1.1.1.58-ci abzasları, 1.1.2-ci yarımbəndi, 1.1.2.3-cü, 1.1.4.17-ci, 1.1.4.21-ci, 1.1.5.2.1-ci, 1.1.5.2.3-cü abzasları, 1.1.6-cı yarımbəndi, 1.1.6.1-ci abzası, 1.1.7-ci yarımbəndi, 1.2-ci bəndi, 1.2.1-ci yarımbəndi, 1.2.1.1-ci, 1.2.1.2-ci, 1.2.1.3-cü, 1.2.1.4-cü abzasları, 1.2.3-cü yarımbəndi, 1.2.3.1-ci abzası, 1.2.5-ci yarımbəndi, 1.2.5.2-ci abzası, 1.3-cü bəndi, 1.3.2-ci yarımbəndi, 1.3.2.2-ci abzası, 1.3.6-cı yarımbəndi, 1.3.6.3-cü abzası, 1.4-cü bəndi,1.4.1-ci yarımbəndi, 1.4.1.1-ci abzası, 1.4.2-ci yarımbəndi, 1.4.2.1-ci abzası, 1.4.4-cü, 1.4.5-ci yarımbəndləri, 1.4.5.7-ci abzası, 1.4.7-ci yarımbəndi, 1.4.7.1-ci abzası, 1.4.8-ci yarımbəndi, 1.4.8.1-ci, 1.4.8.8-ci, 1.4.8.10-cu, 1.4.8.11-ci abzasları, 1.5-ci bəndi, 1.5.2-ci yarımbəndi, 1.5.2.5-ci abzası, 1.5.3-cü yarımbəndi, 1.5.3.2-ci abzası, 1.5.4-cü yarımbəndi, 1.5.4.7-ci, 1.5.4.9-cu, 1.5.4.10-cu abzasları, 1.6-cı bəndi, 1.6.1-ci yarımbəndi, 1.6.1.1-ci abzası, 1.6.4-cü yarımbəndi, 1.6.4.1-ci, 1.6.4.4-cü, 1.6.4.5-ci abzasları, 1.7-ci bəndi, 1.7.1-ci yarımbəndi, 1.7.1.8-ci, 1.7.5.3-cü, 1.7.5.24-cü abzasları, 1.9-cu bəndi, 1.9.4-cü yarımbəndi, 1.11-ci bəndi, 1.11.1-ci yarımbəndi, 1.11.1.8-ci, 1.11.1.9-cu abzasları, 1.11.2-ci yarımbəndi, 1.11.2.1-ci abzası, 1.11.3-cü yarımbəndi, 1.11.3.2-ci, 1.11.3.3-cü abzasları, 1.11.7-ci yarımbəndi, 1.11.7.18-ci, 1.11.7.26-cı, 1.11.7.29-cu, 1.11.7.30-cu, 1.11.7.34-cü abzaslarıi, 1.12-ci bəndi, 1.12.2-ci yarımbəndi, 1.12.2.1-ci, 1.12.2.1.1-ci, 1.12.2.3-cü, 1.12.4-cü, 1.12.4.4-cü, 1.12.4.4.4.1-ci, 1.12.4.4.6-cı, 1.12.4.4.9-cu və 1.12.4.4.12-ci abzasları aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 1.1 | Ümumi dövlət xidmətləri | 4,542,824,282.0 | 4,318,421,401.0 | 224,402,881.0 |
| 1.1.1 | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1,661,194,433.0 | 1,438,172,242.0 | 223,022,191.0 |
| 1.1.1.12 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 27,791,894.0 | 27,791,894.0 | |
| 1.1.1.20 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 31,358,252.0 | 31,358,252.0 | |
| 1.1.1.21 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi | 15,184,669.0 | 15,184,669.0 | |
| 1.1.1.56 | Qanunvericilik və icra hakimiyyəti orqanlarının təşkilati strukturunun təkmilləşdirilməsi | 57,627,939.0 | 57,627,939.0 | |
| 1.1.1.58 | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 358,578,900.0 | 358,578,900.0 | |
| 1.1.2 | Beynəlxalq münasibətlər | 814,500,000.0 | 814,500,000.0 | |
| 1.1.2.3 | Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər | 23,500,000.0 | 23,500,000.0 | |
| 1.1.4.17 | "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" publik hüquqi şəxs | 2,272,525.0 | 2,272,525.0 | |
| 1.1.4.21 | Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Dendrologiya Bağı" publik hüquqi şəxs | 1,204,687.0 | 1,204,687.0 | |
| 1.1.5.2.1 | Seçici siyahılarının dəqiqləşdirilməsi | 430,000.0 | 430,000.0 | |
| 1.1.5.2.3 | Azərbaycan Respublikasında seçkilərin keçirilməsi | 79,145,080.0 | 79,145,080.0 | |
| 1.1.6 | Büdcələrarası transfertlər | 344,510,000.0 | 344,510,000.0 | |
| 1.1.6.1 | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya (transfertin yuxarı həddi) | 336,460,000.0 | 336,460,000.0 | |
| 1.1.7 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (dövlət borcu) | 1,295,608,420.0 | 1,295,608,420.0 | |
| 1.2 | Müdafiə və milli təhlükəsizlik | 7,126,347,420.0 | 7,126,347,420.0 | |
| 1.2.1 | Müdafiə qüvvələri | 2,429,439,686.0 | 2,429,439,686.0 | |
| 1.2.1.1 | Azərbaycan Respublikasının Müdafiə Nazirliyi | 2,141,248,240.0 | 2,141,248,240.0 | |
| 1.2.1.2 | Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 49,650,822.0 | 49,650,822.0 | |
| 1.2.1.3 | Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 132,198,780.0 | 132,198,780.0 | |
| 1.2.1.4 | Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 106,341,844.0 | 106,341,844.0 | |
| 1.2.3 | Sərhəd xidməti | 523,810,916.0 | 523,810,916.0 | |
| 1.2.3.1 | Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti | 523,810,916.0 | 523,810,916.0 | |
| 1.2.5 | Müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 3,754,553,986.0 | 3,754,553,986.0 | |
| 1.2.5.2 | Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 3,700,000,000.0 | 3,700,000,000.0 | |
| 1.3 | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 3,089,839,321.0 | 3,089,797,193.0 | 42,128.0 |
| 1.3.2 | Hüquq mühafizə | 2,209,200,909.0 | 2,209,200,909.0 | |
| 1.3.2.2 | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi | 278,068,876.0 | 278,068,876.0 | |
| 1.3.6 | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyət | 589,148,286.0 | 589,148,286.0 | |
| 1.3.6.3 | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 114,233,286.0 | 114,233,286.0 | |
| 1.4 | Təhsil | 4,550,334,684.0 | 4,550,334,684.0 | |
| 1.4.1 | Məktəbəqədər təhsil | 451,168,349.0 | 451,168,349.0 | |
| 1.4.1.1 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 443,313,297.0 | 443,313,297.0 | |
| 1.4.2 | Ümumi təhsil | 2,373,170,868.0 | 2,373,170,868.0 | |
| 1.4.2.1 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 2,362,129,445.0 | 2,362,129,445.0 | |
| 1.4.4 | Orta ixtisas təhsili | 101,424,397.0 | 101,424,397.0 | |
| 1.4.5 | Ali təhsil | 134,837,505.0 | 134,837,505.0 | |
| 1.4.5.7 | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi | 6,042,440.0 | 6,042,440.0 | |
| 1.4.7 | Təhsil sahəsində tətbiqi tədqiqatlar | 7,653,356.0 | 7,653,356.0 | |
| 1.4.7.1 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 5,632,487.0 | 5,632,487.0 | |
| 1.4.8 | Təhsil sahəsində digər müəssisə və tədbirlər | 1,384,218,183.0 | 1,384,218,183.0 | |
| 1.4.8.1 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 651,420,622.0 | 651,420,622.0 | |
| 1.4.8.8 | Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində "Azərbaycan İlahiyyat İnstitutu" publik hüquqi şəxs | 3,363,722.0 | 3,363,722.0 | |
| 1.4.8.10 | Dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər | 468,072,648.0 | 468,072,648.0 | |
| 1.4.8.11 | Təhsil sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 4,074,894.0 | 4,074,894.0 | |
| 1.5 | Səhiyyə | 1,866,395,005.0 | 1,866,395,005.0 | |
| 1.5.2 | Xəstəxanalar | 231,500,056.0 | 231,500,056.0 | |
| 1.5.2.5 | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi | 8,852,349.0 | 8,852,349.0 | |
| 1.5.3 | Səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 9,473,230.0 | 9,473,230.0 | |
| 1.5.3.2 | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi | 1,234,061.0 | 1,234,061.0 | |
| 1.5.4 | Səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1,623,255,818.0 | 1,623,255,818.0 | |
| 1.5.4.7 | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi | 4,374,031.0 | 4,374,031.0 | |
| 1.5.4.9 | Səhiyyə sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 3,917,348.0 | 3,917,348.0 | |
| 1.5.4.10 | İcbari tibbi sığorta fonduna ayrılan vəsait | 1,367,987,690.0 | 1,367,987,690.0 | |
| 1.6 | Sosial müdafiə və sosial təminat | 4,391,430,496.0 | 4,385,796,095.0 | 5,634,401.0 |
| 1.6.1 | Sosial müdafiə | 521,941,580.0 | 521,941,580.0 | |
| 1.6.1.1 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 520,182,932.0 | 520,182,932.0 | |
| 1.6.4 | Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 3,863,169,038.0 | 3,863,169,038.0 | |
| 1.6.4.1 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2,110,481,107.0 | 2,110,481,107.0 | |
| 1.6.4.4 | Dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1,232,000,000.0 | 1,232,000,000.0 | |
| 1.6.4.5 | Sosial təminat sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 13,848,000.0 | 13,848,000.0 | |
| 1.7 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 575,615,455.0 | 569,600,024.0 | 6,015,431.0 |
| 1.7.1 | Mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 233,801,779.0 | 231,048,405.0 | 2,753,374.0 |
| 1.7.1.8 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 4,313,897.0 | 4,313,897.0 | |
| 1.7.5.3 | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 1,554,684.0 | 1,554,684.0 | |
| 1.7.5.24 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 3,338,441.0 | 3,338,441.0 | |
| 1.9 | Kənd təsərrüfatı | 1,202,593,587.0 | 1,202,593,587.0 | |
| 1.9.4 | Kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 108,085,000.0 | 108,085,000.0 | |
| 1.11 | İqtisadi fəaliyyət | 9,902,737,486.0 | 9,850,297,371.0 | 52,440,115.0 |
| 1.11.1 | Nəqliyyat və rabitə | 534,288,383.0 | 481,992,268.0 | 52,296,115.0 |
| 1.11.1.8 | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" publik hüquqi şəxs | 37,814,000.0 | 37,814,000.0 | |
| 1.11.1.9 | Nəqliyyat və rabitə sahələrində digər tədbirlərin maliyyələşdirilməsi | 60,625,000.0 | 60,625,000.0 | |
| 1.11.2 | İqtisadi və kommersiya fəaliyyəti | 53,535,643.0 | 53,535,643.0 | |
| 1.11.2.1 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 53,535,643.0 | 53,535,643.0 | |
| 1.11.3 | Tikinti və şəhərsalma | 8,111,340,300.0 | 8,111,340,300.0 | |
| 1.11.3.2 | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 3,254,000,000.0 | 3,254,000,000.0 | |
| 1.11.3.3 | İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 4,855,800,000.0 | 4,855,800,000.0 | |
| 1.11.7 | İqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 1,188,179,160.0 | 1,188,179,160.0 | |
| 1.11.7.18 | "İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi" publik hüquqi şəxs | 3,283,257.0 | 3,283,257.0 | |
| 1.11.7.26 | "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs | 7,373,000.0 | 7,373,000.0 | |
| 1.11.7.29 | Bir sıra dövlət müəssisələrində islahatlar aparılması ilə bağlı texniki-iqtisadi əsaslandırmanın hazırlanması, dövlət sifarişi əsasında işlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi, güzəştlərə dair reyestrlərin və elektron informasiya sistemlərinin yaradılması və onlara xidmətlə bağlı xərclər | 5,000,000.0 | 5,000,000.0 | |
| 1.11.7.30 | İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı | 408,000,000.0 | 408,000,000.0 | |
| 1.11.7.34 | İqtisadi fəaliyyət sahələri üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 385,300,000.0 | 385,300,000.0 | |
| 1.12 | Əsas bölmələrə aid edilməyən xərclər | 1,750,226,244.0 | 1,722,086,890.0 | 28,139,354.0 |
| 1.12.2 | Məqsədli büdcə fondları | 607,340,000.0 | 607,340,000.0 | |
| 1.12.2.1 | "Avtomobil yolları" məqsədli büdcə fondu | 560,000,000.0 | 560,000,000.0 | |
| 1.12.2.1.1 | İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 230,000,000.0 | 230,000,000.0 | |
| 1.12.2.3 | Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu | 10,700,000.0 | 10,700,000.0 | |
| 1.12.4 | Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 728,886,244.0 | 700,746,890.0 | 28,139,354.0 |
| 1.12.4.4 | Sosial-iqtisadi islahatlar və digər tədbirlər üzrə xərclər | 649,519,605.0 | 635,746,890.0 | 13,772,715.0 |
| 1.12.4.4.4.1 | Xüsusi müdafiə olunan və bu qəbildən olan digər sənədlərin çap edilməsi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı xərclər | 6,000,000.0 | 6,000,000.0 | |
| 1.12.4.4.6 | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 83,110,100.0 | 83,110,100.0 | |
| 1.12.4.4.9 | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 136,540,000.0 | 136,540,000.0 | |
| 1.12.4.4.12 | Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 226,891,943.0 | 226,891,943.0 | |

(ardı 5-ci səhifədə)

# “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1179-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

(əvvəli 4-cü səhifədə)

1.2. 1-ci hissədəki cədvələ aşağıdakı məzmunda 1.1.1.59-cu, 1.1.2.5-ci, 1.2.5.4-cü, 1.3.6.6-cı, 1.3.6.7-ci, 1.3.6.8-ci, 1.3.6.9-cu, 1.4.4.5-ci, 1.9.4.2-ci, 1.11.3.2.2-ci, 1.11.7.35-ci, 1.11.7.36-cı, 1.12.2.7-ci abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 1.1.1.59 | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə kommunal, kommunikasiya xidmətləri, bərpa, yenidənqurma və digər fəaliyyət | 38,500,000.0 | 38,500,000.0 | |
| 1.1.2.5 | Beynəlxalq münasibətlər və beynəlxalq fəaliyyət üzrə digər xərclər | 350,000,000.0 | 350,000,000.0 | |
| 1.2.5.4 | Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5,300,000.0 | 5,300,000.0 | |
| 1.3.6.6 | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 12,100,000.0 | 12,100,000.0 | |
| 1.3.6.7 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 16,200,000.0 | 16,200,000.0 | |
| 1.3.6.8 | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 47,100,000.0 | 47,100,000.0 | |
| 1.3.6.9 | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə kommunal, kommunikasiya xidmətləri, bərpa, yenidənqurma və digər fəaliyyət | 26,300,000.0 | 26,300,000.0 | |
| 1.4.4.5 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 310,000.0 | 310,000.0 | |
| 1.9.4.2 | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (Şirvan suvarma kanallarının yenidən qurulması ilə bağlı xərclər) | 100,000,000.0 | 100,000,000.0 | |
| 1.11.3.2.2 | İqtisadi fəaliyyət, kommunal, kommunikasiya, bərpa, yenidənqurma və maddi-texniki təminat | 439,800,000.0 | 439,800,000.0 | |
| 1.11.7.35 | “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi” publik hüquqi şəxs | 9,000,000.0 | 9,000,000.0 | |
| 1.11.7.36 | “Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxs | 12,100,000.0 | 12,100,000.0 | |
| 1.12.2.7 | Nəqliyyat vasitələrinin utilizasiyası fondu | 25,000,000.0 | 25,000,000.0 | |

1.3. 4-cü hissə üzrə:

1.3.1. 4.3-cü bəndə “Fərmanın” sözündən sonra “1.1.1.59-cu,” sözləri, “1.1.4.23-cü,” sözlərindən sonra “1.3.6.9-cu,” sözləri əlavə edilsin;

1.3.2. 4.4.1-ci yarımbəndə “Fərmanın” sözündən sonra “1.1.2.5-ci (Beynəlxalq münasibətlər və beynəlxalq fəaliyyət üzrə digər xərclər),” sözləri, “1.8.4.5-ci (Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər),” sözlərindən sonra “1.11.3.2.2-ci (İqtisadi fəaliyyət, kommunal, kommunikasiya, bərpa, yenidənqurma və maddi-texniki təminat),” sözləri əlavə edilsin;

1.3.3. 4.4.3-cü yarımbənddə “ və 1.12.2.6-cı” sözləri “,1.12.2.6-cı və 1.12.2.7-ci” sözləri ilə əvəz edilsin;

1.4. 6.1-ci bəndə “nəzərdə tutulan” sözlərindən sonra “(1.11.3.2.2-ci (İqtisadi fəaliyyət, kommunal, kommunikasiya, bərpa, yenidənqurma və maddi-texniki təminat) yarımbənd istisna olmaqla)” sözləri əlavə edilsin;

1.5. 13-cü hissəyə “1.11.7.27-ci” sözlərindən sonra “, 1.11.7.35-ci, 1.11.7.36-cı” sözləri əlavə edilsin;

1.6. 15-ci hissə üzrə:

1.6.1. 15.1-ci bəndə “2.14-cü,” sözlərindən sonra “2.21-ci maddələrində,” sözləri əlavə edilsin və həmin bənddən “3.1.8-ci,” sözləri çıxarılsın;

1.6.2. 15.4-cü bənddə “3.1.8-ci və 14-cü maddələrində” sözləri “14-cü maddəsində” sözləri ilə əvəz olunsun və həmin bəndə “Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu,” sözlərindən sonra “Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu,” sözləri əlavə edilsin;

1.6.3. 15.5-ci bənddə “3-cü maddəsinin birinci abzasında, 3.1-ci və 7.12.2.1-ci maddələrində” sözləri “7.12.2.1-ci maddəsində” sözləri ilə əvəz olunsun və həmin bəndə “Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu” sözlərindən sonra “, Nəqliyyat vasitələrinin utilizasiyası fondu” sözləri əlavə edilsin;

1.6.4. 15.6-cı bəndə “Qanunun” sözündən sonra “3-cü, 3.1-ci,” sözləri əlavə edilsin, həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 15.7-ci bənd əlavə edilsin:

“15.7. həmin Qanunun 2.21-ci maddəsində “məqsədli büdcə fondları” dedikdə Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu, Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları, Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu, Nəqliyyat vasitələrinin utilizasiyası fondu nəzərdə tutulur.”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1179-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 iyul 2024-cü il**

# Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 2-ci, 3-cü, 4-cü və 7-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Seçki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 274 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 40.6-cı və 40.7-ci maddələrin ikinci cümlələrində “seriya və nömrəsi” sözləri “seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti” sözləri ilə əvəz edilsin.

**2.** 52-ci maddə üzrə:

2.1. 52.2-ci maddədə “seriya və nömrəsini” sözləri “seriyasını, nömrəsini və verilmə tarixini və ya etibarlılıq müddətini” sözləri ilə əvəz edilsin;

2.2. 52.4-cü maddənin birinci cümləsinə “verilmə tarixi” sözlərindən sonra “və ya etibarlılıq müddəti” sözləri əlavə edilsin.

**3.** 53.2-ci maddənin ikinci cümləsində “seriya və nömrəsi” sözləri “seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti” sözləri ilə əvəz edilsin.

**4.** 57.4-cü maddənin birinci cümləsində, 57.7-ci və 57.8-ci maddələrin ikinci cümlələrində “və nömrəsini, verilmə tarixini” sözləri “, nömrəsini və verilmə tarixini və ya etibarlılıq müddətini” sözləri ilə əvəz edilsin.

**5.** 63.3-cü maddənin birinci cümləsində “seriya və nömrəsi, verilmə tarixi” sözləri “seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti” sözləri ilə əvəz edilsin.

**6.** 64-cü maddə üzrə:

6.1. 64.4-cü maddənin birinci cümləsində “seriya və nömrəsini” sözləri “seriyasını, nömrəsini və verilmə tarixini və ya etibarlılıq müddətini” sözləri ilə əvəz edilsin;

6.2. 64.5-ci maddənin ikinci cümləsinə “verilmə tarixi” sözlərindən sonra “və ya etibarlılıq müddəti” sözləri əlavə edilsin.

**7.** 65.5-ci maddənin ikinci cümləsində “və nömrəsini, verilmə tarixini” sözləri “, nömrəsini və verilmə tarixini və ya etibarlılıq müddətini” sözləri ilə əvəz edilsin.

**8.** 72.1-ci maddənin dördüncü cümləsinə “verilmə tarixi” sözlərindən sonra “və ya etibarlılıq müddəti” sözləri əlavə edilsin.

**9.** 90.2.12-ci maddədə “, verilmə tarixini” sözləri “və verilmə tarixini və ya etibarlılıq müddətini” sözləri ilə əvəz edilsin.

**10.** 101.5-ci maddənin birinci cümləsində “və nömrəsini” sözləri “, nömrəsini və verilmə tarixini və ya etibarlılıq müddətini” sözləri ilə əvəz edilsin.

**11.** 104.7-ci maddənin ikinci və üçüncü cümlələrində “və nömrəsi” sözləri “, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti” sözləri ilə əvəz edilsin.

**12.** 105.2-ci maddənin beşinci cümləsində “seriya və nömrəsi” sözləri “seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti” sözləri ilə əvəz edilsin.

**13.** 1 saylı, 1 “A” saylı, 2 saylı, 2 “A” saylı, 3 saylı, 3 “A” saylı və 4 saylı əlavələrdə hər iki halda “, verilmə tarixi” sözləri “və verilmə tarixi və ya etibarlılıq müddəti” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 iyun 2024-cü il**

# “Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1604 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci maddədə hər iki halda “6 919 860 000,0” rəqəmləri “6 949 860 000,0” rəqəmləri ilə əvəz edilsin.

**2.** 2-ci maddə üzrə:

2.1. 2.1-ci maddənin birinci abzasında “5 288 135 400,0” rəqəmləri “5 478 135 400,0” rəqəmləri ilə əvəz edilsin;

2.2. 2.1.3-cü maddədə “3 387 100 000,0” rəqəmləri “3 577 100 000,0” rəqəmləri ilə əvəz edilsin;

2.3. 2.3-cü maddədə “1 392 000 000,0” rəqəmləri “1 232 000 000,0” rəqəmləri ilə əvəz edilsin.

**3.** 3-cü maddə üzrə:

3.1. 3.1-ci maddənin birinci abzasında “6 681 580 000,0” rəqəmləri “6 706 580 000,0” rəqəmləri ilə əvəz edilsin;

3.2. 3.1.1-ci maddədə “6 500 000 000,0” rəqəmləri “6 525 000 000,0” rəqəmləri ilə əvəz edilsin;

3.3. 3.3-cü maddədə “78 500 000,0” rəqəmləri “78 530 000,0” rəqəmləri ilə əvəz edilsin;

3.4. 3.4-cü maddədə “130 110 000,0” rəqəmləri “135 080 000,0” rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2024-cü il**

# “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1605 (Cild I) 2-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.1-ci maddənin birinci abzasında “179 976 800,0” rəqəmləri “184 676 800,0” rəqəmləri ilə əvəz edilsin.

**2.** 2.1.3-cü maddədə “134 600 000,0” rəqəmləri “139 300 000,0” rəqəmləri ilə əvəz edilsin.

**3.** 2.3-cü maddədə “57 953 200,0” rəqəmləri “53 253 200,0” rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2024-cü il**

# B.Q.Hacıyevin Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bəşir Qüdrət oğlu Hacıyev Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 iyul 2024-cü il**

# Naxçıvanda Mərkəzi Seçki Komissiyasının iclası



**Xəbər verildiyi kimi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərə start verilib.**

Bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 28 iyun 2024-cü il tarixli sərəncamı ilə “Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 iyun tarixli 176 nömrəli Sərəncamı rəhbər tutularaq və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 1-ci bəndinə əsasən, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər 2024-cü il sentyabrın 1-nə təyin edilib.

**Dünən Əjdər Əliyevin sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**

Ali Məclisə seçkilərlə əlaqədar qanunvericilikdə nəzərdə tutulan tədbirlərin sistemli, ardıcıl və keyfiyyətlə gerçəkləşdirilməsi, habelə seçki iştirakçılarına metodiki kömək göstərilməsi və onların fəaliyyətlərinin daha da sadələşdirilməsi məqsədilə seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı komissiya üzvləri tərəfindən müzakirə olunaraq təsdiq edilib.

Daha sonra Naxçıvan Muxtar Respublikasının inzibati ərazi vahidinin hüdudları daxilində 45 seçki dairəsinin yaradılması, onların sxemi, qrafik təsviri və hüdudlarının müəyyən olunması üzrə komissiyanın təklifləri müzakirə edilib. MSK sədrinin müavini, seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə komissiyanın sədri Xatirə İbrahimli muxtar respublika üzrə yaradılması nəzərdə tutulan 45 seçki dairəsinin hüdudlarına dair hazırladıqları təkliflər, hər bir seçki dairəsinin mərkəzi və seçicilərinin sayı barədə komissiya üzvlərini məlumatlandırıb.

İclasda qarşıdan gələn seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması, eləcə də vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması məqsədilə MSK nəzdində ekspert qrupunun yaradılmasına dair məsələyə də baxılıb və 5 nəfərdən ibarət tərkibdə ekspert qrupunun yaradılmasına qərar verilib. Seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq dairə seçki komissiyaları nəzdində 3 nəfərdən ibarət ekspert qruplarının yaradılması isə seçki dairələrinin dairə seçki komissiyalarına həvalə olunub.

**XQ**

2 İyul Azərbaycan Polisi Günüdür

# Bizim polisimiz bizi və dövlətçiliyimizi qoruyur

**Yazıya başlayanda Rza və Məmmədhüseyn Təhmasiblərin "Onu bağışlamaq olarmı?" bədii filmini xatırladım. Düz 65 il əvvəl – 1959-cu ildə çəkilmiş bu maraqlı ekran əsəri cinayət axtarışı əməkdaşları və ictimai asayiş keşikçilərinin çətin işləri haqqındadır.**



Uşaq vaxtı tam təsir altına düşərək oğrulara qoşulmuş Tərlan "iş başında" qarşılaşdığı şahid qızı aradan götürmək istəyəndə onu şikəst edir. Gəncin doğru yola qayıtmasına inanan mayor Qaya Mürşüdov onu xilas etmək üçün müxtəlif fəndlərə əl atır. Cinayət başında yaxalanan gənc istintaqın humanist üsulu nəticəsində öz günahlarını etiraf edir, yenidən ətrafındakı adamların etibarını qazanır və cəmiyyətdə öz yerini tapır. Film hüquq-mühafizə orqanlarının insanpərvərlik duyğuları ilə süslənib. Bu gün də qanun pozucularının islah olunmasına zəhmət sərf edən polis əməkdaşları çoxdur və onların nümunəsi cəmiyyətdə təqdir olunur. Peşə bayramı günündə Azərbaycan polisinin şərəfli xidməti fəaliyyətinə nəzər salmaq istəyirik.

Ulu öndər Heydər Əliyevin 24 may 1998-ci il tarixli Fərmanına əsasən, Azərbaycan Polisi Gününün əvvəlki tarixi (6 iyun) dəyişdirilərək, iyulun 2-nə keçirilib. Çünki 1918-ci ildə məhz həmin gün Azərbaycan Xalq Cümhuriyyəti (AXC) Daxili İşlər Nazirliyinin (DİN) tərkibində ilk polis orqanları təsis edilmişdir.

Bu gün polis deyəndə ilk növbədə Vətən uğunda döyüşlərdə canını fəda edən, ən çətin tapşırıqlara gedən, silahlı quldurların qarşısına çıxıb onları zərərsizləşdirən, əhalinin təhlükəsizliyini qoruyan uca boylu igidlər yada düşür. Həmçinin yolu keçməkdə çətinlik çəkən piyadaların qolundan tutub ötürən, sərt dalğaların qoynuna atılaraq suda boğulanları ölümdən qurtaran, küçədə halı pisləşmiş vətəndaşları dərhal xəstəxanalara çatdıran, 8 Mart günü sürücü qadınları saxlayaraq gül dəstəsi ilə təbrik edən mərdanə oğulların obrazları göz önündə canlanır.

Artıq Azərbaycan polisinin 106 yaşı var. DİN əməkdaşları 1918–1920-ci illərdə böyük vətənpərvərliklə ilk müstəqil dövlətimizin milli maraqlarını müdafiə edib, sovet dövründə də bu sahədə yüksək nəticələr qazanıblar. Ümummilli lider Heydər Əliyev böyük uzaqgörənliklə polis orqanlarının təşkilati və ideoloji cəhətdən möhkəmlənməsi, sıralarının saflaşdırılması, peşəkar kadrların irəli çəkilməsi ilə bağlı mühüm qərarlar qəbul edib. Şəxsi heyətin məhz milli ruhda formalaşmasının nəticəsi idi ki, 1988-ci ildə milis, sonrakı illərdə Daxili Qoşun hissələri nizami qüvvə kimi, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü ilk olaraq rəşadətlə dəf edib. Bu döyüşlərdə 1700-ə qədər polis əməkdaşı və hərbi qulluqçu şəhidlik zirvəsinə ucalıb, təxminən bir o qədər polis isə yaralanıb. Göstərdikləri şücaət və igidliklərə görə 67 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına, 1143 nəfər orden və medallara layiq görülüb.

Danılmaz faktdır ki, müstəqilliyimizin sonrakı illərində də daxili işlər orqanlarının fəaliyyəti uğurlu olub. Cinayətkarlığa qarşı mübarizədə, qayda-qanunun qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi vəzifələrini yerinə yetirərkən 100 polis əməkdaşı və hərbi qulluqçu həlak olub, 2640 nəfər xəsarət alıb.

Cənab İlham Əliyevin prezidentliyi dövründə ölkəmizdə yaradılan sabitlik isə gələcək uğurlara və yüksəlişə doğru inamla irəliləyən müstəqil dövlətimizin rəmzinə çevrilib. Dövlət başçısının həyata keçirdiyi hərtərəfli islahatlar çərçivəsində daxili işlər orqanlarının da müasirləşməsi üçün bütün lazımi tədbirlər görülüb. Ötən 21 ildə polisin xidməti fəaliyyətin cəmiyyətin maraqlarına tam cavab verməsi, qabaqcıl beynəlxalq təcrübəyə uyğun qurulması məqsədilə müxtəlif fərman və sərəncamlar imzalanıb. O cümlədən nazirliyin strukturunun və normativ-hüquqi bazasının təkmilləşdirilməsi, maddi-texniki təchizatının yaxşılaşdırılması, şəxsi heyətin sosial müdafiəsinin və demokratik cəmiyyətdə polisin rolu haqqında məlumatlandırma işinin gücləndirilməsi təmin edilib.

Prezident, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev Daxili Qoşunların döyüş hazırlığının yüksəldilməsini daim nəzarətdə saxlayıb, hərtərəfli inkişafını ideal səviyyədə təmin edib. Məhz bu ali diqqətin nəticəsidir ki, Daxili Qoşunlar qarşıya qoyulan xidməti-döyüş vəzifələrini yüksək səviyyədə yerinə yetirməyə qadir silahlı birləşməyə çevrilib.

Tarixi Zəfərin qazanıldığı 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan polisi öz şücaət və qəhrəmanlıqları ilə xüsusilə seçilib. Doğma Qarabağ və Şərqi Zəngəzurda torpaqlarımızın müdafiəsinə qatılan, çətin döyüş tapşırıqlarını uğurla yerinə yetirən Daxili Qoşunların xüsusi təyinatlıları düşmənə sarsıdıcı zərbələr vurub. İkinci Qarabağ savaşında Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb. Doğma yurdumuzun işğaldan azad olunması uğrunda qəhrəmancasına döyüşmüş yüzlərlə daxili qoşun əməkdaşı dövlət təltiflərinə, o cümlədən 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Son illərdə peşə bayramı ərəfəsində Prezidentin sərəncamı ilə çoxsaylı DİN əməkdaşı orden və medallar alıb, şəxsi heyətin vəzifə maaşları artırılıb, müəyyən sayda ali rütbələr verilib. 12 Mart – Daxili Qoşunlar Günü də hər il bu nümunəvi strukturun neçə-neçə qulluqçusunun "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "İgidliyə görə" medalları ilə təltif edilməsi ilə əlamətdar olub. Əlbəttə, bütün bunlar şərəfli peşə sahiblərinə əlavə stimul verir.

Elə işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq yaradılan və hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqların fəaliyyətinin təşkilinin DİN-ə həvalə edilməsi Azərbaycan Polisinə göstərilən yüksək etimadın növbəti təzahürü oldu. Ölkəmizin bütün ərazilərində, o cümlədən işğaldan azad olunan şəhər və rayonlarımızda peşəkarlığına güvənilən daxili işlər orqanlarının əməkdaşları etimadı doğrultmaq üçün gecə-gündüz uğurla xidmət edirlər.



Bu gün Azərbaycan polisi milli maraqlar naminə dəqiq təşkil edilmiş sistemli və peşəkar kadr korpusu olan vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanıdır. Daxili işlər orqanları ölkədə cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında önəmli xidmətləri ilə seçilir. Eyni zamanda polis vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi sahəsində vəzifələri peşəkarlıqla yerinə yetirir və hər zaman şərəfli borcuna sadiq qalaraq inamı, etimadı doğruldur.

Polis əhaliyə daha yaxın olan hüquq-mühafizə orqanıdır. Kənardan baxanda şıq libaslı polis əməkdaşları rahat görünə bilərlər. Amma onların həyatı və xidməti sınaq dolu çətin anlarla çox zəngindir. Həftədə 7 gün, gündə 24 saat bizim təhlükəsizliyimizi qoruyurlar. Bəzən də vəzifə borclarını yerinə yetirmək polislərin həyatı bahasına başa gəlir. Buna baxmayaraq, onlar qanunların və insan haqlarının qorunmasına qeyd-şərtsiz əməl edir, el yolunda fədakarlıqlarını əsirgəmirlər. Adını unutduğum bir el şairi bu barədə yaxşı deyib:

**Bilirsən, çətin anda,**
**darda səni gəzirəm,**
**Vaxt olur ki, boranda, qarda səni gəzirəm.**
**Hər əzminə, cəhdinə artır qayğım, təlaşım,**
**Mənim polis qardaşım!**

***Əli NƏCƏFXANLI***
***XQ***

# Sabitliyin dayağı: peşəkarlıq, sayıqlıq, qətiyyət



**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkə polisinin fəaliyyətini tənzimləmək üçün bu prinsipləri hədəf kimi müəyyənləşdirmişdi: intellektual səviyyəni yüksəltmək, peşəkarlığın dünya standartlarına çatdırılmasına nail olmaq, dünyanın qabaqcıl ölkələrinin müvafiq orqanlarının istifadə etdiyi ən müasir texnologiyalara yiyələnmək və Vətənə, dövlətə sadiq olmaq.**

Bu gün Azərbaycan polisi bu hədəflərə doğru uğurla irəliləyir. Ali Baş Komandan İlham Əliyevin müasir çağırışlara uyğun müəyyənləşdirdiyi yeni vəzifələri dönmədən, hədəfdən yayınmadan, sadiqliklə icra edir. Təbii ki, bu taleyüklü məsələlərin həllində nazirliyin rəhbərliyinin və şəxsən nazirin yüksək dövləti məsuliyyəti, peşəkarlığı, dövlətə və dövlətçiliyə tam sədaqətlə xidməti həlledici amillərdəndir. Həlledici anlarda həlledici qərarların qəbulu və icrası isə zaman-zaman Azərbaycanı bir çox silkələnmələrdən xilas etdi. İndi onlar artıq tarixin səhifələridir. Ölkə polisi isə özünün keşməkeşli və şərəfli tarixinə yeni, parlaq səhifələr yazır. İyulun 2-də Azərbaycan polisinin 106 yaşı tamam olur. Bu gün sənin, mənim, onun, geniş ictimaiyyətin, milyonların sevə-sevə qeyd etdiyi bayramlardan biridir.

İtalyan ədibi Qarsionun "Əgər ədəbiyyat olmasaydı, dünyada çox şey dəyişməzdi, amma polis olmasa dünya dağılar" – deyimi obyektiv gerçəkliyi tam dolğunluğu ilə əks etdirir. Bir anlığa təsəvvür edin ki, polis fəaliyyətini dayandırıb. Elə həmin an siz özünüzü müdafiəsiz, təhlükə içində hiss edəcəksiniz. Çünkü sizi qoruyan, təhlükəsizliyinizi təmin edən, addımbaşı sizi yaxalaya biləcək cinayətkara qarşı mübarizə aparan, rahatlığınızı təmin edən gücdən məhrum olmusunuz. Yalnız öz mənimiz üçün yox, həm də xalqımızın və dövlətimizin yaşaması, inkişaf etməsi üçün biz öz polisimizi sevməliyik və sevirik. Polis isə vətəndaş məmnunluğu üçün çalışır, vuruşur, bəzən həyatını qurban verir, şər-böhtana da məruz qalır. Amma yolundan dönmur. Prezident İlham Əliyev DİN və onun strukturlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi, müasir standartlara cavab verməsi üçün daim yeni tədbirlər və proqramlar müəyyənləşdirir. Dövlət başçısının qayğısını Azərbaycan polisi daim hiss edir. Odur ki, bu qayğı və diqqətə görə o, müasir dövrün yeni çağırışlarına cavab olaraq özü-özünü daha da saflaşdırır, keçmişə ilişib qalmır, müvəffəqiyyətlərdən başı gicəllənmir, elmi-texniki nailiyyətləri daha tez əxz edir və fəaliyyətinə yönəldir.

Bu qeydləri statistik rəqəmlərlə yükləmək istəmirəm. Bu və ya digər sahədə Azərbaycan polisinin fəaliyyəti, habelə yol verilən nöqsanlar, onların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər barədə hər kəs indi telefonundan istifadə etməklə belə istənilən faktı, rəqəmi dəqiqləşdirə bilər. DİN-in rəsmi saytı hər kəsin üzünə açıqdır. Polisin fəaliyyətində şəffaflığı tam şəkildə təmin etmək nazirliyin rəhbərliyinin ən ümdə vəzifələrindən biridir. İndi vətəndaşlar DİN-in Baş İdarə rəislərinin, digər bölmə və sahə rəhbərlərinin, nazir müavinlərinin, həm də nazirin qəbulunda olmaq üçün problem yaşamır.

Azərbaycan polisinin fəaliyyəti vətəndaş məmnunluğunun nisbəti ilə qiymətləndirilir. Fakt odur ki, özlərini demokratiyanın atası və ya anası kimi təqdim etməyə çalışan bir sıra Avropa ölkələri və Amerikada bu prinsipin yazıldığı vərəq çoxdan çevrilib. Etiraf edək ki, xarici ölkələrə səfər edənlərin 100-də 90-nın ən böyük qayğısı yerli polisin onlarla necə davranacağı ilə bağlıdır. Adi bir səhv, addım və ya hərəkət dəmir barmaqlıqlar arxasına apara bilər. Bəzi hallarda isə xüsusilə Fransa və Amerikada polis heç bir araşdırma aparmadan, əlini cibinə apardığına, yaxud avtomobilin göstərişə uyğun dərhal dayandırılmamasına görə atəş aça bilər.

Avropanın bir çox ölkələrində, ABŞ-da miqrantlara polis tərəfindən ağlasığmaz işgəncələr verilməsini ekranlarda hər kəs görür. Həmin ölkələrdə polisə getdikcə qədərindən daha çox səlahiyyətlər verilir və sonunda cəmiyyət polis zorakılığı ilə üzləşir. Xalqdan ayrı düşən, şəxsi ambisiyalarının qurbanına çevrilən, ikili standartları yürütdüyü siyasətin mərkəzinə qoyan dövlət başçılarının ölkələrində vəziyyət məhz belədir. Fransa tarixinin qara ləkəsi olan Makron öz dili ilə deyir ki, ölkə vətəndaş müharibəsi ərəfəsindədir. O, indi özünü qorumaq üçün az sayda olan öz polislərinə, bəli məhz öz polislərinə (əsasən, Afrika kökənli qaradərili polis əməkdaşlarına – S.A.) arxalanaraq ürkək halda kreslosuna ilişib qalıb.

Ölkəmizdə bənzər faktların hər hansı biri haqqında danışmaq olar? Təbii ki, biz araqarışdıranların, ağı həmişə qara rəngdə görməyə gözü alışanların, vətəndaş olmaq əvəzinə Vətənimizə daş atanların ətəyindən tutub yad ölkələrin küçələrində sürünənlərin dediklərini, onların şər-böhtan xarakterli sayıqlamalarını da eşidirik. Ancaq yel qayadan nə aparacaq ki? DİN icra hakimiyyəti orqanı olaraq fəaliyyəti Konstitusiya və qanunlarla tənzimlənən hərbiləşdirilmiş strukturdur. O, üç-beş özünü bilməzin, cinayətə meylli ünsürlərin, qatarı çoxdan qaçırıb arxasınca baxan psevdo siyasətçilərin dediyi ilə oturub durmur. O, Ulu öndərin müəyyənləşdirdiyi xəttlə, Prezident İlham Əliyevin həyata keçirdiyi strategiya ilə dövlətin ən mühüm strukturlarından və sütunlarından biri kimi öz vəzifə borcunu müvəffəqiyyətlə yerinə yetirir.



Mən uzun illər Azərbaycan polisinin fəaliyyətini araşdıran, bu mövzuda çoxsaylı yazıların müəllifi olan jurnalist kimi bu güc strukturunda mövcud olan bəzi nöqsanlardan da yazmışam və yazıram. Polisin fəaliyyətini ideallaşdırmaq kimi məqsədim də yoxdur. Statistikaya baxanda hər il nə qədər polis əməkdaşı və zabitinin işdə yol verdiyi nöqsanlara, səlahiyyət həddini aşdığına, vətəndaşların hüquq və azadlıqlarını qorumalı olduğu halda onu heçə saymağa meyilli olduğuna, vətəndaşlarla kobud davranışına görə daxili işlər orqanları sıralarından uzaqlaşdırılanların siyahısını müəyyənləşdirmək olar. Onların sayı kifayət qədərdir və DİN-in təmizləmə mexanizmi dayanmadan çalışır. Keçilən yola baxanda buraxılan nöqsanlar qazanılan uğurların kölgəsində görünməz olur. Bu məsələ müqayisə belə edilə bilməz. Dövlət başçısı daxili işlər orqanlarının fəaliyyətini belə qiymətləndirir: "Qanunun keşiyində duran, daim Azərbaycan vətəndaşlarının yanında olan Azərbaycan polisi öz vəzifə borcunu ləyaqətlə yerinə yetirir."

Biz xəyali dünyada yox, real həyatda yaşayırıq. Dünya yaranandan cinayət də olub, cinayətkar da. Bu gün də belədir. Cinayətə meyilli adamlar, cinayətkar qruplar, həyatın az qala bir sahəsinə öz şəxsi maraqlarına uyğun müdaxilə etmək istəyən qüvvələr, qanunsuz silahlı birləşmələr ən güclü dövlətlərdə belə boy göstərir. Onlar bəzən dövlətlə üzbəüz gəlirlər. Azərbaycanda tarixin elə qara səhifəsi təxminən 30 il əvvəl bir daha açılmamaqla arxivə göndərilib. İndi ölkəmiz dünyanın ən təhlükəsiz, davamlı inkişafda olan, həm də cinayətkarlığa qarsa barışmaz mübarizə aparan, demokratik dəyərlərə sadiq dövlətlərdən biri kimi tanınır və qəbul olunur. Bu uğurlarda Azərbaycan polisinin payı kifayət qədər sanballıdır.

Bu gün Azərbaycan polisi Qarabağın hər bir guşəsində, vaxtı ilə işğal olunmuş rayonlarımızın hər yerində xidmət edir. Onların ataları, əmiləri, dayıları zamanında erməni-daşnak seperatizminə, işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı ön cəbhədə vuruşublar. O vaxt düşmənə qarşı sipər olan, xalqın ümid yeri elə Azərbaycan polisi olub. Daxili işlər orqanları əməkdaşlarının Birinci Qarabağ müharibəsində göstərdiyi qəhrəmanlıq və şücaəti onların xələfləri 44 günlük Zəfər savaşında artıqlaması ilə nümayiş etdirdilər. Şübhəsiz, Azərbaycan polisinin ad günündə Şuşada, Xankəndində, Xocalıda, Ağdərədə və işğaldan azad edilən bütün yaşayış məntəqələrində xidməti borcunu yerinə yetirən polis əməkdaşları ata və babalarının şəhid ruhuna dualar oxuyacaq, müqəddəs məkanları ziyarət edəcəklər. Bayramı doğma Qarabağda, Ermənistanla bütün sərhədboyu ərazilərdə qeyd etməyin ayrı bir şərəfi, ayrı bir qüruru var. Bu qürur və şərəfə Azərbaycan polisi layiqdir. Bayramı ən yüksək səviyyədə, böyük ruh yüksəkliyi ilə qeyd etmək Azərbaycan polisinin halal haqqıdır. Bu həm də ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş Azərbaycanın bayramıdır.

Bayramınız mübarək olsun!

***Səyyad AĞBABALI,***
***araşdırmaçı jurnalist***

# Postmüharibə dövründə liderlik



### VIII məqalə

## İntellektual fəzilət

Azərbaycan liderlik təcrübəsində intellektual fəzilətliliyin siyasi şüurun kanonuna çevrilməsi mühüm hadisədir. Bu, müasir liderlikdə fəzilətliliyin, ümumiyyətlə, siyasi fəaliyyətin atributu keyfiyyətində olması deməkdir. Məsələnin bu aspekti postmüharibə dövründə liderliyin "Intelligent Foreign Policy" kontekstində araşdırılmasını aktual edir. Bunun səbəbi postmüharibə dövrünün bir sıra geosiyasi, siyasi və diplomatik xüsusiyyələri ilə bağlıdır.

Postmüharibə mərhələsi inkişaf, quruculuq və əməkdaşlıq dövrü kimi təsəvvür edilməlidir. Azərbaycan Vətən savaşında qazandığı uğurla, bütövlükdə, regional və multiregional miqyaslarda dövlətlərarası münasibətləri yeniləşdirdiyindən bu tələbə cavab verən liderlik nümunəsini yaratmalıdır. XXI əsrin üçüncü onilliyində yalnız tərəqqi, quruculuq və təhlükəsizliyə xidmət edən liderliyin reallaşması mürəkkəb bir prosesdir. Üstəlik, həmin siyasət "Intelligent Foreign Policy" səviyyəsində aparılmalıdırsa, ikiqat çətin situasiya meydana çıxır. Burada son dərəcə dərin və peşəkar fəaliyyətlə incəliyi uyğunlaşdırmaq, həssas situasiyaların neqativ yöndə inkişaf etməsinin önünü kəsmək çox vacibdir. Məhz buna görə postmüharibə dövründə yüksək rasional-məntiqi aspektlə intellektual fəzilətliliyin harmoniyası zəruridir. Fəzilətli siyasi zəkavilik yüksək rasionallğın və məntiqi ciddiyyətin liderliyin qeyri-konstruktiv müstəviyə deqradasiya etməsinin qarşısını alır. Burada liderin hər bir addımında fəzilətli olması şərti ön plana çıxır. Postmüharibə dövründə uğurlu liderliyin perspektivi bu məqamdan xeyli dərəcədə asılıdır.

Bunlarla yanaşı, postmüharibə dövründə uğurlu "Intelligent Foreign Policy" üçün əhəmiyyəti çox olan bir sıra faktorların meydana gəlməsi, bu liderlik nümunəsini yaradıcı inkişaf etdirmək tələbini ortaya qoyur. Prezident İlham Əliyev postmüharibə dövründə uğurlu liderlik nümunəsini eksklüziv olaraq, praktiki fəaliyyətdə yaradır. Bu, dinamik prosesdir. Aspektləri və istiqamətləri çoxdur. Onların sistem halında təzahürü bütövlükdə eksklüziv "Intelligent Foreign Policy"ni təmsil edir.

## Eksklüziv "Intelligent Foreign Policy"

Bu, liderlikdə çox maraqlı fenomendir. Sürətlə dəyişən mühitdə yüksək zəka səviyyəsində nəticəverici siyasi kurs yaratmaq və eyni zamanda, həyata keçirmək güclü kreativlik tələb edir. Burada kreativliyin anlayışının hansı anlamda işlədildiyini izah etmək zəruridir. Çünki bizim eksklüziv "Intelligent Foreign Policy" kontekstində işlətdiyimiz kreativliyin anlamı onun fəlsəfi və ümumi siyasi-nəzəri dərkindən bir qədər fərqlənir. Kreativlik istedad, yaradıcı proses, müəyyən kontentin yaradılmasını və ya bu prosesin nəticəsini ifadə edə bilər. Zəkavi xarici siyasətdə bu aspektlərin hər biri mövcud ola bilər. Lakin konkret situasiyalarda kontentin yaradılması ön plana çıxa bilər. Deməli, eksklüziv siyasi kreativlik özündə iki faktoru ehtiva edir – yaradıcı prosesin predmetləşmiş nəticəsi və konkret kontentin yaradılması. Siyasi kontent həmin anlamda liderin nitqini, özünüifadə formalarının cəmini, ümumilikdə isə uyğun mühitin yaradılmasını əhatə edir. Eksklüziv zəka siyasətində uyğun mühitin kontent (əsas məzmun) kimi yaradılması aparıcı faktordur.

Bu o deməkdir ki, lider sürətlə dəyişən geosiyasi mühitdə predmetləşmiş yeniliklər (reklam, layihələr, platformalar, proqramlar və s.) yaratmaqla yanaşı, müxtəlif istiqamətlərdə elə mühit formalaşdırmalıdır ki, özünün siyasi kursunun uğurlu olması üçün fayda versin. Postmüharibə dövründə problemin də ən çətin tərəfi bununla bağlıdır. Çünki, lider eyni zamanda çox sayda komponenti olan mürəkkəb bir mühitdə uğur formulunu dəqiq müəyyən etməlidir. Özü də məsələ uğurlu olmaq üçün uyğun mühitin əsas məzmun (kontent olaraq) yaradılmasından ibarətdir.

## Siyasi kreativlik və kontent

Siyasi kreativliyin bu anlamını bir qədər sadə dildə ifadə etməyə çalışaq. Postmüharibə mühitində liderin siyasi kreativliyi yalnız irəli sürdüyü təbliğat, təşviqat, proqramlar, layihələr, əməkdaşlıq platformaları ilə məhdudlaşmır. Daha önəmlisi, siyasi fəaliyyət təsirinin maksimum hüdudları daxilində liderliyi bütün aspektlərində uğura apara biləcək mühitin yaradılmasıdır. Bu, artıq zəka səviyyəsində sistemli, əhatəli və çox sayda faktoru birləşdirə biləcək siyasət tələb edir. Belə çıxır ki, postmüharibə dövründə xarici siyasəti zəka səviyyəsində aparmaq birbaşa yeni siyasi elementlər (proqram, layihə, platforma və s. formasında) yaratmaq qabiliyyəti ilə yanaşı, liderin təsir dairəsi hüdudları daxilində uyğun mühiti (əsas məzmun kimi siyasi kontenti) yarada bilmək bacarığını da tələb edir. Bu iki faktorun zəkavi miqyasda funksionallığı xarici siyasət kursunu xarakterizə edə bilər.

Siyasi-nəzəri olaraq burada ümumi mənzərə aşağıdakı kimi formalaşır: "Intelligent Foreign Policy"nin adekvat dərki müasir fəlsəfi və elmi idrak üçün əsas araşdırma strategiyalarından olan "fon-fiqur" vəhdəti prizmasında mümkündür. XX əsrin ikinci yarısında ingilis alimi Con Spenser Braunun "forma" məntiqində ifadəsini tapmış həmin dərketmə strategiyası özlüyündə çox mürəkkəb məzmun və mahiyyətə malikdir. Lakin həmin məntiq XX əsrin sonları və XXI əsrin əvvəllərində hər bir yeni sosial, siyasi, iqtisadi, mədəni və s. proseslərin adekvat dərki üçün başlıca idraki vasitə kimi qəbul edilir.

## "Intelligent Policy"nin kodları ("memlər"i)

Bizim qənaətimizə görə, İlham Əliyevin nümunəsində "Intelligent Foreign Policy" məhz ən yeni siyasi liderlik fenomenidir və onun adekvat fəlsəfi, siyasi-nəzəri, kulturoloji, ideoloji və s. dərki ən yeni fəlsəfi və siyasi-nəzəri idrak strategiyaları çərçivəsində baş tuta bilər. Mövqeyimizi daha konkret və sadə üsulla ifadə edə bilmək üçün "Intelligent Foreign Policy" üçün əhəmiyyəti olan daha iki anlayışı daxil etməliyik. Onlar liderin fəaliyyət müstəqilliyi və məqsədyönlülüyüdür. Məsələnin məğzi uğurlu siyasi kontent yaratmaq və həm də geniş geosiyasi mühitdə bunu etmək üçün xüsusi zəkavi keyfiyyətlərə malik olmağı tələb edir.

Liderin siyasi fəaliyyətdə yeni təşəbbüslərinin (əməkdaşlıq platformaları, inkişaf proqramları, təhlükəsizliklə bağlı təşəbbüsləri, regional və regionlararası inteqrasiya naminə irəli sürülən rasional layihələr və s.) substantiv aspekti ilə onların reallaşması üçün uyğun mühitin (sosial, siyasi, ideoloji, diplomatik, mədəni, geosiyasi, iqtisadi) yaradılması vəhdət təşkil etməli, ahəngdar olmalı, bir-birini tamamlamalıdır. Bunu fəlsəfi ümumiləşdirsək, məsələni "fon-fiqur" vəhdəti kimi təsəvvür edə bilərik. Yəni "fon" liderin yaratdığı uyğun sosial-siyasi-geosiyasi-mədəni-təhlükəsizlik-ideoloji xarakterli mühitdir, "fiqur" isə liderin zəka səviyyəsində irəli sürdüyü və çox müxtəlif sferalara aid konkret platformalar, layihələr, proqramlardır. Bu iki istiqamətin qarşılıqlı əlaqəsində liderin zəkavi fəaliyyətinin substantiv aspekti ilə funksional aspekti vəhdət (harmoniya, ahəngdarlıq) təşkil etməlidir.

Deməli, "Intelligent Policy" yeni liderlik nümunəsi kimi özünün ən müasir idraki əsaslarına malikdir və onların prizmasında adekvat dərk oluna bilər. Bu məqamda liderlik fəaliyyətinin müstəqilliyi və məqsədyönlülüyü çox vacib politoloji faktorlar kimi özünü göstərir. İdeya ondan ibarətdir ki, özlüyündə "fon-fiqur" yanaşması "İntelleginet Policy" fenomeninin praktiki liderlik fəaliyyətinə çevrilməsini təmin etmir, yalnız müvafiq idraki strategiya yarada bilir. Konkret zəkavi liderlik nümunəsi üçün fəaliyyət, düşünənləri reallaşdırmaq potensialı, bəlkə də "liderlik ekosu" gərəkdir. Bu keyfiyyətdə iki başlıca faktor kimi liderlik fəaliyyətində müstəqilliyi və məqsədyönlülüyü götürməyə üstünlük veririk.

Belə çıxır ki, real "Intelligent Policy" liderin müstəqil və məqsədyönlü fəaliyyət göstərə bilməsini tələb edir. Əgər lider fəaliyyətində müstəqil deyilsə, avtomatik olaraq "fon-fiqur" idraki konstruksiyası pozulur, süniləşir və praktiki kontekstdə səmərəsiz, nəticəsiz olur. Məqsədyönlülük isə zəka səviyyəsində liderin öncədən siyasi diaqnoz əsasında etdiyi proqnostik qənaətlərdən yaratdığı başlıca hədəfə çatmaq üçün lazımdır. Əgər bu hədəf yüksək sürətlə dəyişən geosiyasi, siyasi, iqtisadi, mədəni və təhlükəsizlik mühitində tez-tez "gözdən yayınarsa" və bu mənada hədəfdən çıxarsa, "Intelligent Policy" tam mənasında alına bilməz.

Bundan başqa, nəzərə almaq lazımdır ki, "fon-fiqur" idraki və feili fəaliyyət strategiyası liderin ("fiqur") daim uyğun mühit ("fon") yaratmasını tələb edir. Faktiki olaraq, burada liderliyin yeni siyasi, geosiyasi, iqtisadi, mədəni, təhlükəsizlik və s. dəyərlər (bunlar yeni "memlər" də ola bilər) yaratmasından söhbət gedir. Biz burada fəlsəfədə, sosiologiyada, kulturologiyada, analitik psixologiyada və liderologiyada işlədilən "mem" anlayışına konkret məzmun veririk.

Bizim bu mövzuya yanaşmamızda "liderlik memi" yeni liderlik kodlarıdır. Problemin bu cəhəti də çox aktual və əhəmiyyətlidir. Çünki söhbət faktiki olaraq yeni tarixi mərhələdə "İntellegent Policy" kontekstində yeni zəkavi və uğurlu liderlik nümunəsinin baza elementlərindən, dəyişməz faktorlarından, yəni "memlər"dən gedir. Düşünürük ki, mövzunun bu aspekti İlham Əliyevin liderlik nümunəsində dərindən fəlsəfi və politoloji kontektslərdə araşdırılmalıdır.

## Yekun

Vurğulanan məqamların əsasında postmüharibə dövrü İlham Əliyevin "Intelligent Foreign Policy" nümunəsinin ümumi fəlsəfi və politoloji özəlliklərinin bir qismini müəyyən etmək mümkündür. Həmin kontekstdə "postmüharibə dövrü" birbaşa inkişaf paradiqmasına əsaslanan və hər hansı müharibə situasiyasını istisna edən, regional və regionlararası miqyaslarda sülh, əməkdaşlıq, qarşılıqlı faydalı və təhlükəsiz əlaqələrə üstünlük verən zaman kəsimi kimi dərk edilir.

İlham Əliyevin həmin şərtlərdə liderlik fəaliyyəti mahiyyətcə "Intelligent Policy" kimi qiymətləndirilə bilər. Onun konkret substantiv və funksional özəllikləri mövcuddur. Onlar ən müasir fəlsəfi və elmi idrak strategiyası olan və C.Braunun "forma" məntiqinə əsaslanan "fon-fiqur" idrak strategiyasına dayanan faktorlardır. Substantiv aspektini İlham Əliyevin lider kimi təşəbbüsləri olaraq əməkdaşlıq platformaları, inkişaf proqramları, təhlükəsizliklə bağlı təşəbbüsləri, regional və regionlararası inteqrasiya naminəsi, irəli sürülən rasional layihələri və s. təşkil edirlər. Funksional apsekti isə özündə vurğulanan substantivlik elementlərinin reallaşmasını feili fəaliyyətdə təmin edən uyğun sosial, siyasi, ideoloji, diplomatik, kültürəl, geosiyasi, iqtisadi mühitin yaradılmasını ehtiva edir.

Nəhayət, yeni tarixi mərhələ üçün İlham Əliyevin nümunəsində "Intelligent Policy"nin substantiv və funksional aspektlərinin praktiki müstəvidə sintezini təmin edə bilən mexanizmlər qismində liderin müstəqil və məqsədyönlü fəaliyyəti zərurət kimi qəbul ediməlidir. Onu da mütləq vurğulamaq gərəkdir ki, İlham Əliyevin zəkaya əsaslanan xarici siyasət nümunəsi eksklüziv olaraq formalaşır. Bu da problemin təhlilinə xüsusi dinamizm, açıqlıq və qeyri-xəttilik verir.

Sonda onu deyək ki, İlham Əliyevin "Intelligent Policy" nümunəsinin substantiv, funksional və təminedici mexanizmlərin sistemi kimi daha dərin, detallı və əhatəli araşdırılması çox vacibdir. Bu, başqa silsilə araşdırmaların idraki hədəfi olmalıdır.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki, fəlsəfə elmləri doktoru*

# Ermənilər tarixdən niyə dərs almırlar?

## *Hayastan rəsmilərinin Türkiyəyə yalvarış teleqramları*

### II yazı

**Hörmətli oxucu! XQ-nin Türkiyə müxbiri Qafar Çaxmaqlının qəzetin 30 iyun tarixli nömrəsində dərc olunmuş "Ermənilər tarxidən niyə dərs almırlar?" yazısında söhbət 1920-ci illərin əvvəllərində Ermənistan rəhbərliyinin Türkiyə ilə sülh müqaviləsi bağlamaq üçün qardaş ölkəyə yalvarış müraciətlər ünvanlamasından gedir. Bu gün məqalənin 2-ci hissəsini oxuculara təqdim edirik.**

...1921-ci il martın 15-də Vratsyan hökuməti "türk məsələsini araşdırmaq üçün" Vətənin Qurtuluşu Komitəsi"nin xüsusi iclasını çağırdı. Həmin iclasda keçmiş baş nazirlər Kaçaznuni və Ohancanyan da iştirak edirdi.

Vratsyan həmin iclasda da qeyd edir ki, "bizim danışacağımız yeganə dövlət... Türkiyədir. Bizim onlarla Aleksandropol paktı əsasında danışmaq imkanımız var... Məncə, biz ancaq Aleksandropol paktı əsasında danışıqlara başlaya bilərik. Bu gün həmin paktın bütün aspektlərini qiymətləndirməyin vaxtı deyil. Ölkəmizi bu ağır vəziyyətdən xilas etmək istəyiriksə, nə qədər çətin və şərəfsiz olsa da, bu addımı da atmağa məcburuq".

Kaçaznuni qeyd edirdi ki, "Aleksandropol müqaviləsi nə qədər ağır olsa da, hər şeyə görə, bizim ovaxtkı və bugünkü vəziyyətimiz heç vaxt imkan verməyəcək ki, daha əlverişli vəziyyət yaradaq. Mənə elə gəlir ki, bugünkü şəraitdə Aleksandropol paktı ilə bağlı müəyyən islahatlara getmək imkanı var... Ölkəmizdə baş verən son siyasi dəyişikliklərlə bağlı elə bir vəziyyət yaranıb ki, sanki türklərlə aramızda yaxınlaşma yaranıb, bu, daha çox mümkündür. Bu vəziyyətimiz və müstəsna varlığımız türklərin müttəfiq kimi geniş dəstəyini zəruri edir. O dəstək ilk növbədə xarici düşmənə qarşı olmalıdır".

Vratsyan belə bir sual qoyurdu: "Biz bolşeviklərlə vuruşanda türk qüvvələrindən istifadə edəcəyik, ya yox? Əgər belədirsə, o zaman danışıqlara bu gün başlamalıyıq".

Ordunun baş komandanı Kuro Tarxanyan o zaman vurğulayırdı ki, bolşeviklərə qarşı "biz öz qüvvələrimizlə uzun müddət mübarizə aparmağa acizik". "Türkiyə qüvvələrindən istifadə etməliyik, ya yox? Mənə elə gəlir ki, biz bu qüvvələrin dəstəyinə üz tutmaq məcburiyyətindəyik", - deyə o yekunlaşdırırdı.

Komitənin toplantısında Vahan Minaxoryan buna qarşı çıxır. Mübarizəmiz ruslara qarşı olsa, heç bir türk qüvvəsi bizi xilas edə bilməz".

Müzakirə olunan fikirləri yekunlaşdıran Vratsyan aşağıdakı məqamları səsverməyə qoyur. Birincisi, türklərlə dostluq münasibətlərinə başlamaq, ikincisi, Aleksandropol paktını bu əlaqələrin əsası kimi qəbul etmək".

Sonra Türkiyə Böyük Millət Məclisi Hökumətinin Xarici İşlər Komissarlığına, Ankaraya da aşağıdakı teleqramın göndərilməsi qərara alınır:

"Bolşevizm adı ilə Ermənistana girmiş yad boyunduruğundan xilas olan Ermənistan xalqı azad və müstəqil yaşamaq, qonşuları və ilk növbədə türk xalqı ilə ən yaxın dostluq münasibətləri qurmaq əzmi ilə doludur. Hökumətim ötən il dekabrın 2-də Aleksandropolda imzalanmış Ermənistan-Türkiyə paktında təsbit edilmiş sazişi və sonradan yaradılmış faktiki şəraiti Türkiyə ilə Ermənistan arasında normal və dostluq beynəlxalq münasibətlərinin qurulması üçün əsas hesab edir.

Türkiyə xalqına və öz azadlığı uğrunda mübarizə aparan Böyük Millət Məclisi hökumətinə ən gözəl hissləri aşılayaraq, iki ölkə arasında dostluq əlaqələrinin qurulması, siyasi və iqtisadi-ticarət əlaqələrinin başlanması məsələsində sərəncamınıza arxalanaraq hökumətim məsələnin həllini sürətləndirməyin ən uyğun yolunun şəxsi təşəbbüs olduğuna inanır".

İmza: S.Vratsyan, Ermənistan hökumətinin Baş naziri və Xarici işlər naziri.

Görüşdə Kaçaznuni Ankaraya səfər etmək və danışıqları şəxsən aparmağa hazır olduğunu bildirsə də, sonra bu olmayıb. Qəmərli cəbhəsinin komandiri, Mşetsi dəstəsinin başçısı Smbat Vratsyana və Kaçaznuniyə türklərdən dərhal kömək istəməyi təklif ediblər.

Martın 18-də Vratsyan Ankaraya daha bir teleqram göndərərək onu Kemalistlərin Ermənistandakı nümayəndəsinə təhvil vermişdi.

"Türk Böyük Millət Məclisi Hökumətinin Şərq Cəbhəsi Komandanlığının nümayəndəsi Behaəddinə,

Hazırkı müraciəti təcili olaraq yüksək səlahiyyətli orqanınıza çatdırmaqdan və şəxsən sizə izah etdiyim kimi, erkən cavabı tezləşdirməkdən məmnun olardıq.

Öz azadlığı və müstəqilliyi uğrunda mübarizə aparan Ermənistanın bolşeviklərə qarşı mübarizəsi, fikrimizcə, təkcə Ermənistanın deyil, bütün Orta Asiya xalqlarının xeyrinədir. Bu səbəbdən Ermənistan mübarizəsi zamanı qonşularından kömək alacağına ümid edir və ilk növbədə türk xalqının həyati mənafeyi Ermənistanın bu mübarizədən qalib çıxmasını və müstəqil qalmasını tələb edir.

Bu qənaətə əsaslanaraq, Ermənistan hökuməti Türkiyə Böyük Millət Məclisi Hökumətindən hər iki xalqın qarşılıqlı faydası üçün ən qısa zamanda xahiş edir.



İrəvan cəbhəsindəki erməni hərbi əsirləri qaytarılsın. Müəyyən şərtlər daxilində Ermənistan ordusuna hərbi sursatlar, ilk növbədə Rusiyanın üçlüləli tüfəngi və ya türk mauzer patronları və ya Ross və Lebel sistemli tüfəngləri verilməsini təmin edin;

Bizə bildirin ki, Böyük Millət Məclisinin hökuməti Ermənistana hərbi yardım göstərməyi mümkün hesab edib-etmir və imkan daxilində bizə hansı həcmdə və qaydada və hansı müddətdə yardım göstərə bilər.

Ermənistan hökuməti bu müraciətlə Aleksandropol müqaviləsindən sonra yaranmış və bolşevik hakimiyyəti dövründə pozulmuş dostluq münasibətlərinə arxalanır.

İmza: hörmətlə Vratsyan, Ermənistan hökumətinin baş naziri".

Göründüyü kimi, Ermənistanın başı sıxılanda Türkiyənin humanizmi, onun xoş münasibəti yadına düşür. Amma başqalarının təhriki ilə türkə ən böyük xəyanəti etməkdən çəkinmir.

Məgər 30 il Azərbaycan ərazilərini işğal altında saxlayarkən ermənilər belə "həlim" "sülhsevər" deyildilər. Eynilə 1918–1920-ci illərdə də Azərbaycan və Türkiyəyə zərbə vurmaq, qonşu ölkələrin ərazilərini işğal etmək üçün məqam gözləmiş və qonşulara savaş açmaq kimi risklərə də getmişdilər. Sonra isə bu tarixi sənədlərdə olduğu kimi, düşdüyü quyudan çıxmaq üçün türkün yardımına, onun humanizminə bel bağlamışdılar. Müasir dövrümüzdə də Ermənistan həminkidir, yalnız zaman dəyişib.

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

# Qiymət tənzimlənməsi nəqliyyat şəbəkəsinə yeni keyfiyyət gətirəcək

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən ictimai nəqliyyat və hava nəqliyyatı ilə ölkədaxili sərnişindaşıma xidmətləri üzrə tariflər yenilənib. Bildirilib ki, sosialyönümlülük baxımından ən optimal variant seçilməklə aşağıda qeyd olunan tariflərin tətbiqi məqsədəuyğun hesab edilib:**

–müntəzəm şəhərdaxili (rayondaxili) avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı həddi məsafədən asılı olmayaraq 50 qəpik müəyyən edilib. Bundan əlavə, metro nəqliyyatında sərnişindaşıma xidmətinin tarifi bir gediş üzrə 50 qəpik, müntəzəm şəhərlərarası avtobus marşrutlarında sərnişindaşıma xidməti üzrə tarifin yuxarı həddi bir kilometr üçün 3,7 qəpik olub.

– ölkədaxili müntəzəm şəhərətrafı və qəsəbələrarası avtobus marşrutları və hava nəqliyyatı ilə ölkədaxili sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı hədləri yenilənib. Lakin Bakı–Naxçıvan / Naxçıvan–Bakı istiqamətləri üzrə hava nəqliyyatı ilə ölkədaxili sərnişindaşıma xidmətinin tarifində dəyişiklik edilməyib.

Beləliklə, bu qərarın qəbul edlməsini əsaslandıran səbəblərə gəldikdə, əvvəlki tariflər xidmət keyfiyyətinin artırılması, avtobus parkının yenilənməsi və nəqliyyat vasitələrinin daim saz vəziyyətdə saxlanmasına imkan vermirdi. Məhz bu səbəbdən də belə bir addım atılmasına zərurət yaranmışdı.

Tariflərin yenilənməsi zamanı dövlətin sosial siyasətinə uyğun olaraq, sosialyönümlülük nəzərə alınmaqla xidmət keyfiyyəti və müştəri məmnuniyyətinin artırılması, istehlakçı ilə xidmət göstərən tərəflərin maraqlarının uzlaşdırılması diqqət mərkəzində saxlanılıb. Bütün bunlarla yanaşı, xidmətin dayanıqlılığının və iqtisadi əlverişliliyin təmin olunmasına, ölkədaxili sərnişindaşıma xidmətləri üzrə davamlılığın təmin edilməsi, keyfiyyətin yüksəldilməsi, habelə avtobus parklarının yenilənməsi, metro infrastrukturunun genişləndirilməsinə mühüm önəm verilib. Nəhayət, gələcəkdə vətəndaşların ictimai nəqliyyatdan daha rahat istifadəsinə səbəb olan yeni sərmayələrin cəlbinə şərait yaradılıb, müntəzəm şəhərdaxili (rayondaxili) və şəhərlərarası avtobus marşrutlarında, metro nəqliyyatında tariflərin tətbiqində optimal variantın seçilməsi əsas məsələlərdən biri olub.

Bakı–Naxçıvan / Naxçıvan–Bakı istiqamətləri üzrə hava nəqliyyatı ilə ölkədaxili sərnişindaşıma xidmətinin tarifində dəyişiklik edilməyib. İşğaldan azad olunan ərazilərdə tikilən Füzuli və Zəngilan aeroportları da hava nəqliyyatı ilə ölkədaxili yeni tariflərlə vətəndaşların istifadəsi üçün açıq elan edilib.

Azərbaycanda "Avro-5" ekoloji standartı ilə istehsal edilən yanacağın, bərk məişət tullantılarının idarə olunması, ferrosilisium istehsalı sahəsinə verilən elektrik enerjisi üzrə xidmətlərin və bir sıra dərman vasitələrinin qiymətləri də tənzimlənib.

Yeri gəlmişkən, aidiyyəti beynəlxalq qurumlar və ictimaiyyət tərəfindən ekoloji mühitin qorunması, nəqliyyat emissiyalarının azaldılması və daha təmiz nəqliyyat növlərinin təşviqi ilə bağlı çağırışlar artır. Azərbaycanda yanacağın keyfiyyətinin yüksək standartlara çatdırılması, ekoloji mühitin yaxşılaşdırılması məqsədilə neft emalı sənayesində yenidənqurma və modernləşdirmə işləri həyata keçirilir, bu sahəyə investisiya








xərcləri artır. Ölkəmizdə "Avro-5" standartına tam uyğun olaraq istehsal olunan dizel yanacağının və Aİ-92 benzininin maya dəyərinin yüksəlməsi bu məhsulların satış qiymətlərinin artırılmasını zəruri edir.

Bununla bağlı Dövlət Neft Şirkətinin (SOCAR) müraciəti əsasında Tarif (qiymət) Şurasının 2024-cü il iyunun 29-da keçirilən növbəti iclasında Aİ-92 markalı avtomobil benzininin və dizel yanacağının qiyməti tənzimlənib. Tarif (qiymət) Şurası Katibliyindən bu barədə verilən məlumat bildirilib ki, Aİ-92 markalı avtomobil benzininin pərakəndə satış qiyməti 1 litr üçün 10 qəpik artırılaraq 1,10 manat, dizel yanacağının pərakəndə satış qiyməti isə 1 litr üçün 20 qəpik artırılaraq 1 manat müəyyənləşdirilib.

Dizel yanacağından istifadənin daha yüksək ekoloji zərərini nəzərə alaraq, daha çox benzin istehlakına keçilməsi məqsədilə benzinlə dizel arasındakı qiymət fərqi azaldılıb. Qiymət dəyişikliyi enerji təhlükəsizliyinin dayanıqlılığını təmin etməklə yanaşı, yanacağa qənaət edən hibrid, elektrik və sıxılmış təbii qaz (CNG) mühərrikli avtomobillərə keçidi sürətləndirəcək. Statistikaya əsasən, son illərdə Azərbaycana avtomobil idxalında elektrik mühərrikli avtomobillərin sayı artır. Yanacağın keyfiyyətinin yüksəldilməsi, öz növbəsində, nəqliyyat vasitələrinin təmirinə çəkilən xərclərin azaldaraq istismar müddətini uzadacaq. Yumşaq tarif keçidinə baxmayaraq, psixoloji amil səbəbindən tarif tənzimlənməsindən sui-istifadəyə, əsassız qiymət artımına yol verilməməsi üçün ciddi nəzarət tədbirləri həyata keçiriləcək.

Tarif dəyişikliyindən sonra da Aİ-92 markalı avtomobil benzininin və dizel yanacağının pərakəndə satış qiymətləri əksər ölkələrlə müqayisədə yüksək deyil. Əksər ölkələrdə artıq Aİ-92 markalı benzin istehsal olunmur və satılmır, dizelin daha yüksək ekoloji zərərinə görə istehlakının azaldılması məqsədilə qiyməti bahalaşdırılır.

Dünya səviyyəsində böyük istehsalçılar "premium" markalı, elektrik və hibrid mühərrikli avtomobillərin istehsalına keçidi sürətlə davam edir. Avropa İttifaqında benzin və ya dizel mühərrikli (karbon-neytral sintetik yanacaqla (e-yanacaq) işləyən avtomobillər istisna olaraq) yeni avtomobillərin istehsalı və qeydiyyatının dayandırılması istiqamətində tədbirlər həyata keçirilir.

***

Tarif (qiymət) Şurasının iclasında bərk məişət tullantılarının idarə edilməsi üzrə tariflərə də baxılıb.

Bərk məişət tullantılarının idarə edilməsi sisteminin yenidən qurulması ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın qorunması, ölkədə kommunal xidmətlərin yaxşılaşdırılması istiqamətində mühüm önəm daşıyır.

Ölkəmizdə bərk məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi sahəsinə dövlət büdcəsindən subsidiyalar ayrılır. Çünki bu sahə üzrə ödənişlər xidmətlə bağlı xərcləri qarşılamır. Həmçinin tariflərin aşağı səviyyədə olması bu sahəyə özəl sektorun marağını azaldır.

Bununla əlaqədar olaraq daha yüksək keyfiyyətli xidmətlərin göstərilməsi üçün bərk məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi xidmətləri üzrə texniki təchizat və zərərsizləşdirmə xidmətinin səviyyəsi nəzərə alınmaqla yeni tariflər təsdiqlənib.

Bərk məişət tullantılarının yığılması və daşınması xidməti üzrə Bakı şəhəri üzrə əhali qrupu üzrə 1 nəfərə görə aylıq 1 manat (ƏDV daxil), qeyri-əhali qrupu üzrə 1 kubmetr üçün 15 manat və ya 1 ton üçün 68,30 manat (ƏDV daxil), bərk məişət tullantılarını zərərsizləşdirilməsi üçün təhvil verən qurum və ya şirkətlər üçün 1 kubmetr üçün 3,60 manat və ya 1 ton üçün 16,40 manat müəyyənləşdirilib.

Digər regionlar üzrə əhali qrupu üzrə 1 nəfərə görə aylıq 0,70 manat (ƏDV daxil), qeyri-əhali qrupu üzrə 1 kubmetr üçün 12 manat və ya 1 ton üçün 54,60 manat (ƏDV daxil), bərk məişət tullantılarını zərərsizləşdirilməsi üçün təhvil verən qurum və ya şirkətlər üçün 1 kubmetr üçün 2,50 manat və ya 1 ton üçün 11,50 manat nəzərdə tutulub.

Qeyd edək ki, əhali istehlakçı qrupu tarifləri Rusiyada 9 manat/kub metr, Qazaxıstanda 2 manat/nəfər/ay, Gürcüstanda 1,6 manat/nəfər/ay, Belarusda 7-8,3 manat/kub metr təşkil edir. Qeyri-əhali istehlakçı qrupu tarifləri isə Rusiyada 16-20 manat/kub metr, Qazaxıstanda 7 manat/kub metr, Gürcüstanda 9,5 manat/kub metr, Belarusda 8,4-16,6 manat/kub metr arasında dəyişir.

Yeni tarif tənzimləməsi dayanıqlı və keyfiyyətli xidmət göstərilməsinə öz töhfəsini verəcək, dövlət büdcəsindən asılılığı azaldacaq, abonentlərin uçotunun və xidmət haqlarının yığımının təşkilini stimullaşdıracaq və özəl sektorun bu sahəyə marağını təşviq edəcək.

İclasda idxaldan asılılığın aradan qaldırılması, rəqabət qabiliyyətli məhsulların ixracının stimullaşdırılması üzrə dövlətin iqtisadi siyasəti nəzərə alınaraq, ferrosilisium istehsalı sahəsinə verilən elektrik enerjisinin tarifi tənzimlənib. Alüminium sənayesində olduğu kimi bu sahəyə də gecə və gündüz tarifinin tətbiq ediləcəyi nəzərdə tutulub.

Həmçinin iclasda yeni dövlət qeydiyyatına alınan 115 dərman vasitəsinin qiymətinin yuxarı həddi təsdiqlənib. Ticarət adı, farmasevtik forması, təsiredici maddəsinin adı, dozası, ticarət qablaşdırması, miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla, qiymətlərinin yuxarı həddi təsdiqlənən dərman vasitələrinin tam siyahısı Tarif (qiymət) Şurasının rəsmi internet saytının (www.tariff.gov.az) "Dərman vasitələri" bölməsində (http://tariff.gov.az/documents/DVA.pdf) yerləşdirilib.

Qərarlar 2024-cü il iyulun 1-dən qüvvəyə minib.

## Taksilərin yolu "Avro-5"-ədir




**İyulun 1-dən taksi minik avtomobillərinin "Avro-5" ekoloji standartına uyğunluğu ilə bağlı tələb qüvvəyə minib. Bu, Nazirlər kabinetinin təsdiq etdiyi "Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər"də əksini tapıb.**

Tələblərə görə, dövlət qeydiyyat şəhadətnaməsində göstərilən buraxılış tarixindən 8 ildən artıq müddət keçmiş avtonəqliyyat vasitəsinə "Avtomobil nəqliyyatı haqqında" qanunla müəyyən edilən buraxılış kartı verilməyəcək.

Dövlət qeydiyyat şəhadətnaməsində göstərilən buraxılış tarixindən 15 ildən artıq müddət keçən avtomobil nəqliyyatı vasitələri taksi minik avtomobilləri ilə sərnişin daşımalarında istifadə oluna bilməz.

Tələblərə görə, taksi minik avtomobillərinə bütün salonunu əhatə edən və qeydə aldığı məlumatları azı 1 ay müddətində saxlaya bilən yaddaş qurğusu ilə təchiz olunan videokameralar quraşdırılmalıdır.

***

**Azərbaycanda taksi fəaliyyəti üçün icazə ("Buraxılış vəsiqəsi" və "Buraxılış kartı") alan sürücülərin sayı 11 min 696-a çatıb.**




Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) məlumatında daha sonra bildirilib ki, təlim keçən sürücülərin sayı isə 24 min 482 nəfər olub.

Qeyd edək ki, bu il martın 28-də Nazirlər Kabineti "Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər"i təsdiqləyib. Tələbə əsasən, sürücülər taksi fəaliyyəti üçün icazə ("Buraxılış vəsiqəsi" və "Buraxılış kartı") almalıdırlar.

# Avrostandarta keçid ölkəmizdə "Aİ-95" benzinini ucuzlaşdıracaq

**SOCAR-ın emal kompleksində istehsal olunan məhsulları "Avro-5" standartlarına çatdırmaq məqsədilə Heydər Əliyev adına Neft Emalı Zavodunda aparılan yenidənqurma və modernizasiya işlərinin ilkin mərhələsi tamamlanmaq üzrədir.**

SOCAR-ın mətbuat xidmətinin bu barədə yaydığı məlumatda daha sonra qeyd edilib ki, layihənin dizel və benzin istehsalı qurğularının inşası üzrə işlər yekunlaşıb, bir sıra ümumzavod təsərrüfatı qurğuları, texnoloji qurğular istismara verilib. Gerçəkləşdirilən




layihə nəticəsində NEZ-də istehsal olunan Aİ-92 və Aİ-95 markalı avtomobil benzinləri artıq "Avro-5" standartlarına çatdırılıb. Bununla da 2014-cü ildən hazırkı vaxtadək ölkədaxili tələbatı beynəlxalq qiymətlərlə idxal hesabına təmin olunan Aİ-95 markalı avtomobil benzini daxili istehsal hesabına təmin ediləcək.

"Avro-5" keyfiyyət göstəricilərinə uyğun daxili istehsal olunan Aİ-95 markalı avtomobil benzininin 1 litrinin qiymətinin 2024-cü il iyulun 15-dən bazarın konyunkturuna uyğun olaraq 40 qəpik ucuzlaşaraq 1,60 manat olması nəzərdə tutulub. Beləliklə, ölkəmizdə avtomobil nəqliyyatında "Avro-5" standartlarının qəbulu sayəsində iqlim dəyişikliyi ilə mübarizə və istixana qazlarının emissiyalarının azaldılması sahəsində daha bir mühüm addım atılıb. Başqa sözlə, ekoloji standartlara cavab vermək və havanın keyfiyyətini yaxşılaşdırmaq məqsədilə Azərbaycan özünün Aİ-95 markalı benzin istehsalını yaradıb.

Ekspertlərin sözlərinə görə, bu addım yanacağın qiymətinin aşağı salınması ilə yanaşı, həm də nəqliyyatın ətraf mühitə təsirinin azaldılmasına yönəldilib. Aİ-95 yanacağına keçidlə digər yanacaq növləri də tədricən bazardan çıxarılır ki, bu da Azərbaycanın yanaşmalarında əsaslı dəyişikliyi nümayiş etdirir. Respublikamızda emissiyaların azaldılması və daha təmiz nəqliyyat növlərinin təşviqi ilə bağlı çağırışlar gerçəkləşdirməklə həm ətraf mühitə, həm də iqtisadiyyata mühüm töhfələr verilir. Xatırladaq ki, Avropada işlənmiş qazlarda zərərli maddələrin tərkibini təmizləyən birinci ekoloji standart 1992-ci ildən yaradılıb, 1996-ci ildə isə "Avro-2" standartının tətbiqinə başlanılıb.

Hazırda Avropa Birliyinə daxil olan ölkələrdə daha mütərəqqi "Avro-5" standartı tətbiq edilir. Avro standartlarında həm yanacağın tərkibi, həm də avtomobillərin texniki vəziyyəti ilə bağlı yüksək tələb qoyulur. Avropa standartlarına görə, 1996-cı ildən sonra istehsal olunan avtomobillərə elə zavodda xüsusi təmizləyici qurğular – katalizatorlar quraşdırılır və bu qurğuların işləyib-işləməməsi müəyyən müddətdən bir yoxlanılır. İstehsal tarixi 1996-cı ilə qədər olan avtomobillərə isə belə qurğuların sonradan quraşdırılması məcburi sayılır. Məsələn, Almaniyada avtomobillərin üzərinə vurulan yaşıl rəngli nişanla bu avtomobilin standarta uyğun gəldiyi bilinir. Belə nişanı olmayan avtomobil üçün yüksək cərimə tətbiq edilir.

Azərbaycanda ekoloji problemlərin yaranmasına yol açan mühüm məqamlardan biri də avtomobillərdə istifadə edilən benzin və dizel yanacaqlarının standart göstəricilərinin aşağı olmasıdır. Problem təkcə Azərbaycanda yox, onun sərhədlərindən kənarda da geniş müzakirə edilir. Bir müddət əvvəl Avropa Birliyi (AB) Dövlət Neft Şirkətinə ünvanladığı tövsiyələrdə benzin və dizel yanacağının keyfiyyətini yaxşılaşdırmağın vacibliyini qabartmışdı. Birliyin tövsiyələrinin əsasını yanacağın keyfiyyətinin tezliklə "Avro" standartlarına çatdırılması təşkil edirdi.

AB-yə daxil olan ölkələr "Avro-2" standartlarına 1996-cı, "Avro-3" standartlarına 2000-ci, "Avro-4" standartlarına 2005-ci ildən keçib. "Avro-5" standartlarına keçid isə əsas etibarilə 2009-cu ildən reallaşıb.

Avropa standartlarına əsasən, avtomobillərin sürət qutusunun işçi vəziyyətində ixrac qazlarının tərkibində olan zərərli maddələrin miqdarı qram/kilometrlə ölçülür ki, bu daha düzgün yanaşma hesab olunur. Bu standartlarda, həmçinin avtomobil yanacağının keyfiyyətinə də xüsusi texniki tələblər nəzərdə tutulur.

### Ekspert rəyi



**Fikrət YUSİFOV,**
**iqtisad elmləri doktoru, professor**

Azərbaycanda dizel yanacağının qiyməti ilə benzinin qiyməti arasındakı fərqin azaldılması məntiqi bir addımdır. Çünki dizel yanacağı ekologiyanı daha çox korlayır. Bu yanacaq növünün qiymətinin benzinin qiymətinə yaxınlaşdırılmasını şərtləndirən bir əsas səbəb də odur ki, son zamanlar ekologiyanı daha çox çirkləndirən dizel yanacağı ilə işləyən avtomobillərin ölkəmizə idxalında artım müşahidə olunmaqdadır. Bu isə hökumətin ekoloji təmizliyin təmin edilməsi istiqamətində müəyyən etdiyi kursa uyğun olmayan bir ənənədir və onun aradan qaldırılması şərtdir. Nəzərə alaq ki, dünyanın inkişaf etmiş bəzi ölkələrində dizel yanacağının qiyməti benzinin qiymətindən yüksəkdir. Bu seçimin məqsədi də həmin yanacaq növündən istifadənin həcmini minimuma endirməkdir.

Dünyanın bir çox ölkələrində Aİ-92 markalı benzinin istehsalı və satışı çoxdan dayandırılıb. Yəni indi dünyada avtomobillər üçün daha çox Aİ-95 markalı benzindən istifadə olunur. Azərbaycanda bu markalı benzin istehsal edilmədiyindən biz onu idxal edirdik. İdxal isə baha başa gəldiyi üçün həmin benzinin 1 litrinin pərakəndə satış qiyməti 2 manat təşkil edirdi. Azərbaycan Dövlət Neft Şirkətinin Heydər Əliyev adına Neft Emalı Zavodunun yenidən qurulması ilə bu markadan olan benzinin yerli xammal hesabına istehsalı onun qiymətini 40 qəpik ucuzlaşdırmağa imkan verdi. Yaxın gələcəkdə ölkəmizdə avtomobillərin daha çox Aİ-95 benzinindən istifadə edəcəyini nəzərə alsaq, onun qiymətinin 20 faiz ucuzlaşdırılmasını hökumətin benzinin qiymətlərinin insanlarımızın büdcəsinə uyğunlaşdırılması istiqamətində bir addımı kimi dəyərləndirə bilərik. Müqayisə üçün deyək ki, Aİ-95 markalı benzinin yeni qiyməti dünyanın əksər dövlətlərində və hətta MDB məkanındakı ölkələrin çoxunda həmin markadan olan benzinin qiymətindən çox aşağıdır.

Fikrimcə, Heydər Əliyev adına Neft Emalı Zavodunun aparılan yenidənqurma və modernizasiya işləri nəticəsində yerli bazarın benzinə olan tələbatı "Avro-5" standartlarına uyğun təmin ediləcək. Keyfiyyətli benzindən istifadə edən avtomobillər havaya daha az zəhərli qaz buraxacaq, avtomobillərin istismarı zamanı yaranan nasazlıqlar aradan qalxacaq və bütövlükdə, yanacaq sərfi aşağı düşəcək. Ən əsası isə bu, regionda "yaşıl enerji" istehsalının lokomotivinə çevrilməkdə olan, cari ilin noyabr ayında bəşəriyyəti ciddi narahat edən iqlim problemlərinin həlli yollarının axtarışını nəzərdə tutan dünyanın ən böyük tədbirinə – COP29-a ev sahibliyi edəcək ölkəmizin bu istiqamətdə müəyyən etdiyi kursa tam uyğun addımdır.

### Ekspert rəyi



**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**

Hələ 10 il əvvəl Azərbaycan Dövlət Neft Şirkətinin Heydər Əliyev adına Neft Emalı Zavodunda buraxılan bütün yanacaq növlərinin (Söhbət dizel yanacağı, eləcə də AI-92 və AI-95 markalı benzinlərdən gedir) istehsalını "Avro-5" standartlarına keçirilməsi qarşıya mühüm məqsəd kimi qoyulmuşdu. Artıq şirkət bu hədəfə tam nail ola bilib. Yəni biz əvvəllər Avro-2 keyfiyyət standartlarına cavab verən məhsul istehsal edirdiksə, artıq bunu dəfələrlə yüksəldə bilmişik. Bu da ətraf mühitə təsirlər baxımından çox müsbət haldır. Xüsusən də ölkəmizdə keçiriləcək COP29 öncəsi belə bir addımın atılması Azərbaycanın ətraf mühitə, karbon emissiyalarının azaldılmasına olan töhfəsidir.

Bir məsələni də nəzərə almaq lazımdır ki, son illər Azərbaycanın paytaxtında avtomobillərin sayında kəskin artım müşahidə olunur. Yeri gəlmişkən, Ekolgogiya və Təbii Sərvətlər Nazirliyinin hesabatlarına əsasən, hazırda Bakı şəhərində atmosferin çirklənməsinin məhz 80 faizi avtomobillərin yanacağından atılan tullantılar hesabına baş verir. "Avro-5" standartlarına keçid isə bunun qarşısını əhəmiyyətli dərəcədə azalda bilər. Çünki yeni standart əsasında istehsal olunmuş yanacaq növlərində bu tullantılar "Avro-2"-yə nisbətən min dəfə aşağıdır.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Azərbaycan dost Bolqarıstanın Cənubi Qafqaz tərəfdaşıdır



**Dünən Bakıda Azərbaycan və Bolqarıstan arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 6-cı iclası keçirilib. İclasdan əvvəl hökumətlərarası komissiyanın Azərbaycan tərəfindən həmsədri, kənd təsərrüfatı naziri Məcnun Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə komissiyanın Bolqarıstan tərəfindən həmsədri, energetika naziri Vladimir Malinovun rəhbərlik etdiyi nümayəndə heyəti arasında ikitərəfli görüş olub.**

Görüşdə Azərbaycanla Bolqarıstan arasında ikitərəfli əməkdaşlığın istiqamətləri, enerji, nəqliyyat, kənd təsərrüfatı, texnologiya transferi, ticarət dövriyyəsinin artırılması, qarşılıqlı investisiyaların təşviqi, məhsulların üçüncü ölkələrə ixracı zamanı Orta Dəhlizin yaratdığı üstünlüklərdən istifadə, qida təhlükəsizliyi, ətraf mühitin mühafizəsi, əmək və sosial müdafiə, səhiyyə, mədəniyyət, əqli mülkiyyət, turizm sahələrində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan–Bolqarıstan iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın həmsədri, kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxışında bildirib ki, iki ölkə arasında əlaqələr yüksələn xətlə inkişaf edir. Bununla belə, Azərbaycan və Bolqarıstan arasında iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanların mövcudluğunu vurğulayan nazir iki ölkənin iqtisadi potensialını nəzərə alaraq ticarət əlaqələrinin daha da şaxələndirilməsinin, idxal-ixrac əməliyyatlarının artırılmasının vacibliyinə diqqət çəkib. Qeyd olunub ki, birgə təşkil olunan biznes-forumlar, ixracyönümlü və rəqabətqabiliyyətli məhsullarımız haqqında mütəmadi məlumat mübadiləsi, o cümlədən beynəlxalq sərgilərdə qarşılıqlı fəallıq işgüzar dairələrimiz arasında əməkdaşlığı gücləndirəcək.

2020-ci ildə Azərbaycanın tarixi ədaləti bərpa etməklə 30 il işğal altında olan torpaqlarını azad etdiyini xatırladan komissiyanın həmsədri işğal zamanı Azərbaycanın bütün şəhər və kəndlərinin dağıdıldığını, tarixi, mədəni və dini obyektlərin məhv edildiyini diqqətə çəkib. Nazir əlavə edib ki, hazırda yaşıl bərpa prinsipləri və ağıllı konsepsiyalar əsasında işğaldan azad edilmiş ərazilərin bərpası, yenidən qurulması, bu ərazilərin gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması istiqamətində genişmiqyaslı tədbirlər uğurla həyata keçirilir.

Azərbaycanın Avrasiyanın etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrildiyini söyləyən nazir Məcnun Məmmədov Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin bir hissəsi olan dəniz və hava limanlarının, eləcə də dəmir və avtomobil yollarının ticarət əlaqələrini artırmaqda ölkələrimizə böyük üstünlüklər verdiyini diqqətə çatdırıb. Orta Dəhlizin Avropanı Mərkəzi Asiya və Çinlə birləşdirən etibarlı və təhlükəsiz nəqliyyat marşrutu olduğunu vurğulayan nazir yeni yaradılmış Ələt Azad İqtisadi Zonasının da bu dəhlizdə yerləşdiyini xatırladıb. M. Məmmədov qeyd edib ki, burada əsas məqsəd xarici investorları cəlb etməklə müasir sənaye müəssisələrinin yaradılması, ixracyönümlü məhsul istehsalıdır. Hökumətlərarası komissiyanın həmsədri sonda hər iki tərəfdən investorları Azərbaycan və Bolqarıstandakı iqtisadi zonaların işi ilə yaxından tanış olmağa və onların üstünlüklərindən maksimum yararlanmağa çağırıb.

İqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Bolqarıstan tərəfdən həmsədri, energetika naziri Vladimir Malinov ölkələrimiz arasında ikitərəfli əməkdaşlıqda enerji sahəsinin xüsusi yer tutduğunu diqqətə çatdırıb. Ölkəsinin qarşılıqlı maraq doğuran bütün sahələrdə – ticarət və sənaye, investisiyalar, enerji, nəqliyyat, kənd təsərrüfatı, müdafiə, turizm, mədəniyyət və bir çox başqa sahələrdə Azərbaycanla əməkdaşlıq üçün mövcud imkanlardan istifadədə maraqlı olduğunu vurğulayan nazir qeyd edib ki, iki ölkə arasında ticarət əlaqələrinin intensivləşdirilməsi, iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində işlərin aparılması vacib əhəmiyyət daşıyır.

Azərbaycanı Bolqarıstanın enerji sahəsində strateji tərəfdaşı adlandıran Vladimir Malinov Bolqarıstana və Cənub–Şərqi Avropa regionuna təbii qazın nəqli üçün mənbələrin və marşrutların şaxələndirilməsi istiqamətində Azərbaycanın göstərdiyi dəstəyə görə minnətdarlığını ifadə edib. Bolqarıstanın Cənub Qaz Dəhlizinin genişləndirilməsinin tərəfdarı olduğunu deyən energetika naziri, Azərbaycandan əlavə həcmdə təbii qazın alınması imkanlarını müzakirə etməyə hazır olduqlarını bəyan edib.

Bolqarıstanın Azərbaycandan Avropaya "yaşıl enerji" ixracı layihəsində mühüm rol oynayacağını bildirən hökumətlərarası komissiyanın həmsədri bərpaolunan enerji mənbələrinin inkişafını əməkdaşlıq üçün əhəmiyyətli potensiala malik mühüm sahə kimi dəyərləndirib. O, həmçinin xatırladıb ki, ötən həftə Bolqarıstan Nazirlər Şurası ölkənin "yaşıl enerji" layihəsi (Azərbaycan–Gürcüstan–Avropa "yaşıl enerji" dəhlizi) üzrə birgə müəssisədə iştirakını təsdiqləyib. Onun sözlərinə görə, layihədə Bolqarıstanın Enerji Holdinqi və onun törəmə şirkətləri iştirak edəcək.

Sonda Azərbaycan və Bolqarıstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 6-cı iclasının yekunlarına dair protokol imzalanıb. Sənəd iki ölkə arasında iqtisadiyyat, kənd təsərrüfatı, qida təhlükəsizliyi, energetika, nəqliyyat, informasiya kommunikasiya texnologiyaları, elmi-texniki və humanitar, sosial, səhiyyə, ətraf mühit və turizm sahələrində ikitərəfli əməkdaşlığı daha da inkişaf etdirməyi nəzərdə tutur. Yekun protokolda, həmçinin iki ölkə arasında ikitərəfli münasibətlərin hüquqi-normativ bazasının daha da təkmilləşdirilməsi niyyəti öz əksini tapıb.

Eyni zamanda, tərəflər Azərbaycan–Bolqarıstan iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 7-ci iclasının gələn il Bolqarıstanda keçirilməsi barədə razılığa gəliblər.

Qeyd edək ki, Azərbaycan və Bolqarıstan arasında diplomatik əlaqələrin əsası 1992-ci il iyun ayının 5-də qoyulub. Ötən müddətdə ölkələrimiz arasında 65 sənəd imzalanıb ki, bu da bir çox sahələrin, eləcə də iqtisadi əlaqələrin dinamik şəkildə inkişafına imkan yaradıb. Hazırda Bolqarıstanın Avropa məkanında ölkəmizin əsas ticarət tərəfdaşına çevrilməsi də bunu təsdiqləyir. Müqayisə üçün qeyd edək ki, 2007-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi vur-tut 15,9 milyon ABŞ dolları təşkil etdiyi halda, 2023-cü ildə bu göstərici dəfələrlə artaraq 510 milyon dolları ötüb. Eyni zamanda, ötən il aparılmış idxal-ixrac əməliyyatlarında ölkəmiz 453 milyon dollara yaxın müsbət saldo əldə edib. Bir maraqlı məqam da ondan ibarətdir ki, 2022-ci ildə Azərbaycanın dünya ölkələri arasında 28-ci xarici ticarət tərəfdaşı olan Bolqarıstan bir il sonra bu göstərici üzrə 18-ci olub.

2024-cü ilin birinci rübündə isə qarşılıqlı ticarət, təxminən, dörd dəfə artaraq 153 milyon ABŞ dollarına çatıb. Hesabat dövründə Azərbaycan Bolqarıstana 146 milyon dollarlıq ixrac həyata keçirib. Beləliklə, bu ölkə Azərbaycanın "TOP10" ixrac bazarı sırasına daxil olub.

Heç şübhəsiz, Azərbaycan və Bolqarıstan arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 6-cı iclası zamanı səsləndirilən fikirlər, müzakirə olunan məsələlər, eləcə də imzalanmış vacib sənədlər dost və müttəfiq ölkələr arasında bir çox sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsinə səbəb olacaq.

## Qubadlı-Eyvazlı yolunun çəkilişi tamamlanır

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) Qubadlı-Eyvazlı avtomobil yolunun inşasını yüksək keyfiyyətlə davam etdirir.**



AAYDA-nın bu barədə məlumatında bildirilir ki, 28,5 kilometrlik Qubadlı-Eyvazlı avtomobil yolu 2 zolaqlı olmaqla, III texniki dərəcəyə uyğun inşa edilir. Bununla əlaqədar çətin relyefli dağlıq ərazilərdə öncə servis yolları salınır, daha sonra xüsusi texnikaların köməyi ilə pnevmatik çəkiclərdən istifadə edilməklə qaya süxurları dağıdılaraq yol yatağının layihə səviyyəsinə gətirilir.

Digər ərazilərdə yararsız qruntun və torpaq yatağının genişləndirilməsi üçün qazma, əks dolğu, dağ yamaclarının kəsilərək və layihə səviyyəsinə gətirilərək yeni yol yatağının inşası icra olunur.

Yol yatağının profilə salınması və dolğu işləri artıq son mərhələ üzrə aparılır. Lazımi qruntdan istifadə olunmaqla lay-lay kipləşdirilən yol əsasının tikintisi artıq yekunlaşmaq üzrədir.

Yeni inşa edilən yol boyunca müxtəlif diametrlərə malik 91 dairəvi boru quraşdırılıb. Bundan başqa layihə boyunca 16 kilometr uzunluğunda drenaj sistemi də inşa edilir.

Layihə üzrə zəruri yerlərdə düzbucaqlı su keçidləri, körpü tipli müxtəlif təyinatlı düzbucaqlı alt keçidləri, yolun 2,5-ci kilometrində 122,4 metr uzunluğa malik 4 aşırımlı və 21-ci kilometrində 66 metr uzunluğa malik 2 aşırımlı avtomobil körpüləri, həmçinin 1 qovşaq da inşa olunub.

Qubadlı-Eyvazlı avtomobil yolu Qubadlı rayonun Mahmudlu, Xıdırlı, Müskanlı, Məlikəhmədli, Qudanlı, Davudlu, Eyvazlı kəndlərinin ərazisindən keçir.

## Nağdsız ödənişlər 60 faiz artıb

**Bu ilin may ayında Azərbaycanda nağdsız ödənişlərin məbləği ötən ilin eyni dövrü ilə müqayisədə 60 faiz artaraq 6 milyard 259 milyon manat təşkil edib.**



Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatına əsasən, bunun 5 milyard 245,6 milyon manatı (83,8 faiz) elektron ticarətin payına düşüb. Qalan məbləğ POS-terminallar və özünə xidmət terminalları vasitəsilə həyata keçirilib. İlin əvvəlindən ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların həcmi ölkədaxili kart əməliyyatlarının həcminin 62,2 faizini təşkil edib.

Bu il iyunun 1-nə Azərbaycanda ödəniş kartlarının sayı 17 milyon 867 min ədəd təşkil edib. Bu, aylıq müqayisədə 1,1 faiz, ilin əvvəlinə nisbətən 5,6 faiz, illik müqayisədə isə 21,2 faiz çoxdur.

## Özəlləşdirmə büdcəyə 74,4 milyon manat qazandırıb

**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (ƏMDX) bu ilin yanvar-may aylarında özəlləşdirmə və icarədən dövlət büdcəsinə 74,4 milyon manat ödəyib.**

ƏMDX-dən verilən məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 21,5 faiz çoxdur. Büdcə daxilolmalarının 59 milyon manatı dövlət əmlakının özəlləşdirilməsi, 15 milyon manatı isə icarəsi hesabına təmin edilib ki, bu da illik müqayisədə müvafiq olaraq 25,4 faiz və 8,6 faiz yüksəkdir.

Hesabat dövründə 23 özəlləşdirmə hərracı keçirilib. Hərraclarda 4 səhmdar cəmiyyətinin səhm paketi, 2 kiçik dövlət müəssisəsi, 313 nəqliyyat vasitəsi satılıb.

Bu ilin yanvar-may ayları ərzində hərraca çıxarılmış dövlət əmlakı üzrə 294 elektron sifariş qəbul edilib, hərraclarda iştirak etmək məqsədilə "Elektron hərrac" proqram təminatı vasitəsilə 36 onlayn qoşulma reallaşdırılıb.

Qeyd edək ki, ötən il özəlləşdirmə və icarədən dövlət büdcəsinə 130 milyon manatın ödənilməsi təmin edilib.

Hesabat dövründə Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 49 hərrac keçirilib. Hərraclarda 9 səhmdar cəmiyyətinin səhm paketi, 14 kiçik dövlət müəssisəsi, 3 yarımçıq tikili sahəsi, 443 nəqliyyat




vasitəsi özəlləşdirilib. Bundan başqa 10 ayda hərraca çıxarılan dövlət əmlakı üzrə 275 elektron sifariş qəbul edilib, hərraclarda iştirak məqsədilə 59 onlayn qoşulma reallaşıb.

Daşınmaz dövlət əmlakının (qeyri-yaşayış və torpaq sahələrinin) icarəsindən bu ilin 10 ayı ərzində dövlət büdcəsinə 27,2 milyon manat ödənib. İcarədən daxilolmalar isə ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 dəfə artıb.

## Sabirabad Sənaye Məhəlləsi plastik tullantıları toplayacaq

**İqtisadi Zonaların İnkişafı Agentliyindən redaksiyamıza bildirilib ki, "Azgreentech" MMC-yə Sabirabad Sənaye Məhəlləsinin rezidenti statusu verilib.**




Məlumatda şirkət tərəfindən sənaye məhəlləsinin ərazisində plastik tullantıların təkrar emalı layihəsinin həyata keçiriləcəyi və investisiya dəyəri 2,3 milyon manat olan müəssisədə 20 nəfərin daimi işlə təmin ediləcəyi bildirilir.

Bundan başqa, "Azgreentech" MMC tərəfindən respublikanın bir çox bölgələrində plastik tullantıların toplama məntəqələri qurulacaq ki, bu da həmin ərazilərdə əlavə iş yerlərinin açılmasına və əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə əhəmiyyətli töhfə verəcək. Müəssisənin istehsal edəcəyi məhsul çeşidlərinin böyük hissəsi ixrac üçün nəzərdə tutulub.

## Milanda milli enerji strategiyamıza baxış




**İtaliyanın Milan şəhərində Yaşıl Enerji Keçidi Konqresi çərçivəsində nazirlərin panel iclası keçirilib.**

Azərbaycanın Energetika naziri Pərviz Şahbazov əsas məruzəçi olaraq COP29 öncəsi ölkəmizin milli enerji strategiyasına dair çıxış edib. Nazir COP29 sədri kimi Azərbaycanın enerji keçidi siyasətindən və qlobal iqlim gündəliyinə töhfələrindən ətraflı bəhs edib.

Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyası və müasir milli enerji siyasətinin "yaşıl artımı" hədəfləyən prioritetlərinin COP məqsədləri ilə üst-üstə düşdüyü, COP29-a sədrliyin uzun illərdir qazıntı yanacağı üzrə etibarlı tərəfdaş olan ölkəmizin dünyada təhlükəsiz və ədalətli enerji keçidindəki rolunu gücləndirdiyi qeyd olunub. Bildirilib ki, Azərbaycanın 1300 meqavatlıq günəş-külək elektrik stansiyalarının təməlinin qoyulması və 100 meqavatlıq külək enerjisi layihəsinin hərracı ilə bağlı bu ilə olan planları uğurla reallaşır: "Bu gedişatla 2030-cu ilə 30 faizlik hədəfimizə daha tez nail olacağıq. 2027-ci ilədək 2 milyard dollardan çox investisiya dəyərində 2 qiqavadək günəş-külək elektrik stansiyalarının inşası bərpaolunan enerjinin quraşdırılmış gücdə payını 33 faizə yüksəldəcək",– deyə P.Şahbazov əlavə edib.

Qeyd olunub ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən "yaşıl enerji zonası" elan edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvanın sıfır emissiyaya malik ərazilər kimi inkişafı, ilkin mərhələdə 5 qiqavatdan çox yaşıl elektrik və yaşıl qazların ixracı məqsədilə "Xəzər–Qara dəniz–Avropa", "Azərbaycan–Türkiyə–Avropa", həmçinin Qazaxıstan və Özbəkistandan enerjinin ötürülməsi üçün "Azərbaycan–Mərkəzi Asiya–Avropa" yaşıl enerji dəhlizlərinin yaradılması dekarbonizasiya və iqlim məsələlərində ölkəmizi regionda ön plana çıxarır.

Nazir, həmçinin qeyd edib ki, "Yaşıl enerji zonaları və dəhlizləri" kimi örnək təşəbbüslər bu gün nəinki COP29-un Fəaliyyət Gündəliyinə istiqamət verir, həmçinin COP-un mirası olmağa daha münasibdirlər. "COP29-un əsas mövzusunun maliyyə olduğunu nəzərə aldıqda, bu tədbirin bərpaolunan enerjinin üçqat, enerji səmərəliyinin ikiqat artırılması və ədalətli enerji keçidinə nail olunmasını sürətləndirəcək platforma olacağına inanırıq. Bu aspektdə, elektrik şəbəkələrinin gücləndirilməsini, enerji saxlanma imkanlarının genişlənləndirilməsini, hidrogen istehsalının artırılmasını, müvafiq istiqamətlər, o cümlədən HVDC infrastrukturu, enerji səmərəliliyi üzrə investisiyaların bir neçə dəfə artırılmasını təmin edəcək yeni təşəbbüs və hədəflərə ehtiyac var. Bu mötəbər tədbirin sədrliyini öz üzərinə götürən Azərbaycan bütün tərəflərlə səmimi və nəticəyönümlü dialoq quraraq COP prosesini irəli aparmaq, səmərəli iqlim fəaliyyətini, enerji keçidini təmin etmək və COP29-un uğurlu nəticələrlə yekunlaşması üçün əlindən gələni edəcəkdir," –deyə nazir bildirib.

Nazir Pərviz Şahbazov müzakirələr zamanı Azərbaycan, Birləşmiş Ərəb Əmirlikləri və Braziliyadan ibarət üçlük mexanizmi, 2025-ci ildən sonrakı dövr üçün iqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyət hədəfinin razılaşdırılması, iqlim fəaliyyəti üzrə çoxtərəfli dialoqun effektiv olması üçün qarşılıqlı etimad, məsuliyyətin və maliyyə imkanlarının ədalətli bölgüsünün təmin edilməsi kimi məsələlərdən də bəhs edib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Vaşinqtonun istəyi və Bakının yaratdığı reallıq

## Cənubi Qafqazda “supergüc”ün maraqları ilə üst-üstə düşən və düşməyən məqamlar

**Azərbaycan üçün həm regional, həm də beynəlxalq layihələrə tezliklə start verilməsi prioritet sayılır. Bu zaman Bakı əsas tərəfdaşı kimi, təbii olaraq, bölgə ölkələrini görür. Cənubi Qafqazı “Qafqaz evi” kimi görən və bu evin sakinlərinin qarşılıqlı səmərəli əməkdaşlığına hesablanmış perspektiv Bakının maraqlarına tam cavab verir. Azərbaycan rəhbərliyi bu zaman tərəfdaşlardan biri kimi Ermənistanın da transmilli nəqliyyat dəhlizlərinə qoşulmasını mümkün saydığını dəfələrlə açıqlayıb. Sadəcə, bundan ötrü iki ölkə arasında otuz ildən çox uzanmış məlum münaqişəyə sülh sazişini imzalamaqla son qoyulmalı və Azərbaycanın qərb rayonlarını Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizi açılmalıdır.**




Bəs, Bakının beynəlxalq hüquqa və tarixi ədalətə söykənən şərt və təklifləri bölgədə maraqlarını güdən kənar aktorların maraqları ilə düz mütənasibdirmi? Söhbət konkret olaraq ABŞ-ın son vaxtlar Cənubi Qafqaza diqqətini xeyli artırmasından, Ağ ev rəsmilərinin Azərbaycana səfərlərinin və telefon danışıqlarının intensivləşməsindən gedir. Bu diplomatik fəallığın altında hansı taktiki və strateji məqsədlərin gizləndiyini araşdırmağa çalışaq.

***

44 günlük müharibə başa çatdıqdan dərhal sonra Prezident İlham Əliyev Zəngəzur dəhlizinin açılması təşəbbüsü ilə çıxış etdi. Bu nəqliyyat dəhlizinin ölkəmiz üçün əhəmiyyəti göz qabağında olduğundan rəsmi Bakı şəffaf şəkildə Ermənistanla sərhədə nəqliyyat kommunikasiyalarını daşımağa başladı. Fəqət bir müddət sonra Yerevan, guya, 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatdan irəli gələn şərtlərə əsaslanaraq, dəhliz üzərində özünün sərhəd və gömrük nəzarətini qurmaq iddiasını bəyan etdi. Həm Bakının, həm də Moskvanın rəsmi İrəvana belə bir yanaşmanın yanlışlığını və faydasızlığını anlatmaq cəhdləri uğursuz oldu. Görünən bu idi ki, Paşinyan hakimiyyəti Zəngəzur dəhlizi ideyasının Türk dövlətləri tərəfindən dəstəklənməsini həzm edə bilmirdi. Məntiqlə yanaşdıqda qlobal logistika üçün çətin bir dövrdə bu marşrutun böyük gəlir gətirəcəyi o qədər açıq idi ki, onun həyata keçirilməsinə qarşı çıxmaq ağılsızlıq olardı. İrəvanın mövqeyinin “sarsılmaz” olduğunu görən Bakı son nəticədə Tehranla ikitərəfli razılaşma əsasında İran ərazisindən keçməklə Naxçıvan və Türkiyə ilə “qardaşlıq yolunun” inşasına start verdi.

Son vaxtlar Vaşinqton Orta dəhlizin açılmasını bütün Cənubi Qafqaz regionu üçün mühüm strateji addım hesab edərək, bu problemə artan maraq göstərməyə başlayıb. Bir faktı da nəzərə alsaq ki, ABŞ prezident seçkiləri ərəfəsindədir, onda Ağ evin bölgəyə tez-tez üz tutmasının başlıca səbəbini görmüş olarıq. Elə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O`Brayenin Bakıya son səfərində verdiyi açıqlamalara da məhz bu kontekstdən yanaşmaq lazımdır. O dedi ki, Mərkəzi Asiya ölkələri ənənəvi olaraq Rusiya və Çin vasitəsilə beynəlxalq bazarlara ixrac edirlər. Amma indi Xəzərin o tayında bunu etmək imkanı var. Yəni, Ağ evin fikrincə, Türkiyə ilə həm Gürcüstan, həm də Ermənistan ərazisindən alternativ nəqliyyat marşrutu keçə bilər. Bu isə həm daşınma xərclərini azaltmağa, həm də geosiyasi müdaxilələrdən qorunan alternativlər təqdim etməyə imkan yaradardı. ABŞ-nin mövqeyi ondan ibarətdir ki, Orta Asiyadan tutmuş Türkiyəyə qədər bütün xalqlar imtiyazlar əldə edə bilər, amma bu, yalnız bölgədə maraqları olan bütün tərəflərin razılığı ilə mümkündür. Vaşinqton bu prosesin Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin əldə olunması ilə başlayacağına əmindir. Kənardan hər şey hamar görünür, amma praktiki baxımdan təbii sual ortaya çıxır: Son vaxtlar Vaşinqton niyə bu qədər inadkarlıq göstərməyə başlayıb?

**Mövzu ilə bağlı “XQ”-yə münasibətini açıqlayan politoloq Fərhad Məm-**



**mədovun** fikrincə, Ağ evin hazırkı administrasiyası üçün seçkiyə qədər xarici siyasətdə əldə etdiyi uğurları nümayiş etdirmək çox vacibdir: “Rəsmi Vaşinqtonun qazanmağa ümid etdiyi uğurlar Ukraynaya dəstək, Çinə qarşı sərt ritorika, İsrailə edilən yardımlar və nəhayət, Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanmasıdır. Bunlar seçkidə ABŞ-dakı mövcud iqtidarın xeyrinə işləyə biləcək amillərdir. İndi hamı anlayır ki, sülh müqaviləsinin imzalanması avtomatik olaraq, Ermənistan–Türkiyə münasibətlərinin normallaşmasına və iki ölkə arasında sərhədlərin açılmasına gətirib çıxaracaq. Bu da öz növbəsində Türkiyənin regionda daha da fəallaşması və Rusiyanın bölgədən sıxışdırılması demək olacaq. Ağ ev üçün geosiyasi baxımdan Moskvanın Cənubi Qafqazda mövqeyinin zəifləməsi xüsusi əhəmiyyət kəsb edir. Digər tərəfdən, Bakı və İrəvanın sülh sazişini imzalaması Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsindən çıxmasını sürətləndirə bilər. Aydın məsələdir ki, bu məsələ də Vaşinqtonun marağındadır. Çünki, Rusiya NATO-nu zəiflətməyə çalışır, amma ABŞ Ermənistan vasitəsilə ona zərbə endirə bilər. Yəni, Moskvanın rəhbərlik etdiyi hərbi-siyasi blokdan hansısa üzv dövlətin çıxması arzuolunmaz haldlr”.

C.O'Brayenin Mərkəzi Asiya ölkələri üçün Qafqazdan nəqliyyat dəhlizinin yaradılması barədə Bakıda səsləndirdiyi fikirlərə toxunan politoloq diqqəti Avropa İttifaqının Mərkəzi Asiyaya girişinin məhz Cənubi Qafqazdan keçməsinə yönəldir: “Burada çox ciddi geosiyasi rəqabət mövcuddur. Bütün bu daxili və xarici amilləri nəzərə alan Ağ ev hazırda Ermənistanla Azərbaycan arasında sülh sazişinin mümkün qədər tez imzalanmasına tərəfləri vadar edir”.

***

Yəqin diqqətli oxucular xatırlayırlar ki, İlham Əliyevin təşəbbüsü ilə Bakı–Tbilisi–Qars dəmir yolunun inşasına başlananda Qərb bu marşrutu maliyyələşdirməkdən qəti şəkildə imtina edirdi. Baxmayaraq ki, bu marşrutun nəinki strateji məqsədəuyğunluğu, hətta zəruriliyi o zaman da göz qabağında idi. Üstəlik, kollektiv Qərb layihəni maliyyələşdirmədən imtinasının səbəbini heç gizlətmirdi. ABŞ və Avropa İttifaqı bu marşrutun Ermənistan ərazisindən çəkilməsini istəyirdi. Təbii ki, rəsmi Bakı buna heç bir halda razı ola bilməzdi. Eyni vəziyyət ötən əsrin sonlarında Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi zamanı da yaranmışdı. O vaxt Qərbin aparıcı dövlətləri, həqiqətən də, neft kəmərinin klapanının İrəvanın nəzarətində olmasını açıq şəkildə bəyan edirdilər. Bu mənada Vaşinqtonun gözlənilmədən Orta dəhlizə marağının artması təsadüfi sayılmasa da müəyyən şübhələrə yol açır. ABŞ Dövlət Departamentinin sədr müavini O'Brayen Bakını bu problemi həll etməyə tələsdirir və bunu Azərbaycan və Ermənistan arasında sülhün sürətləndirilməsinin mümkünlüyü ilə əlaqələndirir. Səbəb? Maraqlıdır ki, Ermənistanın otuz illik işğalçılıq siyasəti ərzində dünyanın heç bir ölkəsi, o cümlədən ABŞ rəsmi Bakıya belə məqbul formada tammiqyaslı sülh təklif etməyib. Deməli, Vaşinqtonun Cənubi Qafqaza baxışlarında bəzi dəyərlər və yanaşmalar dəyişib.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** hesab edir ki, ABŞ-nin Cənubi Qafqazda sülh və əməkdaşlığa nail olmaq üçün tələsməsinin iki əsas səbəbi var: “Birinci səbəb Rusiya–Ukrayna müharibəsi ilə bağlıdır. Ağ evin diplomatları və hərbçiləri belə düşünürlər ki, nə qədər Rusiyanın başı Ukrayna ilə hərbi əməliyyatlara qarşıb, onun digər bölgələrdə fəal hərəkət etməsini gözləmək lazım deyil. Həqiqətən də Ukrayna



əməliyyatı Moskvanın bütün potensialını bu cəbhəyə yönəldib, ona görə də Cənubi Qafqaza çox da diqqət yetirə bilmir. Bu səbəbdən rəsmi Vaşinqtonda hesab edirlər ki, Ermənistan və Azərbaycan ən qısa müddətdə sülh əldə etməlidirlər ki, Rusiyanın bölgəyə təsir imkanı minimuma ensin. Əgər Rusiya–Ukrayna müharibəsi birincinin qələbəsi ilə bitsə, ondan sonrakı mərhələdə Moskva Mərkəzi Asiyada və Cənubi Qafqazda fəallaşacaq ki, bu da ABŞ-nin maraqlarına ziddir. Ona görə Vaşinqton çalışır ki, Rusiyanın başı qarışmış ikən İrəvan və Bakı arasında sülh əldə olunsun. İkinci səbəb isə odur ki, Ağ ev qorxur ki, Zəngəzur dəhlizi reallaşmasa, bu halda Orta dəhliz buradan deyil, İrandan keçər. Ermənistan məsələni uzatdığından Azərbaycanın bu barədə İranla razılaşması var. Araz dəhlizi adlanan marşrutun inşası ABŞ-nin bölgədəki maraqlarına ziddir. Çünki, Vaşinqton yaxşı anlayır ki, bu, adi dəhliz deyil, Çindən başlayan böyük bir layihənin tərkib hissəsinə çevriləcək”.

Çinin öz mallarını İran, yaxud Rusiya üzərindən Avropaya daşınmasına qarşı olan Vaşinqton üçün ən münasib variantın Mərkəzi Asiya–Cənubi Qafqaz–Türkiyə – Avropa marşrutunun olduğunu bildirən E. Şahinoğlu ABŞ -nin məhz buna görə tələsdiyini vurğulayır: “Əgər Ermənistanla Azərbaycan arasında sülh olmasa Zəngəzur dəhlizinin reallaşması da ləngiyəcək və rəsmi Tehran öz ərazisindən keçəcək dəmir yolunu sürətlə inşa edəcək və beləliklə, Orta dəhliz İrandan keçəcək. Ağ ev diplomatlarının bölgəyə artan səfərlərinin məqsədi məhz bu variantın qarşısını almaqdan ötrü sülh sazişinin imzalanmasını tezləşdirməkdir”.

Yeri gəlmişkən, bir qədər əvvəl ABŞ Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsində dinləmələrdə çıxış edən O`Brayen ölkəsinin Mərkəzi Asiyadan malların ixracının Rusiya və Çindən deyil, alternativ yollarla getməsini təmin etməyə çalışdığını bildirmişdi: “Bir marşrut Gürcüstandan Qara dənizə keçir, digəri isə potensial olaraq daha böyük marşrut Azərbaycan, Ermənistan və Türkiyədən keçəcək. Bu səbəblərə görə Azərbaycan və Ermənistan arasında sülh sazişinə ehtiyacımız var”.

***

ABŞ-nin son vaxtlar bölgəyə yönəlik yürütdüyü siyasəti prinsipcə aydındır. Deməli, Ağ evin işinə yarayanda “Azadlığa dəstək Aktı”-na 907-ci düzəlişi unudur, Azərbaycana istənilən köməyi göstərməyə, hətta, hərbi dəstəyi verməyə hazır olduğunu bəyan edir. Amma bir müddət əvvəl Bakı Vaşinqtonla bir qədər müstəqil siyasi xətt yürüdəndə, siyasi iradə nümayiş etdirəndə ABŞ bunu yenidən yada saldı.

Mövzu ilə bağlı oxucularımıza maraqlı bir detalı da xatırlatmaq yerinə düşər. Hazırda Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri, o cümlədən Ermənistanın özü mallarını bu ölkələrin ərazisi ilə deyil, əsasən, birbaşa Çinə və Rusiyaya ixrac edir. Orta dəhliz isə Çin və Avropa arasında ticarət əlaqələri üçün nəzərdə tutulub. Yaranmış vəziyyətdə Vaşinqton Azərbaycan da daxil olmaqla region ölkələrinin həm Rusiya, həm də Çinlə ticarətdən tamamilə imtina etməsini istəyir? Əgər doğrudan da belədirsə, onda ABŞ yeni bazarları harada axtarır? Bu suallar Bakının O’Brayenin gətirdiyi təkliflərə o qədər də maraq göstərməməsini şərtləndirir.

Aşkar görünən odur ki, Ermənistanla sülh, eləcə də Orta dəhliz layihəsi Azərbaycan üçün son dərəcə vacibdir. Yəni, bölgədə yalnız geosiyasi maraqlarını güdən ABŞ və digər aktorlarla müqayisədə daha çox əhəmiyyətlidir. Sadəcə, Ağ evin sülh yolunda göstərdiyi səylərini yalnız alqışlamaq olar.

İntəhası, bu zaman Azərbaycanın maraqlarını qətiyyən unutmaq olmaz. Bu maraqlar artıq Cənubi Qafqazda, o cümlədən ölkəmizdə öz mənfəətlərini güdən bir sıra böyük dövlətlər tərəfindən nəzərə alınır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Çalxalandıqca, bulandıqca Fransa nehrə kimi

## Makronun “qatığı ayranlıq olur”

**“Avropa mədəniyyətinin mərkəzi” adlandırılan (biz bunu heç zaman inkar etməmişik və indi də danmaq fikrimiz yoxdur) Fransa cəmiyyəti son illərdə, sözün həqiqi mənasında, böhranlar məngənəsində sıxılır. Dövlət xalqı idarə edə bilmir, xalq dövlətə inanmır. Xarici siyasət hər gün yeni səhvlərlə “zənginləşir”. İqtisadiyyat ildən-ilə daha sürətlə geriləyir. Bir tərəfdən də ölkədə yaranmaqda olan ikihakimiyyətlilik və ya prezidentin xalq tətəfindən qovulmasını hədəfləyən siyasi çıxışlar Emmanuel Makronun məsuliyyətsizliklər qalereyasının gözlənilən nəticələridir.**



Məhz həmin nəticələrə görə Fransada “Milli Birlik” Partiyası ölkədə keçirilən parlament seçkilərinin birinci turunda səslərin 33,4 faizini toplayaraq qalib gəlib. “Le Parisien” qəzeti yazır ki, solçu “Yeni Xalq Cəbhəsi” isə 27,98 faiz səslə ikinci pillədə yer alıb. Yəni makronizmin sonunu gətirəcək ilk addımlar atılıb. Emmanuel Makronun koalisiyası isə 20,76 faiz səslə üçüncü olub. Xub!

Daha pis olanı odur ki, seçkilərin ilkin nəticələri açıqlandıqdan sonra – iyulun 7-də baş tutacaq yekun nəticələri gözləməyən yerli insanlar Parisdəki Respublika meydanında aksiya keçirib və kafe, restoran, eləcə də digər obyektlərə hücum ediblər. Polis “black block” hərəkatının üzvlərindən ibarət aksiyanı dağıtmaq üçün gözyaşardıcı qazdan istifadə edib. Aksiyada ümumilikdə 8 minə yaxın şəxs iştirak edib. Bu boyda problemi olan Makron isə hələ də “ermənilərin gününə ağlamaqla” məşğuldur. Görəsən, onun gününə kim ağlayacaq?

Nə istəyirlər, etsinlər. Özləri bilərlər. Biz heç bir ölkənin daxili işlərinə qarışmırıq. Hərgah hansısa ölkə uzaq sahillərdəki köməksiz və zəif dövlətləri müstəmləkə əsarətində saxlamaq istəmirsə. Xatırladım ki, Azərbaycanın xarici siyasətinin təməl prinsiplərini hamı ilə qarşılıqlı inam və etimada əsaslanan səmimi əməkdaşlıq və səmərəli tərəfdaşlıq münasibətləri təşkil edir. Ulu öndər Heydər Əliyev hələ 2001-ci ilin yanvarında Brüsseldə demişdi ki, Avropa Azərbaycana nə qədər lazımdırsa, Azərbaycan da Avropaya bir o qədər lazımdır.

Yəni heç kəs bizə yuxarıdan aşağı baxmasın. Kimdəsə elə bir fikir yaranarsa, onda Prezident İlham Əliyevin məlum mesajını eşitsin: “Bizim Türk dünyasından başqa ailəmiz yoxdur!” Dövlət başçımız bu ifadəni hansısa məsuliyyətsiz avropalının “Azərbaycan Avropa ailəsinə qarışmağa hazır deyil”– kimi cəfəng arqumentinə cavab olaraq işlətmişdi. Guya, biz işğalçı, qaniçən, soyqırımları törətmiş Ermənistana “Gözün üstdə qaşın var!” – deməməliydik. Əgər ermənilərin bütün vəhşiliklərinə cavabsız qalsaydıq, onda Avropa ailəsinin layiqli üzvü olacaqdıq. Belə olanda bizdə deyirlər: “Ay, sən öləsən...”

Qayıdaq yazının sərlövhəsinə. Bir fransız jurnalist yazır ki, mənim ölkəm və xalqım əvvəlki iki dünya müharibəsinin heç birinin ərəfəsində bu qədər hörmətsiz və nüfuzsuz olmamışdı. Rusiya mətbuatının fikrincə, Avropanın bugünkü problemlərinin önündə bəzi dövlətlərin imperialist siyasəti və Emmanuel Makronun siyasətdənkənar cəfəngiyatları dayanır. Türkiyəli həmkarımız yazır ki, rəsmi Parisin Qafqaza əl uzatması Rusiya, Türkiyə, İran, Azərbaycan və türkdilli ölkələrdə ciddi narahatlıq yaradır və bu addımlar Makrona baha başa gələ bilər. Erməni siyasi ekspertin fikrincə, İrəvan Kiyevə, Ermənistan Ukraynaya bənzəməsə də, bizim taleyimizi Ukraynanın taleyinə oxşatmağa çalışanlar dəhşətli dərəcədə fəallaşıblar. Şəkili Ələsgərin fikrincə isə, region dövlətləri birləşərək qətiyyətli addım atmalıdırlar ki, Afrikada “xəstəlik tapıb” Qafqazda “qaşınan” Fransanın biti-sirkəsi buralara tökülməsin.

Yeri gəlmişkən, Fransanın indiki siyasətçiləri kimi, bu ölkənin əvvəlki prezidentləri də Emmanuel Makronun siyasətindən çox narazıdırlar. Bu məzmunlu materiallarla tanış olanda inanırsan ki, söhbət kiminsə Makrona müxalifətçiliyindən yox, fransız xalqının taleyinə acımasından, Fransa dövlətinin təəssübünü çəkməsindən gedir. Məsələn, 2012-2017-ci illərdə bu ölkənin prezidenti olmuş Fransua Olland “Frans Press” agentliyinə müsahibəsində deyib: “Fikrimcə, keçmiş baş nazir Eduard Filipp vəziyyəti ən yaxşı şəkildə dəyərləndirib. Yəni makronizmin sonu çatıb, əgər həqiqətən o mövcud olubsa. Amma artıq, o bitdi”.

Fransua Ollandın fikrincə, onun ölkəsi yenidənqurma mərhələsinə başlamalıdır. Eks-prezidentin sözlərinə görə, makronizm Fransaya siyasi baxımdan baha başa gəlib, partiyalara və ictimai rəyə ziyan vurub. Qeyd edək ki, Makron partiyasının AP seçkilərini uduzduqdan sonra Milli Assambleyanı buraxıb. Ölkədə növbədənkənar parlament seçkilərinin birinci turu keçirilib, ikinci turu isə yuxarıda qeyd etdiyimiz kimi, iyulun 7-də keçiriləcək.

Elə Makronun əsas rəqiblərindən olan “Milli Birlik” Partiyasının parlament fraksiyasının sədri Marin Le Pen də yaranmış siyasi böhranı aradan qaldırmaq üçün bütün bunlara bais olmuş indiki prezidentin istefa verməli olacağını söyləmişdi: “Mən Makronu istefaya çağırmıram – güc institutlarımıza hörmət edirəm. Amma siyasi blokada və ya böhran baş verəndə üç variant var: kadr dəyişikliyi, ləğv və ya istefa. Belə bir şəraitdə kadr dəyişiklikləri mənim üçün faydalı görünmür. Ona görə də prezidentin qarşısında qalan yeganə seçim siyasi böhrandan çıxmaq imkanı əldə etmək üçün istefa verməkdir”.

Sonda xatırladaq ki, Rusiya Federasiyasında fəaliyyət göstərən “Regnum.ru” xəbər portalının “Politico” bölməsinin siyasi icmalçısı Aleksandr Buşevin iyulun birində yazdığı “Parlament seçkilərinin nəticəsi Makron üçün şəxsi alçaldılma məqamı oldu” adlı məqaləsində göstərilir ki, bu nəticələr Fransa Prezidenti üçün dəhşətli dərəcədə ağrılı nəticələrlə yadda qaldı.

Nəşr yazır ki, ötən bazar gününün böyük səs-küylü siyasi hadisəsi olan məlum seçkilər 46 yaşlı prezidentin yeddi il qabaqkı nüfuzunun sürətlə itib getməsinin göstəricisidir: “Makron artıq bitdi”. Buşevin fikrincə, Avropanın ən böyük ikinci iqtisadiyyatına və nüvə silahına sahib olan Fransa sağçıların hökumət formalaşdırmasına heç zaman olmadığı qədər yaxındır. Marin Le Penin seçkilərin birinci turunda qazandığı möhtəşəm qələbə Makron iqtidarı üçün sarsıdıcı zərbə oldu.

Yəni elin gözü tərəzidir. Biz Emmanel Makronun dövlət başçısına yaraşmayan hərəkətlərini və addımlarını tənqid edəndə bəziləri deyirdilər ki, fransız xalqı böyük və mədəni xalqdır, Makronun fəaliyyətinə o xalq münasibət bildirməlidir.

Buyurun, bu da sizə böyük və mədəni xalqın münasibəti. Az qala, ölkə əhalisinin yarıdan çoxu deyir ki, Makron erası bitdi: “Davay, do svidaniya!”

***İttifaq MİRZƏBƏYLİ***

# Biz dirçəltməyə, qurmağa, yaşatmağa qayıtmışıq

## Vətəndaş cəmiyyəti qurumları Şərqi Zəngəzurda...

**Biz bundan sonra da Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması ilə bağlı addımlar atacağıq. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir.**

***(Prezident İlham ƏLİYEVİN 14 fevral 2024-cü il tarixli andiçmə mərasimindən)***





24 iyun 2024-cü il. Gecə saat 04:00-da Bakıda Su İdman Sarayının qarşısında 200-ə yaxın vətəndaş cəmiyyəti və media nümayəndələri toplaşıb. Az sonra maşın karvanımız Şərqi Zəngəzura doğru yol alır. Təxminən 4 saat sonra Füzuli rayonunun Horadiz qəsəbəsini keçib yenicə salınmış asfalt yolla bizi Xan Arazın sahili boyunca Cəbrayıl və daha sonra Zəngilana aparan avtobuslar sürətlə irəliyir.

O taylı– bu taylı Vətən torpaqlarıdır. Çayın bir tərəfi Qaradağ mahalı, digər tərəfi isə Qarabağ mahalıdır! Hər iki tərəf bizim üçün çox doğmadır. Uzaqdan Xudafərin dəryaçası görünür. “Lil ilə axan” Arazın suları baxdıqca fikrimi çəkib aparır, xatirələr çözələnir, ötən günlər yada düşür, fikrən sanki zamanda səyahət edirəm. O ağır illəri, 90-ların əvvəlləri göz önünə gəlir: 1993-cü il 23 avqust Füzulinin və Cəbrayılın işğalı, məcburi köçkünlərin faciəvi durumu, insan hıçqırtıları, ana-bacılarımızın, ağbirçək nənələrimizin ah-naləsi, hayqırtıları... Fəryadlar yeri-göyü titrədir. Yağı düşmənin zülmü ərşə dirənib. Xilas yolu axtara-axtara özünü çaya vuran, lal axan Arazda batan, boğulan insanlarımızın, itkin düşən soydaşlarımızın xatirəsi yaddaş axarında yenidən təzələnir...

Həmin vaxtlar Füzuli və Cəbrayılın işğalından sonra Zəngilanın nicat yolu qalmamışdı. Zəngilanlıların yeganə yolu Arazı o taya keçmək, qonşu İrana pənah aparmaq idi. Yurd-yuvasından qovulan, ev-eşiyindən didərgin düşən on minlərlə dinc sakin özünü Arazın soyuq suları qoynuna atıb canını qurtarmağa çalışırdı. Suda boğulanların, itkin düşənlərin sayı-hesabı yox idi. Bu faciələrin davamı isə 1993-cü il oktyabr 30-da Zəngilanın işğalı oldu.

Bu gün də biz, o qanlı-qadalı günlərə şahidlik edən, uzun illər işğal altında qaldıqdan sonra azad olmuş Böyük Turanı bir-biri ilə qovuşduracaq Şərqi Zəngəzur yolundayıq. O yol ki, Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli Ordumuzun şanlı Qələbəsini simvolizə edir. O yol ki, Azərbaycanın, türkün gücünü özündə birləşdirir. Bəli biz, o möhtəşəm Qələbədən sonra salınan yeni yollarla Zəngilana yaxınlaşırıq. Vaxtilə gözümdə canlanan, qulağımda eşidilən o faciələrin, köçün qorxulu həyəcanı indi məğrur və bir o qədər də xoşbəxt bir hiss ilə əvəz olunurdu.

*

Dağıdılmış, viran qoyulmuş ərazilərdən, xarabazarlıqlardan keçəndə quruculuq işlərini davam etdirən Azərbaycanın varlığı və insan əməyi duyulurdu. Taleyi həm Zəngəzura, həm də Qarabağa bağlı olan birisi kimi, Zəngəzura doğru getdikcə bütün vücudumla hiss edirdim ki, bu mahalda uyuyan dədə-babalarımızın istisnasız olaraq hamısının ruhları şaddır. Həqiqətən də bütün bu hissləri sözlə ifadə etmək çox çətindir.

Şərqi Zəngəzura səfərimizdə məqsəd həm Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və Azərbaycan Milli QHT Forumunun təşkilatçılığı ilə Zəngilanda düzənlənən QHT-lərin Əməkdaşlıq Forumunda iştirak etmək və həm də regiondakı mövcud vəziyyətlə tanış olmaq idi. Maşınlarımız işğaldan azad edildikdən sonra Qarabağda ilk salınan “ağıllı kənd” Ağalıdan keçib Zəngilanda, dörd bir tərəfi də vəhşi düşmənin yaratdığı xarabazarlıq olan Konqres Mərkəzinin önündə dayandı.

Foruma qədərki görüşlər, danışıqlar, müzakirələr qeyri-adi həmrəylik ruhu, fərqli bir ab-hava yaratmışdı. Kiçik çay fasiləsindən sonra forum öz işinə başladı. "Azərbaycan QHT-ləri: nəticələr və hədəflər", "Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadları" və "COP29 və Yaşıl Dünya Naminə Həmrəylik Hərəkatı" mövzularında 3 əsas panel üzərindən keçirilən forumun proqramında Azərbaycan QHT-lərinin beynəlxalq əməkdaşlıq imkanlarının müzakirəsinə də xüsusi yer ayrılmışdı.

Tədbirin açılışında çıxış edən QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva və Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin sektor müdiri Tural Əliyev son illər Azərbaycan vətəndaş cəmiyyətində baş verən mühüm dəyişiklikləri və onlara göstərilən diqqət və etimadı vurğuladılar. Prezident İlham Əliyevin rəhbərliyi ilə QHT sektorunda dərinləşdirilən islahatların, yaradılan sağlam mühitin məntiqi nəticəsi olaraq vətəndaş cəmiyyəti təşkilatlarının ölkənin ictimai həyatında mühüm rol oynaması və xüsusi yerə sahib olduğu da ayrıca qeyd edildi. Milli QHT Forumunun yeni seçilmiş rəhbəri Ramil İsgəndərlinin çıxışı da özünəməxsusluğu ilə yadda qaldı.

Forumun panel moderatorları və çıxışçıları da öz nitqləri ilə tədbirə ayrı bir dəyər qatdılar. Ölkənin tanınmış QHT nümayəndələri xalqımızın qürurunu özünə qaytaran Böyük Qələbə sevinci ilə bir sıra mühüm məsələlərə dair fikir mübadiləsi apardılar. Onlar ümumi həmrəylik mühitində demokratik düzənin ən vacib seqmentlərindən olan Vətəndaş Cəmiyyətinin gələcək inkişafından, görüləcək işlərdən, planlardan danışdılar. Bu müzakirələr yeni metodların tətbiqi və beynəlxalq təcrübəyə əsaslanması ilə nəzərə çarpırdı. Yüksək səviyyədə keçən forum dövlət və QHT-lər arasında qarşılıqlı anlaşmanın, faydalı əməkdaşlığın və sarsılmaz həmrəyliyin mövcud olduğunu, bu faktorun ölkəmizin gələcək inkişafına böyük qatqılar verəcəyini əyani nümayiş etdirirdi. İki gün davam edən tədbirdə Sahib Məmmədovun, Rauf Zeyninin, Ayaz Mirzəyevin, Azər Allahverənovun, Zaur İbrahimlinin, Sabit Bağırovun, Amin Məmmədovun vətəndaş cəmiyyətlərinin dünəni, bugünü və sabahı mövzularındakı konseptual çıxışları xüsusilə qeyd olunmalıdır. Forumda vətəndaş cəmiyyəti institutlarının peşəkarlığı, ölkəmizin həyatındakı rolu açıq-aydın hiss olunurdu.

QHT-lərin Zəngilanda keçirilən tarixi əməkdaşlıq forumunun açılış mərasimində mən də çıxışçılar arasında idim. Bir vətəndaş cəmiyyəti təmsilçisi olaraq deməyə sözümüz, ortada isə gördüyümüz çox böyük işlər vardı. Öz çıxışıma da yol boyu keçirdiyim hissləri ifadə edərək başladım. Bu gün regionun lider dövlətinə çevrilən müstəqil Azərbaycanımızın son illər əldə etdiyi möhtəşəm qələbələrdə vətəndaş cəmiyyəti qurumları kimi xüsusi payımızın olduğu üçün qürurlu idim.

Tale elə gətirib ki, mənim də bütün həyatım əvvəldən indiyədək Qarabağda işğalçı rejimlə, quldur separatçılarla mücadilədə keçib. Qurucusu olduğum Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) Qarabağın 30 illik işğalı dövründə Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün ən müxtəlif beynəlxalq platformalarda, nüfuzlu auditoriyalarda qaçqınların, məcburi köçkünlərin və işğal qurbanlarının hayqıran səsinə çevrilmişdi. BAMF-ın əsas missiyası, vizyonu sülh və konflikt bölgələrindən obyektiv informasiyaların yayılması olduğu üçün biz ilk gündən xarici jurnalistlərin, diplomatların, beynəlxalq təşkilatların nümayəndələrininm Qarabağa səfərlərini təşkil etdik. Buradan doğru-dürüst məlumatların yayımlanmasına çalışdıq. Aparıcı media qurumlarını, təmsil olunduğumuz BMT rəsmilərini, öz tərəfdaşlarımızı bu problemə və Azərbaycan reallıqlarına doğru çəkdik. Təkcə birinci Qarabağ müharibəsi dövründə yüzdən çox xarici jurnalistin ölkəmizə, qaynar nöqtələrə səfərlərini təşkil etdik. Müharibədən zərər çəkən regionlarda sosial-iqtisadi layihələrin əsas təşəbbüskarı və icraçısı olduq.

İnformasiya cəbhəsində çalışmaqla yanaşı, Azərbaycanda Mina Təhlükəsi ilə Mübarizə Proqramına qoşulduq. Bu gün BAMF BMT agentlikləri və digər beynəlxalq təşkilatlarla yanaşı, ölkəmizdə ANAMA-nın əsas partnyorlarından biridir. BAMF-ın yaratmış olduğu İcma Mina Aksiyası Komandası son 20 ildə 12 min hektardan çox ərazini minalardan təmizləyib istifadəçiyə təhvil vermişdir.

Biz harada olduqsa insanların ümid yeri, onların həyatlarının bir parçası olduq. Bizə qarşı olan güclərə, düşmən qüvvələrə qarşı yumşaq gücümüzü göstərdik, birlik olmağı bacardıq. Bəli, sülh missiyamızdan, öz əqidəmizdən və beynəlxalq hüquqi normalarına olan sədaqətimizdən əl çəkmədik. Dünyada hökm sürən ikili standartların gətirdiyi haqsızlıqlara, ədalətsizliklərə baxmayaraq, öz yolumuzdan dönmədik.

Mən də İkinci Qarabağ müharbəsi zamanı 27 sentyabr 2020-ci il tarixdən 27 noyabr 2020-ci ilə qədər iki ay fasiləsiz olaraq Əl-Cəzirə TV-nin əməkdaşları ilə ön cəbhədə oldum. Bir QHT təmsilçisi kimi İkinci Qarabağ müharibəsi zamanı ölkədə hökm sürən və şanlı Qələbəmizin əsasını təşkil edən ümumxalq birliyinin mühüm parçalarından olduq. Müharibədən sonrakı dövrdə də bütün sahələrdə – təhsil, iqtisadiyyat, sosial, tibb, sülh quruculuğu, ətraf mühit və s. istiqamətlərdə fəaliyyətimizi daha da artırdıq.

Mən fəxr edirəm ki, 2021-ci il oktyabrın 17-də doğma Füzulimizin azad olunduğu gündə ölkə başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə keçirilən təməlqoyma mərasimində iştirak etmişəm. Prezidentlə birlikdə o təməldə pay sahibi olmaq vaxtilə doğma yurdunu acılar içində tərk edən, 30 illik nisgili özündə yaşadan bir azərbaycanlı, qarabağlı üçün o ağrılara çəkilən məlhəm idi. Çünki biz qayıtmışdıq. Biz dirçəltməyə, qurmağa, yaşamağa qayıtmışdıq.

2023-cü il təməlqoymadan 2 il sonra elə həmin tarixdə, “Füzuli Şəhəri Günü”ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə ölkə Prezidentinin görüşü baş tutdu. Artıq yeni məskunlaşan sakinlərə açarlar təqdim olundu. Hər iki görüşün, mərasimin bir parçası olduğum üçün çox qürurluyam. Eyni zamanda, bir o qədər də məsuliyyəti öz üzərimdə hiss edirəm. Axı bir vətəndaş cəmiyyəti qurumu olaraq bu proseslərdə iştirak etmək və öz töhfəmizi vermək həm də bizim vətəndaşlıq borcumuzdur...

Mən öz çıxışımda təkcə özümüzdən, nailiyyətlərimizdən danışmadım. Bütövlükdə vətəndaş cəmiyyətinin uğurlarından söhbət açdım. Ölkəmizin yeraltı sərvətlərinin qorunmasına xidmət edən eko-aksiya, mina xəritələrinin təqdim olunması üçün başladılan petisiya, Azərbaycana tətbiq olunan qərəzli sanksiyalara qarşı birgə bəyanatlar, Metsamor atom elektrik stansiyasının fəaliyyətinə yönəlik etiraz çıxışları və s. çoxsaylı fəaliyyətlərimiz buna misaldır. Xüsusilə, 44 günlük Vətən müharibəsindən sonra seperatçıların qanunsuz silahlanmasına qarşı başladılan etiraz aksiyası, verilən bəyanatlar, hazırlanan hesabatlar ayrıca qeyd olunmalıdır.

2024-cü ilin fevral ayında bizim də yaxından iştirak etdiyimiz növbədənkənar Prezident seçkilərində vətəndaş cəmiyyəti təşkilatları üzərlərinə düşən müşahidəçilik missiyasını ləyaqətlə yerinə yetirdilər. Ölkədə fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarını və ictimai birlikləri təmsil edən 6 045 nəfər seçkilər günü prosesdə müşahidəçi qismində yer aldı.

Bu il də vətəndaş cəmiyyəti nümayəndələrinin qarşısında fövqəladə faydalı bir missiya dayanır: COP29 kimi mühüm beynəlxalq tədbirə evsahibliyi edən Azərbaycanımıza dəstək olmaq! Əminliklə deyə bilərik ki, Azərbaycan vətəndaş cəmiyyəti institutları bu sınaqdan da alnıaçıq, üzüağ çıxacaqlar.

Çıxışım zamanı bu fikirləri səsləndirdikcə, həqiqətən də, qəlbimdə bir əminlik, bir fəxarət hissi artır, ürəyim dağ boyda olurdu. Sanki Zəngilandan yayılan səsimiz bütün Zəngəzurda eşidilir, tarixi torpaqlarımızda əks-səda verirdi...

Yekunda Azərbaycan QHT-ləri Əməkdaşlıq Forumunun iştirakçıları adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul olundu. Biz müraciətdə xüsusi olaraq vurğuladıq ki, bu gün işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda gedən hərtərəfli quruculuq işləri bölgəni sanki əsrarəngiz bir cənnət məkanına çevirir, bu dağıdılmış ərazilər yaşıl enerji zonaları kimi çox mühüm ekoloji məkan olaraq yenidən dirçəlir.

Bu dirçəliş əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş uğurlu daxili və xarici siyasət strategiyasının çağdaş dönəmdə müvəffəqiyyətlə reallaşdırılmasının bariz göstərici kimi təqdirəlayiqdir. Biz möhtərəm Prezidentə müraciətdə onu da qeyd etdik ki, QHT nümayəndələri Qarabağ və Şərqi Zəngəzurda heyrətamiz quruculuq və bərpa işlərinin şahidi oldu. Ermənistanın işğalı dövründə Azərbaycan torpaqları 1,5 milyondan çox mina və partlamamış hərbi sursat ilə çirkləndirilsə də, indi ərazilərimizin minadan təmizlənməsi, ətraf mühitin qorunması üçün çox böyük işlər aparılır. Qəti əminliklə deyə bilərik ki, cənab Prezident, gün gələcək Siz bütün dünyaya Qarabağ və Şərqi Zəngəzurun minadan tam azad gülüstana çevrildiyini bəyan edəcəksiniz!

Müraciətin Zəngilanda, işğaldan azad olunmuş ərazidə qəbul edilməsi xüsusilə əlamətdar idi. Çünki bu bölgələrdə aparılan yenidənqurma işləri və yaşıl enerji layihələri Azərbaycanın ekoloji və iqtisadi inkişafının təməl göstəricilərindəndir. Ermənistanın işğalı dövründə ciddi ekoloji problemlərlə üzləşən digər ərazilər kimi, Zəngilan da indi yaşıl enerji zonası elan olunub. Bu isə bir daha Azərbaycanın qlobal iqlim dəyişikliklərinə qarşı mübarizəyə olan yanaşmasının göstəricisidir.

Yeri gəlmişkən, Zəngilan səfəri boyunca cənab Prezidentin bu il fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində səsləndirdiyi fikirlər düşüncəmdə dolaşırdı. Prezidentin öz çıxışında qələbədən sonra Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı və həmrəyliyinin gücləndirilməsi üçün addımların atılacağına vurğu etməsi artıq yeni bir mərhələnin başlanğıcına çağırış idi. Məhz bu sahədə inkişafa xidmət edən forum sübut edirdi ki, Prezidentin sözü ilə əməli birdir və o, cəmiyyətimizin inkişafı üçün bütün lazımi addımları atır, şəxsi dəstəyini əsirgəmir.

*

Şübhəsiz ki, tarixin ən çətin və keşməkeşli günlərində Azərbaycanın yeganə xilaskarı olan görkəmli dövlət xadimi, dahi Heydər Əliyev həm də müstəqil Azərbaycanda demokratik təsisatların, o cümlədən, vətəndaş cəmiyyətinin qurucusu kimi əvəzsiz xidmətlər göstərmişdir. Xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu öndər dövlət idarəçiliyinin sükanı arxasına keçdiyi ilk günlərdən etibarən müstəqilliyimizin möhkəmləndirilməsinə, hakimiyyət strukturlarının bərpasına, ordu quruculuğuna, demokratiya prinsiplərinin bərqərar olmasına yetirdiyi diqqət qədər, həm də vətəndaşların rifahına, cəmiyyətin inkişafı üçün zəruri hüquqi bazanın formalaşdırılmasına böyük önəm verirdi. Onun təşəbbüsü və müəllifliyi ilə 1995-ci ildə qəbul edilən Yeni Konstitusiya, eləcə də insanların hüquq və azadlıqlarının təminatına yönəlik bir çox qanunvericilik aktlarının qəbulu Heydər Əliyevin tarixi xidmətlərindəndir. Məhz zəruri hüquqi bazanın yaradılması bu gün vətəndaş cəmiyyəti təşkilatlarının sərbəst fəaliyyət göstərməsinə və onların mənafeyinin qorunmasına əsaslı təminat kimi mövcuddur. Bu isə ölkədə milli birliyin, ümumxalq həmrəyliyinin yaranmasına vəsilədir.

*

Zəngilan Forumu çərçivəsində 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə Qubadlı rayonunda yerləşən N saylı hərbi hissəyə səfərimiz oldu. Biz böyük məmnuniyyət və mehribanlıqla qalib əsgərlərimizlə görüşdük. Hazırda Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə günü-gündən inkişaf edən qüdrətli bir gücə çevrilib. Bunu İkinci Qarabağ müharibəsində 44 gün ərzində qazanılan Qələbədə və ötən il 24 saatdan da az bir vaxtda gerçəkləşən antiterror əməliyyatlarında əyani gördük. Qubadlı görüşündə müzəffər odumuzun əsgər və zabitlərini səmimi-qəlbdən bayram münasibətilə təbrik etdik, onlarla öyündüyümüzü bildirdik. Xalq və ordu həmrəyliyi sübut edir ki, artıq Azərbaycan regionda söz sahibi olan güclü, qüdrətli bir dövlətə çevrilib.

*

Zəngilanı tərk etməzdən öncə məscidi ziyarət etdik. Məscidin ətrafındakı vandalcasına dağıdılmış evlər diqqətimi çəkdi. Axı, o evlərdə körpələr dünyaya gəlmiş, uşaqlar doğulmuş, böyümüş, o həyətlərdə oynamış, şənlənmiş, dinc həyat sürmüş, oğul-qız toyları baş tutmuş, nə qədər xoşbəxt anlar yaşanmışdı. Bu xoşbəxt həyatın axarını erməni vəhşiliyi yarıda qoymuşdu, talelər məhv olmuş, faciələr törənmişdi... Evləri, yolları, bütün tarixi-mədəni abidələri dağıdan düşmən, o cümlədən, məscidləri də xüsusi amansızlıqla yerlə-yeksan etmişdi. Bu zaman Prezident İlham Əliyevin 2020-ci ilin dekabrın 23-də Zəngilandakı təsirli çıxışı yadıma düşür. “Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib. 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etdik, dəfələrlə bildirdik ki, bizim məscidlərimiz, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, amma bura bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Müharibə qurtaran kimi isə onlar başlayıblar ki, gərək erməni xalqının abidələri qorunsun...” O bəyan etdi: “Biz bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün, bura məscid olub, UNESCO, buraya gəl, gəl gör! Avropa Şurası, səssiz qalma, gəl gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan Ermənistan olub. Özündən mədəni millət obrazı yaratmağa çalışan və bəzi xarici himayədarları tərəfindən belə qəbul edilən mədəni adam bunu edər? Mədəni adam məsciddə donuz saxlayar? Bütün dünya bunu görsün! O cümlədən dünya müsəlmanları görsünlər və müsəlman ölkələrinin xalqları görsünlər...”

Zəngilan məscidinin önündə xatırladığım bu çıxış Azərbaycan Prezidentinin vətənpərvərliyini, xalqa sevgisini, mədəni irsə qayğısını və yüksək intellektual səviyyəsini dünyaya nümayiş etdirirdi. Həmçinin Azərbaycan xalqının nə qədər alicənab, humanist və mədəni xalq olduğunu göstərirdi.

Mən bütün bunları düşünür və Ulu öndərin ifadə etdiyi kimi, azərbaycanlı olmağımla fəxr edirdim...

*

İnanıram ki, dirçələn Qarabağımızın yenilməz gələcəyi var və bu gələcəyin əsas motivlərindən biri də xalqın həməryliyi, Vətən və dövlət sevgisidir. O parlaq gələcək təkcə Zəngilanın, Laçının dirçəlişi ilə bağlı deyil, Cəbrayılın, Füzulinin, Ağdamın, Şuşanın, Kəlbəcərin və ümumən, Azərbaycanın bütün bölgələrinin sürətli inkişafı ilə sıx bağlıdır. Bu yolda vətəndaş cəmiyyətinin mühüm elementi kimi QHT-lər də bütöv Azərbaycan naminə fəal və iradəli addımlar atmaqdadırlar. Əlbəttə, ölkəmizdə bəzi məsələləri var ki, ötən dövr üçün qəbul olunsa da, yeni reallıqlarla tam uzlaşmır. Bugünün reallığında, yeniləşən dünya düzənində yeni Azərbaycan boy göstərir. Bu fərqli Azərbaycan indi qurulmaqdadır. Bu quruculuq prosesində hər bir vətəndaşın öz payı, faydalı qatqısı olmalıdır.

Lakin onu da unutmayaq ki, regionun parlayan ulduzu Azərbaycanın inkişafını gözü götürməyənlər də az deyil. Azərbaycana qısqanclıqla yanaşan, uğurlarımızı həzm edə bilməyən qüvvələr bu gün dişini qıcayıb. Ona görə də ölkə daxilində ümumxalq həmrəyliyi daha möhkəm olmalıdır və bu məqamda da yenə vətəndaş qurumları önə çıxmalıdırlar. Bir tərəfdə güclü ordumuz olduğu kimi, digər tərəfdə də ölkəmizin demokratik təsisatları, güclü vətəndaş cəmiyyəti institutları düşmənlərimiz üçün gözdağına çevrilməlidir! Vətəndaş cəmiyyəti qurumları ölkənin görən gözü, danışan dilidir. Hər bir vətəndaş öz həyatında, gündəlik əməlində bunu hiss etməli və göstərməlidir.

Bu gün Qarabağa qayıdış prosesi gedir. İnsanlarımızın Qarabağa köçü davam edir. Amma bu geri dönüş özü ilə bərabər müəyyən qayğılar də meydana gətirir: insanların yerli şəraitə, yeni mühitə uyğunlaşması, psixoloji faktorlar, onlarla mütəmadi ünsiyyət, maarifləndirmə, işsizlik, sosial problemlər həllini tapmalıdır. Bu məsələlərdə əsas yük həm də QHT-lərin üzərinə düşür. Yeniləşmiş QHT Agentliyinin apardığı yeni kurs, müasir dəsti-xətt təqdirəlayiqdir. Atılan addımlar hədəfimizin doğru olduğunu göstərir. Hədəf doğrudursa, deməli, agentliyin gücü, potensialı da get-gedə artacaq, ona olan inam, etimad çoxalacaq.

Heç şübhəsiz ki, Azərbaycan QHT-ləri donor asılılığından qurtulmalı, cəmiyyətin dayanıqlı təsisatlarına çevrilməlidir. Ancaq bu, heç də xarici donorlardan imtina anlamına gəlməməlidir. Dünyada elə maliyyə qaynaqları mövcuddur ki, onların böyük əksəriyyətində Azərbaycanın da payı var. Respublikamız bütün beynəlxalq çağırışlarda öz vəsaiti ilə iştirak edir. BMT başda olmaqla əksər beynəlxalq qurumlarda ölkəmizin də üzvlük haqqı var. O vəsaitlərdən formalaşan donor qaynaqlarından imtina edilməməli, əksinə, onlardan faydalı şəkildə istifadə olunması üçün şərait yaradılmalıdır.

Eyni zamanda, QHT-lərin fəaliyyəti ilə bağlı qanunvericilkdə nəzərə çarpan boşluqlar aradan qaldırımalıdır. Bu boşluqlar, əslində, vətəndaş cəmiyyəti meyarına münasibətlərin fərqli olmasından irəli gəlir. Düşünürəm ki, Milli Məclisin yeni tərkibi bu problemin də optimal həll variantını tapacaq və qanunvericiliyimizin daha da təkmilləşməsi istiqamətində zəruri addımlar atılacaqdır.

Bu il Azərbaycan mötəbər bir konfransa, COP29-a ev sahibliyi edəcəkdir. Burada da QHT-lərin gücü, rolu önəmli və vacibdir. Nədən qabaqcıl QHT-lər COP29 prosesində aktiv iştirak etməsin? Hesab edirəm ki COP29-un keçiriləcəyi məkanda təcrübəli Azərbaycan vətəndaş cəmiyyəti qurumlarının ayrıca pavilyonlarının olması faydalı olardı. Çünki bu tədbir ölkə QHT-lərinin beynəlxalq təşkilatlarla əlaqələr yaratması, ölkəmizin maraqları baxımından qarşılıqlı faydalı münasibətlər qurması üçün yaxşı bir fürsətdir. COP29-un Təşkilat Komitəsi üzvləri ilə Vətəndaş Cəmiyyəti mənsubları arasında forumda olduğu kimi, mütəmadi görüşlərin təşkili də faydalı olardı.

Azərbaycan QHT-ləri ölkədaxili uğurlu fəaliyyətləri ilə seçilməli, həmrəylik nümayiş etdirməli, öz imkanlarını beynəlxalq səviyyələrə daşımalıdırlar. Qalib ölkəmiz sülh, barış istəyən ölkədir və belə olan halda yumşaq güc, xalq diplomatiyası aktuallıq təşkil edir. Həm yerli, həm də xarici faydalı əlaqələrin qurulmasından, QHT-lər arası çoxşaxəli əməkdaşlığın inkişafından istər cəmiyyət, həm dövlət, istərsə də vətəndaşlar qazanar. O zaman hamımız daha mütəşəkkil “vətəndaş” və “cəmiyyət” məfhumunun, eləcə də “vətəndaş cəmiyyəti”nin güclü tərəflərinin şahidi olarıq.

*

Böyük Turan ellərinin qovşağında yerləşən Zəngəzur yolu ilə Bakıya qayıdırıq. Bu yol həmin yoldur. Bu yol bizi zəfərə, qələbələrə, Qarabağa aparan yoldur. Düşüncələrimi yekunlaşdırarkən bir daha qeyd etmək istərdim ki, biz doğma torpaqlara qayıdışa inamı hər zaman yüksək olan vətəndaş cəmiyyəti mənsubları kimi, bundan sonra da xalqımızla və dövlətimizlə birgə addımlayaraq Zəngəzurdan keçib Turan ellərinə çıxacağımıza inanırıq. Bu yol, həm də xalqımızın, millətimizin həmrəyliyindən keçir. Dünyanı heyrətə gətirən, düşməni lərzəyə salan həmrəylikdən... O həmrəylik ki, lazım gələndə dəmir biləyə, dəmir yumruğa çevrilə bilir. Yolumuz işıqlı, gələcəyimiz parlaq olsun!

***Umud MİRZƏYEV,***
***Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti***

# Blinken: sülh sazişinə müstəsna imkan yaranıb

**"Azərbaycan və Ermənistan arasında sülh sazişinə nail olmaq üçün müstəsna imkan yaranıb". XİN-dən aldığımız məlumata görə, bu sözləri ABŞ Dövlət katibi Antoni Blinken Brukinqs İnstitutunda çıxışı zamanı deyib.**



ABŞ-nin baş diplomatı bildirib ki, bu saziş onilliklərlə davam edən münaqişəyə son qoyacaq və iqtisadi əlaqələr, iqtisadi inkişaf, Şərqlə Qərb, Şimalla Cənub arasında əlaqələr baxımından böyük imkan yaradacaq: "Azərbaycan bu işdə çox böyük rola malikdir. Biz diplomatiya yolu ilə fəal şəkildə iş apararaq Azərbaycan və Ermənistanı sülh sazişinə yaxınlaşdırmağa çalışdıq. Biz bu sahədə Avropa İttifaqı ilə sıx əməkdaşlıq və koordinasiya həyata keçirmişik. Düşünürəm ki, bu, həqiqətən, mümkündür. Mən, təxminən, bir həftə əvvəl bu barədə Azərbaycan Prezidenti İlham Əliyevlə danışdım. Düşünürəm ki, bu mümkündür və tam mənada Azərbaycanla Ermənistanın, bütün regionun maraqlarına xidmət edir".

# ABŞ mediası Bakıda keçirilmiş dekolonizasiya konfransına önəm verib


Foreign Policy Blogs
Foreign Policy Association
RSS subscribe | Follow us on Twitter | Join us on Facebook
DEFENSE & SECURITY | THE EU | NUCLEAR | MEDIA AND FOREIGN POLICY | TRADE | U.S. FOREIGN POLICY | REGIONS | MORE TOPICS

Azerbaijan hosts Decolonization Conference in Baku

by Rachel Avraham | on June 25th, 2024 | 0 Comments UNCATEGORIZED

Azerbaijan recently hosted "French Polynesia's Right to Decolonization: Challenges and Perspectives" inside of the Azerbaijani Parliament together with BIG, otherwise known as the Baku Initiative Group, whose stated aim is to support "French liberation and anti-colonialist movements." The group's executive director Abbas Abbasov, who met the Polynesian delegation at the sidelines of the conference, vowed "continued support of

Author
Rachel Avraham
Rachel Avraham is the CEO of the Dona Gracia Center for Diplomacy and the editor of the Economic Peace Center, which was established by Ayoob Kara, who served as Israel's Communication, Cyber and Satellite Minister. For close to a decade, she has been an Israel-based journalist, specializing in radical Islam, abuses of human rights and minority rights, counter-terrorism, the Israeli-Palestinian conflict, Azerbaijan, Syria, Iran, and other issues of importance. Avraham is the author of "Women and Jihad: Debating Palestinian Female Suicide Bombings in the American, Israeli and Arab Media," a ground-breaking book endorsed by Former Israel Consul General Yitzchak Ben Gad and Israeli Communications Minister Ayoob Kara that discusses how the media exploits the life stories of Palestinian female terrorists in order to justify wanton acts of violence. Avraham has an MA in Middle Eastern Studies from Ben-Gurion University. She received her BA in Government and Politics with minors in Jewish Studies and Middle Eastern Studies from the University of Maryland at College Park.
Read all of Rachel Avraham's Posts

**Ümumdünya Kilsələr Şurasının Mərkəzi Komitəsi Azərbaycanla razılaşır ki, Fransız Polineziyası Fransa müstəmləkəçiliyindən azad edilməlidir. Bu barədə tanınmış siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında dərc olunmuş məqaləsində yazıb.**

"Azərbaycan Bakıda dekolonizasiya mövzusunda konfrans keçirir" başlıqlı məqalədə qeyd olunub ki, məqsədi "Fransız azadlıq və antimüstəmləkəçi hərəkatları"nı dəstəkləmək olan "Bakı Təşəbbüs Qrupu kimi tanınan təşkilatın təşəbbüsü ilə bu yaxınlarda Azərbaycan Milli Məclisində "Fransız Polineziyasının dekolonizasiya hüququ: çağırışlar və perspektivlər" mövzusunda konfrans keçirilib. Konfrans çərçivəsində Polineziya nümayəndə heyəti ilə görüşən qrupun icraçı direktoru Abbas Abbasov "müstəmləkəçilikdən qurtulmaq istəyən xalqların ədalətli mübarizəsini bundan sonra da dəstəkləməyə" söz verib.

Məqalədə Fransız Polineziyası nümayəndə heyətinin rəhbəri Viktor Maamaatuayahutapunun konfransdakı çıxışından da iqtibas gətirilib. Beynəlxalq hüquqi mexanizmlərin qeyri-mükəmməlliyinin Fransa müstəmləkələrinin azadlığa çıxmasına mane olduğu diqqətə çatdırılan konfransda qeyd olunub ki, keçən ilin iyulunda Bakıda BTQ-nin təsis edilməsi 150 ildən artıqdır Karib dənizi, Cənubi Amerika, Hind və Sakit okeanlar daxil olmaqla regionlara təsir edən istismarla mübarizə üçün yeni səylər dalğasının başlanğıcı kimi qiymətləndirilməlidir.

Yazıda Ümumdünya Kilsələr Şurasının Mərkəzi Komitənin qəbul etdiyi ictimai bəyanatda Fransa hakimiyyətini "öz öhdəliklərini yerinə yetirməyə və Maohi xalqının iqtisadi, sosial və mədəni inkişafı üçün bütün lazımi vasitələri təmin etməyə" və "Fransadan zərər çəkmiş bütün şəxslərə təzminat ödəməyə" çağırış edildiyi diqqətə çatdırılıb.

# Erkən evliliyə və qan qohumları nikahına yol verilməyəcək

**Azərbaycanda yetkinlik yaşına çatmayanların erkən evliliyi və qan qohumlarının nikahları ilə bağlı mövcud olan problemlərin qarşısının alınması məqsədilə "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi Milli Məclisin sonuncu iclasında təsdiqləndi. Dünya əhalisinin bir qismi kimi Azərbaycanda da qan qohumları arasında bağlanan nikahlar nəticəsində doğulan uşaqlarda genetik xəstəliklərin olması riski son dərəcə yüksəkdir. Məhz bu baxımdan erkən evlilik və yaxın qohum nikahları ilə bağlı qanunvericiliyə dəyişikliklər edilməsi zərurəti yaranmışdı. Qanun layihəsinin əhəmiyyəti barədə məlumat verən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova dedi:**



– Azərbaycanda yetkinlik yaşına çatmayanların erkən evliliyi və qan qohumlarının nikahları həmişə ciddi problemlər yaradıb. Həm erkən evlilik, həm də yaxın qohum nikahları özünün neqativ fəsadları ilə cəmiyyətin sağlam gələcəyinə zərbə vurur, insanları narahat edir və daim müxtəlif səviyyələrdə müzakirələrə səbəb olur. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində də əsas məqsəd yetkinlik yaşına çatmayanların erkən evliliyi və qan qohumu ilə nikahlarla bağlı ölkədə mövcud olan ciddi problemlərin qarşısının alınmasıdır. Əvvəllər bir sıra halları nəzərə almaqla nikah yaşının 1 yaş azaldılmasına icazə verilirdi. Dəyişikliklərdə bu məsələyə də yenidən baxıldı.

Komitə sədri nikah yaşının bir yaş azaldılmasının zərərli cəhətlərindən söhbət açaraq dedi ki, üzürlü səbəblər olduqda nikah yaşının bir yaş azaldılmasını ehtiva edən normanın mövcudluğu əksər hallarda yetkinlik yaşına çatmayanların hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə nəticələnir. Layihədə adları çəkilən məcəllələrə dəyişiklik etməklə nikah yaşının azaldılması ilə bağlı istisnanın ləğvi, erkən evliliyin təşkilinə, həmin yaşda olan şəxs barəsində evliliyə dair sövdələşməyə daxil olmağa, bu məqsədlə mərasimlərin keçirilməsinə və dini kəbinkəsməyə görə geniş subyektlər dairəsi üçün məsuliyyət öz əksini tapıb.

**– Demək, bundan sonra nikah yaşının bir yaş azaldılmasına yol verilməyəcək?**

– Bəli, bu məsələ qanunla tənzimlənəcək. Dəyişikliyə əsasən, Cinayət Məcəlləsinin 176-1-ci maddəsinin adının dəyişdirilməsi, yəni "Qadını nikaha daxil olmağa məcbur etmə" deyil, "Nikaha və ya erkən evliliyə daxil olmağa məcbur etmə" kimi müəyyən edilməsi cinayətdən zərər çəkmiş şəxslərin dairəsini genişləndirir. Məcəlləyə təklif edilən 176-2-ci maddə 16 yaşına çatmayan şəxsin erkən evliliyinin təşkilinə görə valideynlər və ya yetkinlik yaşına çatmayanları tərbiyə etmək vəzifəsi daşıyan şəxslər üçün məsuliyyət müəyyən edir.

İnzibati Xətalar Məcəlləsinə daxil edilmiş 189-1-ci maddədə qeyd edilir ki, on altı yaşına çatmayan şəxs barəsində onun və ya evliliyə daxil olmaq niyyətində olan digər şəxsin valideynləri, həmçinin evliliyə dair digər sövdələşməyə görə cərimə və ya işin hallarına əsasən, inzibati həbs tətbiq olunur. Həmçinin ictimai iaşə obyektlərini idarə edən şəxslər tərəfindən erkən evliliklə bağlı mərasimlərin keçirilməsinə və yetkinlik yaşına çatmayan şəxslər barəsində dini kəbinkəsməyə görə, inzibati tənbeh nəzərdə tutan 189-2 və 189-3-cü maddələrin məcəlləyə əlavə edilməsi erkən evliliklə mübarizədə mühüm addımlardan biri olacaqdır.

**– Dəyişikliklərdə qan qohumlarının nikaha daxil olması da öz əksini tapıbmı?**

– Bəli, hazırda bu məsələ cəmiyyəti ciddi narahat edir. Qan qohumlarının evliliyi müəyyən irsi xəstəliklərə səbəb olur. Ona görə də qanun layihəsində aralarında nikahın bağlanması yol verilməyən subyektlər dairəsinin genişləndirilməsi ilə bağlı təkliflər yer alıb. Belə ki, Ailə Məcəlləsinin 12-ci maddəsində (Nikahın bağlanmasına mane olan hallar) yaxın qohumlarla yanaşı, qardaşların və bacıların ümumi bioloji baba və nənəsi olan uşaqlar, o cümlədən bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu arasında nikahın bağlanmasına yol verilməyən yeni normanın təsbiti vacib hesab edilmişdir.

**Əliqismət BƏDƏLOV**
**XQ**




# İqlim dəyişikliyi və təhlükəsiz əmək

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlıq çərçivəsində "İqlim dəyişikliyinin əməyin təhlükəsizliyinə və sağlamlığa təsiri" mövzusunda vebinar keçirib. Tədbirdə ölkəmizin 30-dan çox qurumunun nümayəndələri, BƏT-in mütəxəssisləri iştirak ediblər.**

Bu barədə XQ-yə verilən məlumata görə, müzakirə iqlim dəyişikliyinin əməyin təhlükəsizliyinə və sağlamlığa təsiri, habelə BƏT-in fundamental konvensiyalarının üzv ölkələrdə əməyin mühafizəsi işində əhəmiyyəti barədə maarifləndirmə məqsədi daşıyıb. Onlayn məclisdə ölkəmizin ətraf mühitin qorunması, iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizə sahəsində mühüm töhfələr verdiyi, 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyi vurğulanıb. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) bu il ölkəmizdə keçiriləcəyi qeyd edilib.

Natiqlər Azərbaycanda layiqli əməyin təminatı, o cümlədən işçilərin sağlamlığının mühafizəsinin əsas prioritetlərdən olduğunu vurğulayıblar. BƏT-in fundamental konvensiyalarının üzv ölkələrdə əməyin mühafizəsi işində əhəmiyyətindən də bəhs olunub. Həmin konvensiyalar, əməyin mühafizəsi və təhlükəsizliyi ilə bağlı milli qanunvericilikdə nəzərdə tutulan standartlar, norma və qaydalar, qanunvericilikdəki son dəyişikliklər diqqətə çatdırılıb. İqlim dəyişikliyi fonunda əməyin mühafizəsi şəraitinin təmin edilməsi qaydaları barədə məlumat verilib.

**XQ**

# "Freedom House" ermənilərin muzdlu carçısına çevrilib

**Artıq uzun müddətdir özünü radikal erməni diasporunun muzdlu carçısına çevrilmiş "Freedom House" 2024-cü il iyulun 1-də növbəti anti-Azərbaycan hesabat dərc edib. Sənəddə heç bir əsas olmadan Azərbaycanın Qarabağ bölgəsindən ermənilərin Ermənistana köçüb getməsi hüquq pozuntusu kimi qələmə verilir.**

Bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilir ki, Ermənistandan və vaxtilə işğal edilmiş Azərbaycan torpaqlarından bir milyona yaxın azərbaycanlının zorla qovulmasına göz yuman "Freedom House" təşkilatının belə böhtan xarakterli hesabatı yayması bu qurumun ölkəmizə qarşı açıq qərəzinin və destruktivliyinin sübutudur.

Açıqlamanın davamında deyilir: "Bu hesabatın sifarişçiləri regionda sülhə mane olmaq və ədavəti qızışdırmaq məqsədi güdürlər. Bir daha geniş ictimaiyyətə xatırladırıq ki, vitse-prezident Anni Boyacıyan daxil olmaqla, çoxsaylı radikal erməni funksionerlərinin kök saldığı "Freedom House"un insan hüquqlarının qorunması ilə heç bir əlaqəsi yoxdur və bu təşkilat tamamilə irqçi düşüncəli dairələrin təsirinə düşmüşdür".

**XQ**

# "Jerusalem Post": Qərb Ermənistana təzyiq göstərməlidir

**"Qərb Qafqazda sülhü təşviq etmək istəyirsə, Ermənistana təzyiq göstərməlidir".**




Bu fikri İsrailin ərəb dünyası və İran üzrə tanınmış eksperti, İsrail Müdafiə Qüvvələrinin Kəşfiyyat Korpusunun sabiq polkovnik-leytenantı, bu ölkənin nüfuzlu Bar-İlan Universitetinin şərqşünaslıq elmləri üzrə professoru və Universitetin Yaxın Şərq və İslam Tədqiqatları Mərkəzinin direktoru, Begin-Sadat Strateji Araşdırmalar Mərkəzinin tədqiqatçısı doktor Mordexay Kedar dünyanın ən nüfuzlu nəşrlərindən olan "Jerusalem Post"da dərc olunmuş "Qərbin təzyiqləri ölkələri Moskva ilə əlaqələri kəsməyə sövq edir" sərlövhəli məqaləsində yazıb.

Məqalədə daha sonra deyilir: "Əgər Ermənistan Azərbaycanla barışarsa, blokadada olan və dənizə çıxışı olmayan ölkə kimi ehtiyaclarını ödəmək üçün daha İrana arxalanmağa ehtiyac qalmayacaq. Habelə Ermənistanın Rusiyadan uzaqlaşması iki Qafqaz ölkəsi arasında sülhün bərqərar olması ehtimalını artıran amildir, belə ki Qafqazda təsirini qorumağa çalışan ruslar münaqişənin davam etdirilməsində maraqlı olublar. Amma Azərbaycanın bütün Qarabağı azad etməsi və indi Ermənistanın sülhə doğru istiqamətlənməsi ilə yaranan yeni reallıq Moskvanın Qafqazdakı təsirini zəiflədir ki, bu da Qərbin maraqlarına cavab verir".

**XQ**

# Gədəbəyə "dənəvər buz" yağıb

**Gədəbəydən aldığımız xəbərdə bildirilir ki, güclü yağışdan sonra rayon ərazisinə dolu düşüb.**



10 dəqiqə davam edən "dənəvər buz" yağışı Şınıx və bir neçə kənddə qeydə alınıb. Xoşbəxtlikdən, arzuolunmaz təbiət hadisəsi ciddi fəsad törətməyib. Bölgədə qeyri-sabit hava şəraiti hökm sürür.

**XQ**

Milli qəhrəmanlar

# Ali təsdiqini tapan qəhrəmanlıq

**Builki Silahlı Qüvvələr Günündə Prezident İlham Əliyevin sərəncamı ilə təltif olunanların sırasında Birinci Qarabağ müharibəsinin itkin düşmüş döyüşçüsü Natiq Qasımovun Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülməsi Qalib Ordumuzun Şərəf kitabında daha bir hünəri rəsmiləşdirdi. Haqq işimiz uğrunda qeyrət və sarsılmazlığı ilə nəinki düşməni, hətta xarici media dairələrini heyrətə gətirmiş soydaşımızın qəhrəmanlığının 32 ildən sonra ali təsdiqini tapması bir daha göstərdi ki, Azərbaycan dövləti Vətən yolunda göstərilmiş igidliklə bağlı keç kimi və heç nəyi unutmur.**



1995-ci il... Bir il idi ki, ölkəmizin çətin, arxasız-köməksiz qaldığı günlərdə xilaskar missiyası ilə rəhbərliyə gələn Heydər Əliyevin səyləri sayəsində əldə olunan atəşkəsin nisbi sakitliyini yaşayırdıq... Amma işğalçı düşmən atəşkəs razılaşmasına imza atsa belə, atəşi kəsmirdi... Sənətindən-peşəsindən asılı olmayaraq hamımız, elliklə cəbhədə işğalçı düşmənə sinə gərib dayanan müdafiəçilərimizə arxa-dayaq olmağa çalışırdıq. O sırada mən də ardıcıl cəbhədə, səngərlərdə çəkilişlər edib Vətənimizin müvəqqəti uğursuzluqdan yorğun düşən müdafiəçilərinə dayaq olmaq istəyirdim... Amma köhnə vərdişimdən də qalmırdım. Sovet vaxtı daim abunə olduğum “Komsomolskaya pravda” qəzetini və onun ən çox sevdiyim əlavəsi olan “Oqonyok” jurnalını da tapıb oxuyurdum...



...Və bir gün “Oqonyok” jurnalında iki saqqallı erməni döyüşçünün əhatəsində Azərbaycan Bayrağını əlində məğrurca tutan bir döyüşçümüzün şəklinə rast gəldim. Məqaləni oxudum... Jurnalın müxbiri erməni tərəfdən cəbhə təəssüratlarını yazsa belə, Azərbaycan Bayrağı əlində olan o döyüşçünün QƏHRƏMANLIĞINI böyük sevgi ilə, təfərrüatı ilə yazırdı. Və indi həmkarım o reportajın müəllifi Konstantin Smirnovun hələ o vaxt tərcümə edib AzTV-də efirə verdiyim “AND” proqramında səsləndirdiyim təəssüratlarını olduğu kimi yazıram... Erməni təxribatçılarla, terrorçu qüvvələrlə, “daşnaksütun” xəstəliyinə düçar olanlarla birgə addımlayan Konstantin Smirnov Natiq Qasımov adlı döyüşçünün qəhrəmanlığını belə canlandırırdı:

“Biz Stepanakertdən (Xankəndi) Əsgəran tərəfə gedərkən yolüstü üstünə saqqallı “boyeviklərin” yığışdığı zirerhli döyüş maşını ilə rastlaşıb onlara qoşulduq... Erməni silahlı birləşməsinin bu qrupu bir neçə gün əvvəl xeyli itki verərək tutduqları kəndi təkcə qədim kilsədə qalıb mövqe tutan Azərbaycan döyüşçülərindən “təmizləməyə” gedirdilər... Nə həmin gün, nə də səhəri ermənilər həmin döyüş nöqtəsini susdura bilmədilər... Çətin döyüşdən sonra üçüncü gün qədim məbəd zəbt olundu və orda döyüşüb hamını heyrətə gətirən azərbaycanlı döyüşçü əlində Azərbaycan Bayrağı əsir götürüldü. O beş gün ac-susuz qalıb üzərində Azərbaycan Bayrağı dalğalanan məbəddə təkbaşına döyüşərək bütöv bir ordu hissəsi təəssüratı yaratmışdı... Və son anda BAYRAĞI əlinə alıb ermənilərin üstünə yerimişdi...”

Məqaləni oxudum və qısa bir süjet hazırladım o vaxt Natiq haqqında... Onda erməni tərəfdən yazan müxbirə istinad etdiyimə görə məni qınayanlar da oldu. Amma mən nədənsə, QƏHRƏMANIMI fikrimdə, xəyalımda yaşatdım və onun bir gün bütün Azərbaycana şayan olacaq QƏHRƏMANLIĞINA inandım! Və illər sonra fəhmimdə yanılmadığımı gördüm. Qarabağda QƏLƏBƏmizə imza atan Ali Baş Komandan öz döyüşçüsünə böyük qiymət verdi. İyunun 25-də imzaladığı Sərəncamla onu Azərbaycanın Milli Qəhrəmanı elan etdi...

...İllər sonra müzəffər Ali Baş Komandanın və xalqının layiqli mərtəbəyə yüksəltdiyi, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən Natiq Qasımov haqda hələ 90-cı illərdə yarımçıq qalan jurnalist araşdırmamı davam etdirmək qərarına gəldim. Hələ sovet vaxtı hərbi qəzetdə birgə xidmət elədiyim, indi “Komsomolskaya pravda” qəzetinin əməkdaşı Dmitri Kozlovdan Konstantin Smirnovu tapmaqda mənə yardımçı olmasını xahiş etdim. Əsgər yoldaşım, yaxın dostum Dima tez bir zamanda bizi Konstantin Sergeyeviç Smirnovla calaşdırdı... ...Aldığım telefon nömrəsinə zəng vururam məni yorğun, ahıl bir səs salamlayır. “Natiq Qasımovu necə xatırlayırsınız?” sualımın cavabında özünün də dediyi kimi çox yaşlandığını etiraf edib yaddaşının onu güdaza verdiyini desə də bir az fikrə gedib 1992-ci ildə “Oqonyok” jurnalında yazdığı “Strax” (“Qorxu”) sərlövhəli məqaləsini xatırlayaraq davam edir: “Rahib, dostum, az da olsa xatırlayıram... Mən o vaxt tez-tez Bakıda, Tbilisidə və Yerevanda olurdum və xalqlar arasına düşən nifaqın, düşmənçiliyin səbəblərini anlamağa, bu haqda təhlillər aparıb yazmağa çalışırdım... Haqqında soruşduğunuz qəhrəmanı canlı olaraq görməsəm də haqqında da o vaxt eşitdiklərimi qələmə almışam. Çünki o vaxt “Kommersant” qəzetimiz üçün şəkillər çəkmək məqsədilə ora mən fotomuxbirimiz italiyalı Enriko Sarzanini göndərmişdim… Onun lentə aldığı foto diqqətimi çəkdi və Natiq haqda danışdıqlarından təsirlənərək o məqaləni yazdım. Yaxşı yadımdadır, ermənilər də başlarını itirmişdilər ki, bu oğlan 5 gün ərzində ac-susuz təkbaşına onları necə aciz qoymuşdu... Eşitdiklərimin əsasında həmin o məqaləni yazdım. Səhv etmirəmsə, “Oqonyok”un 1992-ci il aprel nömrəsində dərc olundu “Strax” sərlövhəli o məqaləm...”

Bunları deyən Konstantin Smirnov danışdıqca xatirələri daha da canlanırmış kimi birdən söhbətinə ara verib “O, sağdır?” deyə soruşur. Sualından başa düşürəm ki, Natiqin sonrakı taleyindən, ermənilər tərəfindən işgəncələrə məruz qalıb öldürüldüyündən xəbərsizdir... “Təəssüf ki, yox!” deyib əlavə edirəm: “Onu erməni “boyevikləri” işgəncə verərək öldürüblər... Bugünlərdə Prezidentimizin sərəncamı ilə Natiq Qasımov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.” Həmsöhbətim dərindən köks ötürərək “Heyif!.. O oğlanın simasını gözümdə bir daha canlandırdınız və elə o vaxt da olduğu kimi onu görmədiyimə çox təəssüf edirəm. O vaxt çox istədim onu görüm. Amma yəqin məni başa düşərsiniz, o qarmaqarışıqlıqda bu cür imkan tapmaq çox çətin idi. Çox təəssüflənirəm indi də... Bəlkə də biz görüşsək, onun həyatını qurtarmağa yardımçı ola bilərdim”. Telefona sükut çökür bir anlıq. Həmsöhbətim son sözlərini təəssüf qarışıq kədər içində deyir və sanki nitqi tutulur... Qısa fasilədən sonra davam edir: “Mən ixtiyarsız olaraq o vaxt erməni tərəfdən təəssüratlarımı yazsam da o oğlan ağlıma, düşüncəmə hakim kəsilmişdi deyə məqaləmi onun qəhrəmanlığı üzərində qurdum. Onu Xalq Qəhrəmanı elan etdiyinizi eşidəndə isə tam əminliklə deyə bilərəm ki, Qəhrəmanları tarix müəyyənləşdirir...”

Bəli, qəhrəmanlar unudulmur... Əbədiyaşar xatirəsi ilə qəlblərə köçüb əbədiyaşarlıq qazanırlar. “Heç kəs unudulmur, heç nə yaddan çıxmır!” Dillər əzbəri olan, bütün zamanlar üçün kəsərli, keçərli olan bu şüar da, görünür, əbəs yerə yaranmayıb.

***Rahib QƏRİB,***
***hərbi jurnalist***

**Nizami Kino Mərkəzində Birinci Qarabağ savaşının igid döyüşçüsü, Milli Qəhrəman Fazil Mehdiyev haqqında çəkilmiş “El təəssübü, Vətən məhəbbəti” adlı sənədli filmə ictimai baxış torpaqlarımızın müdafiəsi zamanı canından keçmiş qeyrətli soydaşlarımızın xatirəsinə sonsuz hörmət və ehtiramın daha bir ifadəsi oldu.**

# Ekranda əbədiləşmiş hünər nümunəsi



Filmin nümayişindən əvvəl bu sənədli ekran əsəri də daxil olmaqla, milli qəhrəmanlar barədə 20 filmin ssenari müəllifi, Əməkdar mədəniyyət işçisi Rəfiqə Məsud Qarabağ savaşının cəngavər oğullarının kinosalnaməsinin yaradılmasının tarixi önəmindən və bu vətənpərvərlik örnəklərinin yeni nəsillərə ötürülməsində xronikal lentlərin təsirli vasitə olmasından söz açdı. Kinematoqraf-publisist bildirdi: “Ermənistanın ölkəmizə hərbi-siyasi təcavüzünə və işğalçılıq siyasətinə qarşı xalqımızın 30 il davam etmiş direnişi, mübarizəsi, itkiləri və dözümü, nəhayət, Vətən müharibəsində qazanılan Zəfər, Xankəndi xuntasının tör-töküntüsünə qarşı antiterror əməliyyatı ilə zirvəsinə ucaldı. Bu misilsiz qələbələr müstəqil dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası ilə sona çatdı”.

Rəfiqə Məsud milli tariximizin bu ən böyük rəşadətinin qazananılması uğrunda 33 il əvvəldən başlamış döyüşlərdə misilsiz hünər göstərərək həlak olmuş Fazil Mehdiyev barədə “Yaddaş” studiyasında çəkilmiş filmin necə ərsəyə gəlməsi barədə də məlumat verdi: “Rejissor Zamin Məmmədov və prodüsser Cavid İmaməliyevlə birgə qəhrəmanın Vətən sevgisi, döyüş yolu və düşmənə vurduğu zərbələr barədə bütün incəlikləri ekrana gətirmək üçün çağdaş kinematoqrafın imkanlarından qədərincə yararlanmağa çalışmışıq. 25 yaşında əbədiyyətə qovuşmuş qəhrəman artıq sənədli xronikanın yaddaşında yaşayır, tanınır, sevilir. Fazil kimi qəhrəmanlar, həqiqətən ölmürlər. Onların yüksəldiyi şəhidlik zirvəsi soydaşlarımızı həmişə Vətəni sevməyə, el təəssübü çəkməyə çağıracaq. Biz də filmimizlə bunu demək istəmişik”.



Saleh Qarayev və Seymur Abdullayev, Fazil Mehdiyevin döyüş yoldaşları onun qorxmazlığından, cəsarətindən, mərdliyindən, yurd sevgisindən söz açdılar. Onlar milli qəhrəmanlar haqqında çəkilmiş filmlərin telekanallarda davamlı olaraq göstərilməsinin, belə videodisklərin geniş yayılmasının vacibliyini söylədilər.

Sonra “El təəssübü, Vətən məhəbbəti” filmi nümayiş etdirildi. Qəhrəmanın doğmaları, dostları, həmyerliləri və ictimaiyyət nümayəndələri ekran əsərinin təsirli epizodlarını həyəcan və öyünclə seyr etdilər, qəhrəmanı daha yaxından tanıdılar.

Xatırladaq ki, Fazil Mehdiyev 1966-cı ildə Laçının Ələçi kəndində doğulub. Ağdamın Gülablı kəndində böyüyüb, orta təhsil alıb. Hərbi xidmətdən qayıdıb sürücülük peşəsinə yiyələndikdən 2 il sonra başlayan Qarabağ münaqişəsinin ilk günlərindən erməni quldurlarının qonşuluğunda yerləşən Abdal-Gülablının müdafiəsinə qalxıb. 1990-cı ildə Ağdam Rayon Daxili İşlər Şöbəsində yaradılmış polis batalyonuna daxil olub. Canyataq, Mehmanə, Qazançı, Sırxavənd kəndlərində gedən qanlı döyüşlərdə iştirak edib, ermənilərə ağır zərbələr vurub. Qaradağlı kəndində ağır yaralanıb. Tezliklə yoldaşlarının yanına qayıdan Fazil 1991-ci il sentyabrın 24-də Abdal-Gülablıya güclü hücumun qarşısını alarkən onlarca qulduru məhv edərək igidliklə həlak olub.



Milli Qəhrəmanın anası Şövkət Mehdiyeva dedi ki, oğlunun dünyaya göz açdığı Laçın obası Xalq qəhrəmanı Sultan bəy və onun qardaşı, AXC liderlərindən olmuş Qarabağ general-qubernatoru Xosrov bəy Sultanovlar kimi qeyrətli oğullar yetirmişlər: “Fazil evimizdə onlar barədə əfsanəyə çevrilmiş söhbətləri sevgi ilə dinləyərək böyümüşdü. Qarabağın başı üstünü qara buludlar alanda Fazil də qeyrətli həmyerlilərinin mübarizə yolunu davam etdirdi. Dedi ki, Sultan bəyin, Xosrov bəyin həmyerlisi düşmənin qabağından qaça bilməz. O təkcə bir evin yox, bir elin, bir xalqın da başını uca edən oğul oldu. Qəhrəman anası olmağımla fəxr edirəm. Oğlumun xatirəsini əziz tutanlara və ona ekranda ölməzlik gətirənlərə dərin razılığımı bildirirəm”.

Milli Qəhrəmanın qardaşı Azər Mehdiyev, qazi qurumlarının rəhbərlərindən

8 oktyabr 1992-ci ildə Vətənin fədakar övladı Fazil Umud oğlu Mehdiyevə ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilib. Paytaxtda parklardan birində büstü ucaldılıb, adına küçə var.

***Tahir AYDINOĞLU***
***XQ***

# Naxçıvanda iyun şəhidlərinin xatirəsinə ehtiram

**Bu ildən yaranmış ənənənin davamı olaraq “Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin dəstəyi ilə doğum günü iyun ayında olan şəhidlərin də anım mərasimi keçirilib.**






Əvvəlcə Naxçıvan Televiziyasının doğum günü iyun ayında olan şəhidlərlə bağlı hazırladığı videoçarx izlənilib. Tələbələr videoçarxda adları çəkilən Birinci və İkinci Qarabağ müharibələrin 37 şəhidinin portretlərini səhnədə nümayiş etdiriblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli qəhrəmanlarımızın xalqımıza bəxş etdiyi zəfərdən danışıb. O qeyd edib ki, bu gün ölkəmizdə ordu quruculuğu daha mütəşəkkil şəkildə davam etdirilir. Azərbaycan dünyanın bir sıra qabaqcıl ölkələri ilə hərbi əməkdaşlıq edir. Bu işlərin davamı olaraq cari ildən Milli Müdafiə Universitetinin hərbi kollecləri fəaliyyətə başlayacaq. Belə kolleclərdən biri də Naxçıvan şəhərində istifadəyə veriləcək. Tarix boyu hərb sənətinə böyük marağı olan naxçıvanlıların bu sahədə də fəallıq göstərəcəyinə əminliyini ifadə edən Fuad Nəcəfli bildirib ki, dövlətimiz şəhid ailələrinə daim diqqət və qayğı göstərir. Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında şəhidlərin xatirəsinə memorial abidə kompleksləri ucaldılacaq.

Səlahiyyətli nümayəndə şəhidlərimizə Allahdan rəhmət, qazilərə cansağlığı arzulayıb.

Mərasimdə şəhid baş leytenant Raqib Hüseynovun anası Rəna Hüseynova və şəhid leytenant İbrahim Vəlizadənin atası Səməd Vəlizadə çıxış edərək qəhrəman övladları ilə fəxr etdiklərini dilə gətirib, onların bəxş etdiyi başucalığından danışıblar.

Sonda “Yeni era” teatrının kollektivi bədii kompozisiya təqdim edib.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# Heydər Əliyev – dövlətçilik zirvəsi

**Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, Azərbaycan xalqının və dövlətinin müstəqilliyi, inkişafı yolunda böyük və əvəzedilməz işlər görmüş ümummilli lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Ulu öndərin haqqında yazılan kitablar, tədqiqatlar, dünyanın çox mötəbər şəxsiyyətlərinin söylədikləri də təsdiq edir ki, Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir.**




Bu sırada Bakı Dövlət Universitetinin professoru İbrahim Zeynalovun "Azərbaycanın milli dövlətçilik tarixində Heydər Əliyev zirvəsi: dahi şəxsiyyətin şərəfli ömür yolu" monoqrafiyasının xüsusi yeri və dəyəri var. Bugünlərdə işıq üzü görmüş 655 səhifəlik kitab Ulu öndərin tarixi irsini, həyat və fəaliyyətinin öyrənilməsində mötəbər mənbədir.

Kitabın müəllifi İbrahim Zeynalov zəngin yaradıcılıq yolu keçmiş və tarix elmində böyük uğurlar qazanmış alim kimi tanınır. 7 monoqrafiyanın, 6 dərsliyin, 20-dən çox dərs vəsaitinin, 5 kitabın, 10-dan çox fənn proqramının, ümumilikdə, 300-ə yaxın elmi məqalə və əsərin müəllifidir. Elmi-pedaqoji və ictimai-siyasi sahədəki fəaliyyəti dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib, 3-cü dərəcəli Əmək ordeni, BDU-nun 100 illiyi medalı ilə təltif edilib.

Nəfis şəkildə tərtib olunmuş monoqrafiyada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin fəaliyyətinin bütün dövrləri zəngin arxiv materialları, mühüm əhəmiyyət kəsb edən dövlət və hökumət sənədləri, Ulu öndərin çıxışları, nitqləri, müsahibələri, müxtəlif dillərdə olan mənbə və ədəbiyyatlar, həmçinin Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş əsərlərdəki faktiki materiallar əsasında araşdırılmışdır. Əsərdə Heydər Əliyevin 1944-1969-cu illərdə dövlət təhlükəsizlik orqanlarındakı fəaliyyəti, Azərbaycana rəhbərliyinin 1-ci dövrünü əhatə edən 1969-1982-ci illərdə qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olması, respublikamızın sosial-iqtisadi böhrandan çıxarılması, tənəzzüldən tərəqqiyə dönüşün, dinamik inkişafın təmin olunması, cəmiyyətdə keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqayıdışa dönüş mərhələsinin başlanması, sosial-iqtisadi həyat sahəsində sürətli və hərtərəfli inkişafa nail olunması kimi mühüm məsələlər təhlil olunmuşdur. Həmçinin bu illərdə Azərbaycan xalqının taleyüklü problemlərinin həll edilməsi, təhsilə, elmə, mədəniyyətə qayğı, Azərbaycan dilinin qorunaraq inkişaf etdirilməsi, milli hərbi kadr hazırlığı, Azərbaycanın milli dövlətçiliyinin əsaslarının (1969-1982-ci illərdə) yadarılması və s. kimi ümdə məsələlər elmi-tarixi baxımdan təqdim edilir.

Kitabda Heydər Əliyevin 1982-1987-ci illərdə Sovet İttifaqı rəhbərliyindəki fəaliyyəti, 1987-ci ildə ermənipərəst Mixail Qorbaçovun bədxah münasibətinə görə vəzifəsindən istefa verməsi , siyasi həyatının 1987-1991-ci illəri əhatə edən dövrü, 1991-1993-cü illərdə fəaliyyətinin Naxçıvan dönəmi, Azərbaycan Respublikasının Prezidenti olduğu 1993-2003-cü illərdə respublikamızda demokratik və hüquqi dövlət quruculuğu, ölkəmizin inkişafı, dünya birliyinin nüfuzlu dövlətlərindən birinə çevrilməsi, Qarabağ münaqişəsinin həlli istiqamətində çoxşaxəli fəaliyyəti zəngin materiallar əsasında təhlil edilmiş və nəticələr çıxarılmışdır.

Kitabın elmi məsləhətçisi AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor İsmayıl Hacıyev, elmi redaktoru AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor Nizami Cəfərovdur.

***XQ***

# Özbəkistanda muğam təntənələri

**UNESCO və İSESCO-nun himayəsi altında Özbəkistanın Cizzax vilayətinin Zamin şəhərindəki "Zaminsoy" kompleksində keçirilən II Beynəlxalq Muğam Sənəti Forumu başa çatıb. İyunun 27-dən 30-dək keçirilən musiqi bayramına dünyanın 80-dən artıq ölkəsindən gələn 400-dən çox nümayəndə qatılıb.**



Forum çərçivəsində baş tutan "Muğam sənətinin inkişaf perspektivləri: nəzəri və praktiki əsaslar" mövzusunda beynəlxalq elmi-praktik konfransın sonuncu günündə Azərbaycan Milli Konservatoriyasının (AMK) prorektoru, professor Lalə Hüseynova və AMK-nın müəllim və doktorantı Fərdin Məmmədzadə "Azərbaycan muğam-dəsgahlarında bərdaşt bölməsi", Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə doktoru Sehranə Qasimi isə "Milli musiqi aspektində Azərbaycan muğamı" mövzularında məruzələr ediblər. Dünyada muğamın təbliği və populyarlaşması istiqamətində qarşıda duran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb, bir sıra təkliflər irəli sürülüb.



***

Musiqi yarışmasında ölkəmizi "Vətən" musiqi qrupu – xanəndələr Nisbət Sədrayeva, Səfalı Mirzəliyev, Ruslan Zərbəliyev (tar), Pərviz Fərhadov (kamança) və Səyavuş Kərimov (nağara) təmsil ediblər.

Festivalın beynəlxalq münsiflər heyətinin tərkibində Azərbaycan, Amerika Birləşmiş Ştatları, Türkiyə, Hindistan, Misir və Özbəkistan nümayəndələri təmsil olunublar. Musiqi bayramının sonuncu günü qaliblərin adları elan edilib. İran nümayəndəsi "Qran pri" alıb. "Vətən" musiqi qrupuna festivalın diplomu, müxtəlif hədiyyələr və pul mükafatı təqdim edilib.

Xatırladaq ki, I Beynəlxalq Muğam Sənəti Forumu 2018-ci il sentyabr ayında Özbəkistanın Şəhrisəbz şəhərində keçirilib və Azərbaycandan gələn "Muğam" qrupu 1-ci mükafata layiq görülüb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Özbəkistan, Zamin şəhəri**

**Niyazinin Mənzil-muzeyi – 30**

# Maestronun sənət yuvası

**Milli dirijorluğu ucaldan fitri istedad, ömür və sənət yolunun parlaq mənzərəsi və bir mənzildə dolaşan sənətkar ruhu... Düz 30 ildir ki, görkəmli dirijor və bəstəkar, Xalq artisti Niyazinin mənzil-muzeyinə daxil olan hər kəs bu auraya düşür.**



Burada unudulmaz sənətkara aid bütün bilgilər tarix üçün əbədi olaraq arxivləşdirilib. Mənzil-muzey xalqımızın maddi-mənəvi xəzinəsinin zəngin guşələrindəndir. Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyov 1958-ci ildən ömrünün sonunadək, yəni 1984-cü ilədək ömür-gün yoldaşı Həcər xanımla bu ünvanda yaşayıb. Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan ev-muzeyinin açılışı 1994-cü il sentyabrın 18-də ulu öndər Heydər Əliyevin iştirakı ilə gerçəkləşib.

Muzeyə daxil olanları öncə maestronun divardan asılan böyük portreti salamlayır. Memorial otaqlar, ekspozisiya zalı və qonaq otağında onun ölməz ruhunu hiss edirsən, bir daha bəstəkar-dirijorun sənət əzəmətinə şahid olursan.

Bu tarixi məkanın fəaliyyəti ilə yaxından tanış olmaq üçün muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Rza Bayramovla görüşdük. Müsahibimiz dedi:

– Muzey Niyazi irsinin toplanması, qorunması, tədqiqi, təbliği və nümayişi istiqamətində səmərəli fəaliyyətini davam etdirir. Hər bir muzeyin siması onun zəngin fondları və eksponatlarıdır. Muzeyin sərvəti isə onun fondlarındakı eksponatların dəyəri və qədəri ilə ölçülür. Son 2 ildə maestronun yaradıcılığına aid 47 material əldə etmişik. Bunlar, əsasən, fotolar, kitablar, proqramlar, sənədlər, afişalar, DVD və CD diskləridir. Təkcə 2024-cü ildə əldə olunmuş materialların sayı 24-dür. Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi Niyazi irsinin tədqiqi və təbliği istiqamətində də xeyli iş görüb.

Mənzil-muzeyində maestroya aid əşyalar, yaradıcılığını əks etdirən eksponatlara nəzər yetirmək bir ayrı ovqat yaradır. Əlbəttə, burada yer alan hər bir əşyanın mədəniyyətimizin təbliği baxımından böyük əhəmiyyəti var. Əsas amal bu əşya və eksponatlar vasitəsilə xalqımızın yüksək mədəniyyətə, incəsənətə malik olmasını təbliğ etmək, bütün bunları gələcək nəsillərə tanıtmaqdır.

Direktordan öyrəndik ki, muzey yaradılarkən maestroya aid əldə edilmiş materialların sayı 4707 ədəd olub. Hazırda isə muzeydə qorunub saxlanılan eksponat və sənədlərin sayı 6500-dəkdir. Bunlar əsasən, maestronun müəllif not əlyazmaları, proqramları, sənədləri, kitabları, afişaları, rəsm əsərləri, qramofon valları, fotoşəkilləri və şəxsi əşyalarından ibarətdir. Niyaziyə aid materiallar, eyni zamanda, Azərbaycan Tarix Muzeyində 273 ədəd, S.Mümtaz adına Azərbaycan Dövlət İncəsənət və Ədəbiyyat arxivində 1604 qovluqda 4905 ədəd, Dövlət Səs Yazıları Arxivində 214 ədəd saxlanılır. Ümumiyyətlə, Niyazi arxivinin zənginləşdirilməsi, tədqiqi və təbliği məqsədilə toplama işləri həmişə diqqət mərkəzində saxlanılır.

Ən son nəşr "Niyazi xatirələrdə" kitabıdır. 1987-ci ildə "İşıq" nəşriyyatında rus dilində çıxmış "Maestro Niyazi. Xatirələr, məqalələr, məktublar" kitabının "Xatirələr" bölməsini ilk dəfə olaraq muzey əməkdaşlar dilimizə çeviriblər və bu, 2023-cü ildə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi tərəfindən "Niyazi xatirələrdə" kitabı adı ilə nəşr edilib. Bu kitabda görkəmli ədəbiyyat və incəsənət xadimlərinin maestro haqqında xatirələri muzeyin zəngin kolleksiyasının fotomaterialları ilə birlikdə təqdim olunub. Niyazinin şəxsiyyəti və yaradıcılığı ilə və ümumilikdə, XX əsr Azərbaycan musiqi mədəniyyəti ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitaba, həmçinin Azərbaycan və Türkiyənin ünlü incəsənət xadimlərinin xatirələri əlavə edilib. Eyni zamanda, xatirələr toplusunun elektron variantı ilə muzeyin saytında tanış olmaq olar.

Muzeydə vaxtaşırı olaraq ölkəmizin musiqi həyatında baş verən əlamətdar hadisələrə həsr edilən tədbirlər, Niyazinin xatirə gecələri, sərgilər təşkil olunur. Bu gün muzeyə elmi-tədqiqat işləri üçün müraciət edənlərin sayı da yetərincədir. Muzeyin direktoru bu barədə də danışaraq dedi:

– Hər zaman Niyazinin fond materiallarından istifadə üçün muzeyə üz tutan hər bir şəxsə, təşkilata, elm və mədəniyyət müəssisələrinin nümayəndələrinə film, o cümlədən veriliş çəkilişi üçün müraciət edən televiziya şirkətlərinə müvafiq qaydada imkanlar yaradılıb. Muzeyə mütəmadi olaraq arxivlərdən istifadə etməklə tədqiqat işləri aparmaq üçün müxtəlif tədris, elm və mədəniyyət müəssisələrinin nümayəndələri – bəstəkarlar, musiqişünaslar, ali təhsil ocaqlarının bakalavr və magistrləri müraciət edirlər. Eləcə də hər il tələbələr muzeydə tədris təcrübəsi keçirlər. Dünya şöhrətli xarici qonaqlar – dirijorlar, bəstəkarlar da ölkəmizə səfərə gələndə unudulmaz həmkarlarını yad etməkdən ötrü muzeyə baş çəkirlər.

Son dövrlərdə məşhur opera müğənnisi, RF Xalq artisti Tamara Sinyavskaya, M.İ.Qlinka adına Ümumrusiya Musiqi Mədəniyyəti Muzeylər Birliyinin baş direktoru Mixail Brızqalov, dünya şöhrətli dirijorlar Yuri Temirkanov (Rusiya), Vyaçeslav Voliç (Belarus), Andris Vekumnieks (Latviya), Gürer Aykal, məşhur pianoçu İdil Biret (Türkiyə) və başqaları Niyazinin mənzil-muzeyində qonaq olublar.

Rza Bayramov onu da xüsusi vurğuladı ki, maestronun mənzil-muzeyinə dövlətimiz yüksək qayğı göstərilir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın mədəniyyətimizə və incəsənətimizə göstərdikləri yüksək diqqət muzey əməkdaşlarını daim ruhlandırır.

Mənzil-muzeydə bir daha əmin olduq ki, Niyazi sənəti əbədidir. Onun istedadı və yaradıcılıq fəaliyyəti əsl ümumxalq məhəbbəti qazanıb.

***Ceyhun ALIŞLI***
***XQ***

# Azərbaycanın adı var "imzalar içində"

**Avstriyanın tanınmış kurort turizm regionlarından olan Zalsburq əyalətinin Bad Hofqastayn qəsəbəsində 4-cü Millətlər Festivalı keçirilib.**




Mədəni müxtəlifliyi təbliğ edən festivalda ölkəmizi Zalsburq şəhərində fəaliyyət göstərən Avstriya Azərbaycanlıları Cəmiyyəti təmsil edib. Qırxdan çox millətin birgə yaşadığı, yay və qış turizmi, kurortları və füsunkar təbiəti ilə tanınan, Qastayn dərəsində yerləşən qəsəbədəki festivalın məqsədi xalqların milli mətbəxi, musiqi və rəqslərini nümayiş etdirmək, regionun multikultural dəyərlərini zənginləşdirməkdir.

Zalsburq şəhərində yerləşən KULTUR.GUT təhsil təşkilatının yerli bələdiyyə və Turizm Birliyi ilə birgə hazırladığı festivalda Azərbaycan guşəsi xüsusi maraqla qarşılanıb. Guşədə Azərbaycan milli xörəkləri və şirniyyatları, eləcə də milli istehsalımız olan məhsul və suvenirlər təqdim olunub. Milli geyimdə festivala qatılan Avstriya Azərbaycanlıları Cəmiyyətinin üzvləri yerli sakinlər və turistlərə ölkəmiz, onun zəngin mədəniyyəti, musiqisi, mətbəxi barədə məlumat verib, kitab və broşürlər hədiyyə ediblər. Soydaşlarımızın təqdimatında "Uzundərə" və "Naz eləmə" rəqsləri xüsusi maraqla qarşılanıb.

Tədbirin təşkilatçıları sonda ən maraqlı təqdimata görə Azərbaycan guşəsini 1-ci yerlə mükafatlandırıb və regionun mədəni müxtəlifliyinin tanıdılmasına həsr edilmiş festivala verilən töhfəyə görə təşəkkür ediblər.

***XQ***

# Hər kitab bir dünyadır

## "Məfkurə" hekayətləri

***Yazıçı-alim Sadıq Qarayevin 5-ci kitabı olan "Azərbaycançılıq məfkurəsi" işıq üzü görüb.***

Altı fəsildən ibarət kitabda müxtəlif janrlarda yazılmış əsərlər yer alıb. İlk fəsil hekayə və esselərdən ibarətdir. Burada yazıçı janr, üslub və mətn quruluşu, elmlə bədiiliyin vəhdəti baxımından yeniliklər yaradıb. Müəllifin "Düzülüş və mövcudluq", "Ziddiyyətin çalarları", "Bağban və yol" hekayə və esseləri poeziyanın nəsrlə vəhdətinin yeni formada təzahür nümunəsi olmaqla yanaşı, bu əsərlərdə cəmiyyət və təbiətin harmoniyası, insanın bəndə, bəşər övladı və vətəndaş kimi daxili aləmi, onun müqəddəs vəzifələri bir sıra fəlsəfi baxış nöqtələrindən müzakirə edilir.




Kitabın 2-ci fəslində azərbaycançılıq məfkurəsinin milli dövlətçiliyimizin, yeni milli hədəflərimizin işıqlı yolunun zəfərlərimizin hərəkətverici qüvvəsi olduğunu izah edən, əsaslandıran elmi-fəlsəfi bədii yazılar nümayiş olunur. Növbəti fəsillərdə müəllifin müxtəlif elmi düşüncələrini, fəlsəfi və ictimai fikirlərini bədii təxəyyüllə təsvir edən, ayrı-ayrı janrlı yazılar mövcuddur. Sonuncu, 5-ci fəsildə yazıçının sadə, mənalı, bəzi hallarda aforizm səviyyəsində səslənə biləcək fikirləri toplanıb.

## Qarabağ savaşının bədii "Açar"ı

***Yazıçı Natəvan Dəmirçioğlunun son 10 ildə üzərində işlədiyi "Açar" romanı "Təhsil" nəşriyyatında çap olunub.***

Birinci və İkinci Qarabağ müharibələri qəhrəmanlarının obrazını yaradan, 44 günlük Vətən müharibəsi və Zəfər lövhələrini realist üslubda təqdim edən proza nümunəsi bədii keyfiyyəti ilə də diqqət çəkir.

Yüksək dizayna və poliqrafik keyfiyyətə malik roman təkcə müharibə ədəbiyyatı nümunəsi deyil, eyni zamanda, müasir, psixoloji, oxunaqlı nəsr nümunəsidir. Obrazlar sistemi real həyatdan götürülən, şəhid və qazilərimizin prototipini yaradan əsərdə hadisələrin fövqündə dayanan Ali Baş Komandan obrazı da diqqət çəkir.




## Masallının xalq "misalları"

***Folklorşünas alim Füzuli Bayatın "Masallı folklor örnəkləri" kitabının 3-cü cildi çapdan çıxıb. Xalqımızın əvəzsiz mənəvi dəyərlərini qorumaq, gələcək nəsillərə çatdırmaq baxımından bu nəşr böyük əhəmiyyət kəsb edir.***

Cənub bölgəsinə məxsus olan və əsrlərcə yol keçib gələn adət-ənənələr, folklor nümunələri – laylalar, oxşamalar, bayatılar, əfsanələr, rəvayətlər, lətifələr, söyləmələr, alqış və qarğışlar, atalar sözləri, məsəllər, nəğmələr və rəqslər fədakarlıqla toplanaraq bu nəşrlərdə ipə-sapa düzülüb.

Müəllif bildirir ki, "Masallı" toponiminin bir yozumu da folklor nümunəsi olan "Misallar"la bağlıdır.Yəni "məsəlli, misallı" diyar,"məsəl çəkənlərin" bol olduğu bir yurd yeridir. Müxtəlif zamanlarda bu diyarda yaşayan insanlar şifahi xalq yaradıcılığının ən gözəl nümunələrini yaradıblar.




Elə kitabın təqdimat mərasimində yerli "Halay" xalq folklor kollektivinin çıxış etməsi də bir növ bu fikri təsdiqləyib. Onu da qeyd edək ki, artıq kitabın 4-cü cildinin də nəşri üçün folklor nümunələri toplanır.

***Ə.DOSTƏLİ***
***XQ***

# AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI
# QƏRAR

**№ 3-27/3-7-6/2024/1**

**Bakı şəhəri** **11 iyun 2024-cü il**

**Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının Kollegiyasının 2013-cü il 27 fevral tarixli Q/01 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gəminin səfərə çıxa bilməsi üçün heyətin minimal tərkibi haqqında Əsasnamə"də dəyişiklik edilməsi haqqında**

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 47 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 may tarixli 263s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

**1.** Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının Kollegiyasının 2013-cü il 27 fevral tarixli Q/01 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gəminin səfərə çıxa bilməsi üçün heyətin minimal tərkibi haqqında Əsasnamə"də dəyişiklik təsdiq edilsin (əlavə olunur).

**2.** Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**3.** Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri**
**Rəşad Nəbiyev**

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 11 iyun tarixli 3-27/3-7-6/2024 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının Kollegiyasının 2013-cü il 27 fevral tarixli Q/01 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gəminin səfərə çıxa bilməsi üçün heyətin minimal tərkibi haqqında Əsasnamə"də dəyişiklik:**

Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının Kollegiyasının 2013-cü il 27 fevral tarixli Q/01 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gəminin səfərə çıxa bilməsi üçün heyətin minimal tərkibi haqqında Əsasnamə"nin 6.36-cı bəndində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

# Qətər görüşü "Taliban"ın tanınmasıdırmı?

**BMT-nin himayəsi altında Əfqanıstan üzrə çoxtərəfli danışıqların iştirakçıları Qətərdə toplaşıblar. Bu formatda keçirilən görüşdə ilk dəfə olaraq "Taliban" hərəkatının nümayəndə heyəti iştirak edir. Söhbət beynəlxalq səviyyədə tanınmadan – 2021-ci ilin avqustundan Əfqanıstanı de-fakto idarə edənlərlə qarşılıqlı əlaqə modelinin hazırlanması cəhdindən gedir. Kabil sosial-iqtisadi problemlərin həlli və sanksiyaların aradan qaldırılması üçün kömək gözlədiyi halda, dünya ictimaiyyəti artan terror təhlükəsindən narahatdır.**




Ötən bazar günü axşam Dohada nümayəndə heyətlərinin birgə şam yeməyi ilə başlayan BMT-nin Əfqanıstan üzrə iki günlük konfransında 25 ölkədən diplomatlar iştirak edir. BMT-nin Baş katibi Antonio Quterreşin təşəbbüsü ilə ötən ilin mayında və bu ilin fevralında keçirilən Əfqanıstan üzrə əvvəlki iki konfransdan fərqli olaraq, müzakirə faktiki Əfqanıstan hakimiyyətinin nümayəndələrinin iştirakı ilə keçirilir. Belə ki, "Taliban" hərəkatının nümayəndə heyəti Dohaya gəlib. Altı nəfərdən ibarət nümayəndə heyətinə hərəkatın rəsmi nümayəndəsi Zəbihullah Mücahid başçılıq edir. Bundan əvvəl "Taliban" BMT-nin himayəsi altında Doha görüşlərində iştirakdan imtina edərək, Qətərə Kabildə hakimiyyəti dəstəkləməyən əfqan vətəndaş fəallarının dəvət edilməsi və qadınların vəziyyəti ilə bağlı sual vermək cəhdləri ilə razılaşmadığını bildirib. Lakin bu dəfə tərəflər kompromisə nail ola biliblər. Dohada keçirilən görüşün təşkilatçıları Əfqanıstanda qadınların vəziyyəti ilə bağlı həssas məsələni müzakirəyə çıxarmamağa razılaşıblar. Eyni zamanda, konfrans iştirakçıları hələ də Əfqanıstan vətəndaş cəmiyyətinin nümayəndələri, o cümlədən hüquq müdafiəçiləri və qadınlarla görüşmək niyyətindədirlər.

"Biz danışıqlar prosesini qurmağa və vacib məsləhətləşmə mexanizmini qoruyub saxlamağa çalışırıq. Biz hər bir görüşün bu prosesdə, xüsusən də etibarın hələ kifayət etmədiyi bu ilkin mərhələdə nə qədər vacib olduğuna dair realist olmalıyıq. Bu prosesin həqiqətən başlaması üçün de-fakto hakimiyyətin konfransında iştirak etmək lazımdır", - BMT-nin Əfqanıstana Yardım Missiyasının rəhbəri Roza Otunbayeva vurğulayıb. Onun sözlərinə görə, "belə qarşılıqlı əlaqə Əfqanıstan rejiminin legitimliyi və ya normallaşması demək deyil". Danışıqlar prosesinin məqsədi, xanım Otunbayevanın bildirdiyinə görə, "Kabilin de-fakto hakimiyyətinə beynəlxalq birliyə yenidən inteqrasiya etməyə imkan verəcək qərarlar qəbul etmək üçün güclü stimul yaratmaqdır". Rusiya tərəfinin "Taliban"ı Rusiya Federasiyasında qadağan olunmuş terror təşkilatları siyahısından çıxarmaq niyyəti ilə bağlı bəyanatlarına münasibət bildirən Roza Otunbayeva deyib ki, bu, fakt olacaq, burada müzakirə olunacaq heç nə yoxdur: "Başa düşürəm ki, çox yaxında fərman imzalanacaq və "Taliban" terror təşkilatları siyahısından çıxarılacaq. Oxşar addımı bildiyiniz kimi, Qazaxıstan da atmışdı. Bu, bu ölkələrin siyasi qərarıdır, biz bunu, sadəcə, fakt kimi qəbul edəcəyik".

Kabillə beynəlxalq ictimaiyyət arasında yaxınlaşma prosesi Moskva və onun müttəfiqlərinin Əfqanıstanın de-fakto hakimiyyəti ilə qarşılıqlı əlaqə yaratmaq üçün atdığı son addımlarla intensivləşir. Rusiyanın xarici işlər naziri Sergey Lavrov iyunun 21-də deyib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv olan bütün ölkələr "Taliban" hərəkatı hökuməti ilə layihələrin həyata keçirilməsinə yönəlmiş daimi dialoqun qurulmasının zəruriliyi barədə razılığa gəliblər. Eyni zamanda, KTMT-nin iclasının yekunları üzrə çıxış edən S.Lavrov Əfqanıstan ərazisindən təhdidlərin davam etməsinə xüsusi diqqət çəkərək vurğulayıb ki, ölkədə "İslam Dövləti", "Əl-Qaidə" və onlarla bağlı olan qurumlarının yuvaları və döyüş qabiliyyətli dəstələri qorunub saxlanılır. ""Taliban" hökuməti bu terror qruplaşmalarına qarşı mübarizə aparır. Biz bu mübarizəyə kömək etməyi prinsipial olaraq vacib hesab edirik",-deyə nazir qeyd edib.

Pakistan nümayəndəsi Asif Durrani Dohada keçirilən konfrans ərəfəsində bəyan edib ki, Əfqanıstandan gələn terror təhlükəsi getdikcə kəskinləşir. "Biz Əfqanıstanın müvəqqəti hökuməti ilə dialoqu asanlaşdırmaq üçün Dohada Əfqanıstan üzrə üçüncü görüşü gözləyirik. Ümid edirik ki, Əfqanıstanın müvəqqəti hökuməti ölkədəki terror sığınacaqlarını aradan qaldırmaq üçün təcili addımlar atacaq".

***S.ELAY***
***XQ***

# Bakı səhnəsində "Fiqaronun toyu"



**Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında fransız dramaturqu Pyer Bomarşenin 1784-cü ildə yazdığı "Fiqaronun toyu" pyesi əsasında hazırlanmış eyniadlı tamaşanın premyerası olub. Motsartın "Fiqaronun toyu" operasının musiqilərindən istifadə olunan səhnə əsərinin quruluşçu rejissoru Nicat Kazımov, quruluşçu rəssamı Mustafa Mustafayev, musiqi tərtibatçısı Zaur Rəşidovdur.**

Əyləncəli və dinamik səhnələr, sevgi intriqaları ilə zəngin olan tamaşada dövrün aristokrat təbəqəsi tənqid edilir. Varlı və zəhmətkeş təbəqənin qarşıdurması ilə başlanan tamaşada hadisələr müxtəlif formalarda cərəyan edir. Qulluqçu Fiqaro evin xadiməsi Süzanna ilə evlənməyə hazırlaşır. Lakin onlara xeyirxahlıq edən ev sahibi qraf Almavivanın Süzannaya gözü düşür. Toy günü ona sahib olmağa çalışır.

Tamaşada rolları Əməkdar artistlər Kəmalə Müzəffər, İlham Əsədov, Rasim Cəfər, Sevinc Rzayeva, Elnur Hüseynov, aktyorlar Manaf Dadaşov, Sənan Kazımov, Bəhram Həsənov, Zülfiyyə Alhüseynova, Günel Məmmədova, Aydan Həsənzadə, Təhminə Məmmədova, Elşən Şıxəliyev, Ceyhun Məmmədov, Fəridə Qurbanova və başqaları ifa edirlər.

Qeyd edək ki, görkəmli fransız dramaturqu Pyer Bomarşe Fransa burjua inqilabı ərəfəsində aristokratların silki imtiyazlarına və hökmranlığına qarşı çıxış edirdi. O, "Fiqaronun toyu" komediyasında zadəganların bekarçılığını, miskinliyini və yelbeyinliyini göstərərək zirək, diribaş və ağıllı nökər obrazını yaratmışdı. Bu əsər tamaşaya qoyulduqdan sonra Bomarşeni həbs etmişdilər. Lakin onun şöhrəti o qədər böyük idi ki, bir neçə gündən sonra həbsxanadan buraxmalı olmuşdular.

***Fidan SALMANOVA***
***XQ***

# "Qara blok" Parisi dağıdıb

**Parisdə parlament seçkilərinin ilk nəticələrinin elan edilməsindən sonra başlayan nümayişdə "Qara blok" ("Black bloc" - red) hərəkatının radikalları kafelərin vitrinlərini sındırmağa və zibil qutularını yandırmağa başlayıblar.**

"Euronews" yazır ki, hadisələr bazar günü axşam saat 20:00-dan etibarən parlament seçkilərinin ilk turunun nəticələri məlum olduqdan sonra paytaxtdakı Respublika Meydanında baş verib. Əraziyə polis əməkdaşları göndərilib.

Nümayiş əvvəlcə sakit keçib, iştirakçılar səsvermənin nəticələrindən narazılıqlarını ifadə edərək antifaşist şüarlar səsləndiriblər. Sonra onlara hərəkatın radikal gəncləri qoşulub. Onlar atəşfəşanlığa və məşəl yandırmağa, daha sonra kafelərin vitrinlərini dağıtmağa və zibil qutularını yandırmağa başlamışlar. Polis buna cavab olaraq gözyaşardıcı qazdan istifadə edib.

***XQ***

# Mərzə çayı – ərit piyi

**Elmi adı bibəriyyə olan mərzədən (bəzi bölgələrdə buna ətotu deyirlər) hazırlanan çay insanı arıqladır, görünüşünü dəyişir, dərisinə parlaqlıq verir. Bu fikri rusiyalı dietoloqlar jurnalistlərə açıqlamalarında bildiriblər.**



Mütəxəssislərin fikrincə, xalq təbabətində bibəriyyəni həmişə "yağ yandıran bitki" kimi tanıyıblar. Ondan hazırlanan çay tərkibindəki bioloji aktiv maddələr hesabına maddələr mübadiləsini sürətləndirir. Bu da piy toxumasının yanmasına səbəb olur.

Mərzədən hazırlanan çay, həmçinin sidikqovucu xüsusiyyətilə seçilir. Meteorizm (bağırsaqlarda qaz yığılması) və köp zamanı həmin çaydan istifadə edilir.

Bibəriyyə çayını səhərlər acqarına və yaxud gündə bir neçə dəfə, hər qida qəbulundan sonra içmək faydalıdır.

***Z.HÜSEYNLİ***
***XQ***


# "Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC-nin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

**manatla**

| Bölmələrin, maddələrin adları | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| Torpaq, tikili və avadanlıqlar | 99 110,60 | | 105 585,70 | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **99 110,60** | | **105 585,70** |
| Ehtiyatlar | 823 737,79 | | 823 737,79 | |
| Qısamüddətli debitor borcları | 1 252,31 | | 1 252,31 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 695,50 | | 1 252,42 | |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **825 685,60** | | **826 242,52** |
| **CƏMİ AKTİVLƏR** | | **924 796,20** | | **931 828,22** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 365 452,00 | | 365 452,00 | |
| Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət | 1 382,72 | | 1 382,72 | |
| Kapital ehtiyatları | 321 638,19 | | 321 638,19 | |
| **CƏMİ KAPİTAL** | | **688 472,91** | | **688 472,91** |
| Qısamüddətli kreditor borcları | 234 267,74 | | 221 370,02 | |
| Sair qısamüddətli öhdəliklər | 2 055,55 | | 21 985,29 | |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **236 323,29** | | **243 355,31** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **236 323,29** | | **243 355,31** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **924 796,20** | | **931 828,22** |

**Məcmu gəlirlər və zərər haqqında hesabat**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 77 535,04 | 72 602,97 |
| Sair əməliyyat gəlirləri | 120 608,34 | 106 610,14 |
| İşçi heyəti üzrə xərclər | 97 666,70 | 93 378,56 |
| Amortizasiya xərcləri | 7 154,88 | 8 706,44 |
| Sair əməliyyat xərcləri | 91 036,77 | 90 543,43 |
| Əməliyyat mənfəəti (zərəri) | 2 285,03 | (13 415,32) |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | 2 285,03 | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 0,00 | (13 415,32) |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | | |
|---|---|---|
| İlin əvvəlinə kapital | 688 472,91 | 688 472,91 |
| İlin sonuna kapital | 688 472,91 | 688 472,91 |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| | | |
|---|---|---|
| -əsas vəsaitlərin amortizasiyası | 7 154,88 | 8 706,44 |
| ***Dövriyyə kapitalında dəyişikliklər*** | **7 154,88** | **8 706,44** |
| -qısa müddətli debitor borclarda artım/azalma | - | 474 306,47 |
| -kapital ehtiyatları üzrə | - | (411 339,42) |
| -qısamüddətli kreditor borclarında artım/azalma | 12 897,72 | (62 584,47) |
| -sair qısamüddətli öhdəliklər üzrə | (19 929,74) | (8 662,49) |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(7 032,02)** | **(8 279,91)** |
| -Əsas vəsaitlərin alınması | (679,78) | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(679,78)** | |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artımı/azalması** | **(556,92)** | **426,53** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **1 252,42** | **825,89** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **695,50** | **1 252,42** |
| **İl ərzində artım/azalma** | **(556,92)** | **426,53** |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**
**"Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC-nin rəhbərliyinə**
**Şərti müsbət rəy**

Mən, "Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC-nin, (VÖEN 2000303761), (bundan sonra - cəmiyyət) 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Məncə, hesabatımızın "şərti müsbət rəy üçün əsaslar" bölməsində əks etdirilən məsələnin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini kommersiya təşkilatları üçün Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Fəaliyyətin fasiləsizliyinə dair əhəmiyyətli qeyri-müəyyənlik.**

Diqqət koronavirus infeksiyasının yayılması şəraitində və bunun iqtisadi nəticələri ilə bağlı şirkətin fəaliyyətinin davam etdirilməsinə aid qeyri-müəyyənlik faktorlarına yönəldilməlidir. Hazırki şəraitdə assosiasiyanın öz fəaliyyətinin fasiləsizliyini təmin etmək sahəsində əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur. Bu şəraitlə əlaqədar mən öz mülahizələrimə dəyişikliklər etməmişəm.

**Şərti müsbət rəy üçün əsaslar.**

Cəmiyyət maliyyə hesabatlarını Beynəlxalq Maliyyə Hesabatları Standartlarında müəyyən edilmiş formalara müvafiq tərtib etməlidir. Təqdim olunmuş hesabatın həmin sənədlərə tam müvafiqliyi təmin olunmalıdır.

Mən, auditi beynəlxalq audit standartlarına (BAS-lara) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən, Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid etik normaların tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Məncə, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti.**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab edilir.

**"AUDIT EXPERT TV" MMC-nin direktor auditoru: Talıbov Vidadi Musa oğlu**
**20 may 2024-cü il.**



# "Bakavtoservis" ASC səhmdarlarının nəzərinə!

15 avqust 2024-cü il saat 12.00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2023-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyəti haqqında icra orqanının hesabatı.
2. Cəmiyyətin direktorlar (müşahidə) şurasının sədrinin və üzvlərinin seçilməsi.

Əlaqə telefonu – (012) 478 76 07.

Ünvan – Bakı, Suraxanı rayonu, Zığ qəsəbəsi, Zığ-Suraxanı yolu, 2-ci km 10.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 135 (30538) 2 iyul 2024-cü il, çərşənbə axşamı

Avrofutbol – 2024






# Almaniya səmasında şimşəklər çaxsa da...

## Meydanlarda hələ ki, "tufan qoparan" matç görmürük

### İsveçrə çempiona çıxışı göstərdi

Səmimi etiraf edək ki, hələlik heç bir komanda Avro-2024 turnirində parlaya bilməyib. Lakin bu qonşu ölkələr son illər kulminasiya nöqtəsinə çatan 120 illik rəqabətlərini bərpa etdikdə, çətin ki, hazırkı formanın o qədər də böyük əhəmiyyəti olsun.

Həqiqətən, Avropa çempionatının qrup mərhələsinin oyunları, bir neçə matç istisna olmaqla, çox darıxdırıcı və maraqsız keçdi. 1/8 final mərhələsinin elə ilk oyunları ilə əsl Avropa çempionatı başladı. Pley-offun ilk – İsveçrə–İtaliya və Almaniya – Danimarka oyunları futbol azarkeşlərinə əsl həyəcan yaşatdı. Bu mərhələnin və bütövlükdə çempionatın sürprizi elə ilk oyunda tarixə düşdü. Avro-2024-ə çempion statusunda gələn italiyanlar bu titulu qorumaq əzmi ilə meydana çıxsalar da, gözlənilən "tamaşa"nı oynaya bilmədilər. Nə qrup mərhələsində, nə də 1/8 finalda. Appeninləri çempion edən baş məşqçi Roberto Mançinini əvəz edən Luçano Spaletti İtaliyaya titul qazandırmış heyəti büsbütün dəyişmişdi. "Yaşlıların" bir çoxu artıq bu Avropa çempionatını evdə oturub televiziya ekranlarından izləyirdilər.

Artıq eks-çempionlar adlandıra biləcəyimiz çempionlar da, İtaliya futbolunun fanatları da "Skuadra adzurra"nı ən yaxşı komandalar sırasına daxil etmişdilər. Zarafat deyil, onlar cəmi 3 il əvvəl qızıl medallara sahib olublar. UEFA-nın əmsalları cədvəlində isə İtaliyanın A seriyasının əks-sədası dünyanı dolaşır. Avrokuboklarda uğurla çıxış edən italyanlar son iki mövsümdə ən çox xal toplayan klublar sırasında yer alırlar. Ümumiyyətlə, belə bir illüziya yaranmışdı ki, İtaliya futbolunda hər şey qaydasındadır.

Ancaq İsveçrə ilə matçın 90 dəqiqəsini izləmək kifayət etdi ki, heç də çox şeyin yaxşıya yaxın olmadığı tam aydın olsun. Bu, həqiqətən, utancverici bir mənzərə idi. Əslində onlar qrup mərhələsində də çox sönük bir oyun nümayiş etdirdilər. Amma Luçano Spalettinin komandası möcüzəvi şəkildə pley-offa yüksəldi. İtalyanlar Xorvatiya ilə görüşün əsas vaxtına əlavə edilmiş səkkizinci dəqiqədə müdafiəçi Kalafiorinin çılğın çıxışı ilə xilas oldular. İsveçrə ilə görüşdə isə onları heç nə xilas etmədi.

İndiki İtaliya millisində oyununa baxılası futbolçu yoxdur. Əlbəttə, Donnarumma istisna olmaqla. Gör iş nə yerə çatıb ki, biz ilk növbədə meydanda top qovan oyunçulardan yox, qapıçıdan danışırıq. Səviyyəyə görə olmasa da, heç olmasa nizam-intizam və taktika ilə İtaliya millisi istədiyinə çatmalı idi. Bunlar həmişə "Skuadra adzurra"nın "kozırlar"ı olub, amma bu dəfə onları da görmədik. Əlbəttə, İsveçrə bu turnirin favoriti deyil, lakin italyanlarla müqayisədə Davidin yanında Qoliafa bənzəyirdilər. Murat Yakının yetirmələri meydanda daha sürətli və daha yaxşı təsir bağışladılar.

Əsl futbol azarkeşi kimi İtaliyanın acizliyi məni də üzdü. Uzun müddət idi ki, belə zəif və biabırçı İtaliya komandası görməmişdik. Sözün əsl mənasında, İtaliya futbolu hazırkı Avropa çempionları üçün biabırçılıqdır. Fanatlar dəlicəsinə deyirlər ki, komandanın turnirə gəlməməsi daha yaxşı olardı. Yığma 2022-ci il Dünya çempionatında iştirak etmədi. Amma heç olmasa onun nüfuzuna elə bir zərər gəlmədi. Necə deyərlər, komanda yox idi - təəssürat da olmadı. İndi "futbol dəlisi" olan ölkədə nələrin baş verdiyini təsəvvür etmək belə mümkün deyil. Sadəcə mediada dərc edilən materiallara nəzər yetirmək kifayətdir ki, İtaliya ictimaiyyətinin gərginlik dərəcəsini görəsən. Spalettini və onun komandasını acı məğlubiyyətdən sonra, sözün əsl mənasında tarimar edirlər. Populyar İtaliya qəzetlərinin başlıqlarına diqqət edin: "Tuttosport": "İtaliyada fəlakət, İsveçrə hökmranlıq edir", "La Gazzetta dello Sport": "İtaliya simasını itirir! İsveçrə oynayır və qələbə qazanır", "La Repubblica": "Son dövrlərin ən eybəcər yığma komandası", "Corriere dello Sport": "İtaliyanın iflası: onlar passiv və sönük idilər", "Il Fatto Quotidiano": "İtaliya yığması Spaletti ilə oyunsuz və ürəksiz idi".

"La Stampa": "İsveçrə "Adzurri"ni alçaldır, indi İtaliya da Avropa futbolunda sıradan biridir" sərlövhəsi ilə dərc etdyi məqalədə yazır: "Hətta yüksək səslə elan olunmayan bir fəlakətin xronikası: İtaliya məyusedici ilk hissədən və bir qədər adekvat ikinci hissədən sonra haqlı olaraq Avro-2024-dən kənarda qalır. Nəticə məğlubiyyətdir. Xoş təəssürat yaradan və İtaliyanı alçaldan İsveçrə futbolun müasir simasını bizə göstərdi və milli komandaya sahib olmağın nə demək olduğunu izah etdi". Beləliklə, 2020-ci il Avropa çempionu İtaliyanın futbol hekayəsi biabırçılıqla başa çatır və onlar titulu "təhvil verib" Almaniyanı tərk edirlər. İsveçrə çempiona Avro-2024-dən çıxışı göstərir.

### Tufan və bəxtsiz Andersen

Turnirin ev sahibləri Almaniya millisi pley-offda Danimarka ilə qarşılaşdı. Danimarkalılar təhlükəli rəqibdirlər, lakin onlar 2021-ci ilin iddialı və motivasiyalı komandası ilə müqayisədə, 3 il əvvəlki komandalarının solğun kölgəsi kimi görünürdülər. Kasper Yulmannın komandası ruhuna uyğun olaraq, qrup mərhələsində kvartetdəki bütün qonşuları ilə 3 boz heç-heçə oynayıb ikinci yerdən pley-off mərhələsinə yüksəldilər. Bununla almanları öz doğma torpaqlarında qorxutmaq elə də asan məsələ deyildi. Buna baxmayaraq, maraqlı oyun baxımından matçın ilk yarısında daha çox Danimarka millisinin oyunu diqqət çəkdi. Almanların sürətli hücuma keçdiyi ilk on dəqiqədən sonra oyun sabit tempə düşdü. Sonra isə tufan və yağış səbəbindən tamamilə dayandırıldı..!

Artıq bir neçə gün idi ki, Almaniyada hökm sürən yağışlı hava qarşılaşmanın keçirildiyi Dortmund şəhərinə də çatmışdı. Başlayan tufan gözəl görünürdü – leysan yağış, göyün hər tərəfində çaxan şimşək tamaşaçıları qorxutmadı - amma UEFA belə havada matçların keçirilməsinin əleyhinə olduğu üçün oyun 33-cü dəqiqədə dayandırıldı.

Fasilə təxminən 25 dəqiqə davam etdi. Bəlkə də bu, ekranlarda əyləşənlərin arenada iştirak edənlərə həsəd aparmadığı yeganə an idi. Stadionun sudan zəif qorunduğu tam ortada idi. Bu, heç alman dəqiqliyinə bənzəmirdi. Ona görə damın altına girməyən tamaşaçılar təcili olaraq gizlənmək üçün yer axtarmalı oldular.

Tezliklə yağış səngidi və oyun davam etdi. Düzdür, demək olar ki, yarım saatlıq fasilə bütün tempi aşağı saldı – matçda sürətli oyunu ikinci hissəyə qədər gözləmək lazım gəldi. Belə oyunu, həqiqətən, gözləməyə dəyərdi, çünki fasilədən sonra hər şey daha şən keçdi. 48-ci dəqiqədə cərimə meydançasına yol tapan Dane Andersen hesabı açdı. Lakin VAR-ın 2 dəqiqə çəkən yoxlamasından sonra oyundankənar vəziyyət səbəbindən qol ləğv edildi. 51-ci dəqiqədə isə elə həmin Andersen öz qapısına penalti gətirdi. Haverts sol küncə dəqiq zərbə ilə almanları irəli çıxardı.

Bundan sonra alman maşınını dayandırmaq mümkün olmadı. Havertz və "Qarabağ" klubunun qəniminə çevrilmiş Virtz ən gözəl anları boşa verdilər. Haverts görüşün sonunda qol vursa da, bunu ofsayddan etdi. Amma matçın ən yaxşılarından olan gənc ulduz Musiala şansını əldən vermədi və sürətlə cərimə meydançasına daxil olaraq Kasper Şmeyxeli cəzalandırmağı bacardı və turnirin ən gözəl qollarından birini vurdu.

2:0 və tufan - Almaniyanın bu 1/8 finaldan əldə etdiyi hər şey bundan ibarət oldu. Əslində bu qələbə elə də asan olmadı. Danimarkalıların almanları gərginləşdirmədiyini söyləmək doğru olmazdı. Lakin Nagelsmannın komandası ustalıq və böyük əzmkarlıq nümayiş etdirdi. Beləcə, "Bundestim" Avropa çempionu kubokuna daha bir addım yaxınlaşdı.

### Cud Bellinqem möcüzəsi

1/8 final oyunlarının keçirildiyi ikinci gün Avro-2024-ün yeni sensasiyası yaşanmağa çox yaxın oldu. Slovakiya millisi İvan Şransın qolu sayəsində bu sensasiyanı qələbəyə bir neçə saniyə qalmış əldən verdi. Amma bu sensasiyanın baş tutmasına İngiltərənin ulduzu Cud Bellinqemin imkan vermədiyini demək daha doğru olardı.




Əsas vaxta əlavə edilmiş 5-ci dəqiqədə Cud Bellinqem inanılmaz aşırma zərbə ilə slovakları çox pərişan edən qol vurdu. Heç-heçədən sonra əlavə 15 dəqiqəlik iki hissəli vaxt isə elə ilk dəqiqədən "şirlərə" işlədi. "Ekstra taym"ın birinci hissəsinin 51-ci saniyəsində Harri Keynin başla vurduğu zərbə İngiltərəyə dramatik qələbə və 1/4 finala vəsiqə qazandırdı. Görünür, Slovakiya Bellinqemin zərbəsindən sonra hələ özünə gələ bilməmişdi. Slovakların qalan 30 dəqiqədə hesabı dəyişmək və sensasiya yaratmaq üçün etdiyi bütün cəhdləri boşa çıxdı.

Bu matç haqqında elə də çox danışmaq istəməzdik. Çünki mütəxəssislər güman edirdilər ki, İngiltərə Slovakiyanı çox asanlıqla keçəcək. Amma bu, heç də asan olmadı və azarkeşlər çox dramatik bir matç seyr etdilər.

İngiltərənin futbol jurnalisti Co Terri həmyerlilərinin oyununu belə qiymətləndirib: "Əslində, bu qələbə qətiyyən təhlilə gəlmir. Yaxşı oynayan, enerjili və nizam-intizamlı Slovakiyanın yanında İngiltərə solğun görünürdü. İngilislərin 1/4 finala yüksəlməsini Bellinqemin məğlub olmamaq kimi sarsılmaz istəyi ilə izah etmək olar. Nəticədə o, sözün əsl mənasında son anda sözünü dedi və sonra Keyn qələbəyə oxşar münasibət göstərdi.

Avropa çempionatında İsveçrədən sonra sensasiya etməyə 2 dəqiqəyə yaxın vaxtı qalan, lakin bunu bacarmayan Slovakiya millisinin şərhçisi Rastislav Qribik isə komandasının oyununa qiymət verərkən deyib: "Rəqibimiz qarşısında heç bir qorxu yox idi. Əksinə - ilk dəqiqədən son dəqiqəyə kimi mübarizlik və komanda oyunu gördük. Slovakiya İngiltərəni məhz bu cür üstələməyə çalışırdı və buna nail oldu. Şransın turnirdəki üçüncü qolu sayəsində slovakiyalılar, Bellinqemin qəfil hesabı bərabərləşdirdiyi vaxta qədər öz arzularının reallaşacağına əmin idilər. Slovakiya özünə gəlməmişdən Keyn daha bir qol vurdu və bizim tarixdə böyük turnirin ilk 1/4 finala çıxmaq arzumuz sona çatdı. Əlavə vaxtda böyük səy göstərməsinə baxmayaraq, Slovakiya Avropa çempionatından gözləniləndən daha çox şey əldə etdi".

Beləcə, 1/4 finala vəsiqə alan üçüncü yığma komanda da İngiltərə millisi oldu.

Bu matç tarixə belə düşdü:

- İngiltərə 2 dəfə ardıcıl Avropa çempionatının 1/4 finalına çıxır.
- İngiltərə millisinin oynadığı pley-off oyunlarının 10-dan 7-də əlavə vaxta ehtiyac olub.
- Harri Keyn böyük turnirlərin son 7 pley-off matçlarında 7 qol vurub.
- Slovakiya ilə oyun Keynin İngiltərə yığma komandasında 79-cu matçıdır və bu göstəriciyə görə o, Piter Şiltonun milli rekordunu təkrarlayıb.
- Şrans Avropa çempionatlarında Slovakiya millisinin tarixində ən yaxşı qol vuran futbolçudur.
- Slovakiya bu Avro-2024-də oynadığı bütün 4 oyunun hər birində birinci hissədə qol vurub.

### İspaniya Gürcüstanı pley-offa çıxmağa peşman etdi

İyunun 30-da saat 23:00-da İspaniya komandası ilə Avro-2024-ün super sensasiyasına imza atan Gürcüstan millisi qarşılaşdı. Qrup mərhələsində qapısında bircə qol belə görməyən ispanlar artıq 18-ci dəqiqədə Gürcüstana 0:1 hesabı ilə uduzurdular. Amma bu qolu gürcülər yox, elə ispanların özləri qapılarına vurdular.

Köln şəhərinin "Rayn-energi" stadionunda keçən matçdan heç kim sensasiya gözləmədiyindən, ispanların bu sürprizi hamını çaşdırdı. Amma bu çaşqınlıq 39-cu dəqiqəyə qədər davam etdi. Gürcüləri, demək olar ki, topsuz qoyan De-la Fuentenin yetirmələri Mamardaşvilinin qapısına aramsız hücumları ilə əsl futbol tamaşası nümayiş etdirirdilər. Amma gürcü qapıçı qapısını qoruduğu "Valensiya" klubundan yaxşı bələd olduğu ispanlara 39-cu dəqiqəyə qədər sevinmək şansı vermədi və bir neçə əla "seyvlər"lə yadda qaldı.

Gürcülər çox motivasiyalı oynasalar da, texniki cəhətdən və ustalıq baxımından onlardan iki baş yuxarı oynayan İspaniya millisi qarşısında dayanmaqda aciz idilər. İspan hücumçular lazım olan qolu vura bilməyəndə, İngiltərənin "Mançester Siti" klubunda oynayan və öz mövqeyində dünyanın ən yaxşılarından biri sayılan yarımmüdafiəçi Rodri meydana çıxdı. "Furiya roho"nun adlı-sanlı ulduzu güclü zərbə ilə topu Mamardaşvilinin qoruduğu qapının sağ küncünə göndərdi. Gürcü qapıçı bu dəfə aciz qaldı.

1:1 hesablı heç-heçə ilə başa çatan ilk hissədən sonra ispanların futbol şousu başladı. Oyunun 51-ci dəqiqəsində "Barselona" klubunun üzvü 16 yaşlı hücumçu Lamin Yamal qapı önünə əla ötürmə etdi. Fabian Ruiz baş zərbəsi ilə ikinci topu gürcülərin qapısına vurdu.

Villi Sanyolun komandasının ən böyük səhvi, bəlkə də hücum futboluna üstünlük vermələrində idi. Bu, ispanlar üçün əla fürsətlər yaradırdı və belə də oldu. Gürcülər George Mikautadzenin və "Napoli" klubunda top qovan Kvartsaxeliyanın qüvvələri ilə ara-sıra kəskin əks-hücumlar həyata keçirməyə çalışırdılar. Bunlardan birinin nəticəsində 75-ci dəqiqədə gürcülər rəqiblər üçün cinahlarını açdılar. Arxadan əla ötürmə alan Niko Uilyams sürətlə rəqibin cərimə meydançasına daxil oldu və qapıçıya heç bir şans vermədən qapı tirinin altına zərbə endirdi. 3:1. Daha 8 dəqiqədən sonra Dani Olmo topu Mamardaşvilinin qapısına vuraraq matçın yekun nəticəsini müəyyənləşdirdi. İspaniya 1/4 finaldadır.

***

İyulun 1-də Avropa çempionatının 1/8 final oyunları Portuqaliya – Sloveniya və Fransa–Belçika matçları ilə azarkeşlərin diqqətində olub. Belə demək mümkünsə, Portuqaliya pley-offa yaxşı əhval-ruhiyyə ilə çıxmamışdı. Komanda seçmə mərhələdə və Avropa çempionatı finallarında 12 oyunluq qələbə seriyasından sonra Gürcüstana məğlub olub. Amma insafən, portuqaliyalılar hələ Gürcüstanla oyundan əvvəl F qrupunda birinci yeri təmin etdiklərindən son turda bir sıra önəmli futbolçulara istirahət vermişdilər.

Onların rəqibi Sloveniya isə turnirdə ilk dəfə pley-off mərhələsinə yüksəlib. Matyaj Kekin yetirmələri Avro-2024-dakı son dörd matçında heç-heçə edərək, hətta İngiltərə ilə ən son oyunda qapını təmiz saxlaya biliblər. Mart ayında Lyublyanada Portuqaliya ilə yoldaşlıq görüşündə 0:2 hesabı ilə uduzan sloveniyalıların baş məşqçisi Kek hələ görüşdən əvvəl demişdi: "Çox çətin qrupdayıq, amma böyük komandamız var. İndi o böyük komanda meydanda Ronaldo və komandası ilə üzüzə qalmışdı.

### Avtoqol Fransanaya qələbə gətirdi

İyulun 1-də Fransa–Belçika matçı nə qədər gərgin keçsə də aydın görünürdü ki, belçikalılar 1/8-ə autsayder kimi yanaşıblar. Baxmayaraq ki, Fransa qrup mərhələsində təkbaşına yalnız 1 qol vurub - o da penaltidən.

Düsseldorfda baş tutan bu görüşün ilk yarısının statistikasına nəzər salsaq, Didye Deşamın komandasının ümumi üstünlüyü aydın görünər: topa sahib olmada fransızlar 41 faizə qarşı 59 faiz, qapıya zərbələrdə 9-1. Bununla belə, "xoruzlar"ın rəqibi rahat buraxdığını söyləmək əsla düz olmazdı - oyun çox sıx və mürəkkəb oldu.

İkinci hissədə daha çox şanslar olsa da, fransızların üzərindəki lənət davam etdi - top sanki sehrlənmiş kimi hədəfə uçmaqdan imtina edirdi. 85-ci dəqiqəyə kimi Deşamın komandası qapıya 18 zərbə endirdi, lakin cəmi bir zərbə dəqiq oldu. Mbappe, Kante, narahat Tçuameni, hətta mərkəz müdafiəçisi Saliba da əllərindən gələni etməyə çalışdılar. Belçikalılar müdafiəyə otursalar da, iki çox təhlükəli əks-hücum qurdular. Lakin Lukakunun qüvvətli zərbəsini müdafiəçi dəf etdi. Sonda isə De Bruyne topu qapının uzaq küncündən tora qovuşdura bilmədi.

Bundan sonra ən qədim futbol qaydası işə düşdü: Fransa millisində Türamın yerinə meydana çıxan Kolo Muani cərimə meydançasında topu qəbul edərək gövdəsi ilə dövrə vurub zərbə endirdi. Zərbə yöndəmsiz idi, lakin Vertongenə dəyərək istiqamətini dəyişdi və qolkiperin sıçrayışının əks istiqamətindən tora qovuşdu. Bir çox matçlarda olduğu kimi, hər iki komandanın ifa etdiyi dişsiz oyundan sonra fransızlar hesabda irəli çıxdılar. Əlavə vaxtla birlikdə qalan cəmi 8 dəqiqədə Deşamın yetirmələri bütün komanda ilə mərkəz xəttinin özlərinə aid hissəsinə çəkilərək, Belçikaya təhlükəli şans yaratmağa imkan vermədilər. Beləcə Fransa 1/4 finala vəsiqəni təmin edən 5-ci komanda oldu.

*Səhifəni hazırladı:*
***İlqar RÜSTƏMOV***
***XQ***

# Yenə yağış, duman və külək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 2-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir.**



Lakin gün ərzində bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-23°, gündüz 28-32° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunu, nisbi rütubət gecə 55-65, gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 28-32°, dağlarda gecə 9-14°, gündüz 14-18° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2607
SİFARİŞ 1412
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00